# Milli Məclis

ANALİTİK İNFORMASİYA JURNALI

NOYABR-DEKABR, 2024 | WWW.MECLIS.GOV.AZ




**İlham Əliyev:** *«COP29-un sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcək»*


Şuşa

**Milli Məclis**
*Analitik informasiya jurnalı*

**Təsisçi:**
Azərbaycan Respublikasının
Milli Məclisi


**Redaksiya Şurasının sədri:**
Sahibə Qafarova

**Redaksiya Şurasının üzvləri:**
Əli Əhmədov, Ziyafət Əsgərov, Rafael Hüseynov, Musa Qasımlı, Fərid Hacıyev, Əli Hüseynli, Arzu Nağıyev, Zahid Oruc, Sadiq Qurbanov, Azər Əmiraslanov, Tahir Rzayev, Musa Quliyev, Əhliman Əmiraslanov, Hicran Hüseynova, Şahin İsmayılov, Fazil Mustafa, Siyavuş Novruzov, Anar İsgəndərov, Polad Bülbüloğlu, Səməd Seyidov, Eldar İbrahimov, Eldar Quliyev

**Baş redaktor:**
Ülviyyə Abdullayeva

**Redaktorlar:**
Aidə Əhmədova
Qərənfil Mansurova

**Dizayn:**
Vəfadar Əliyev


**Redaksiyanın ünvanı:**
Azərbaycan 1152, Bakı,
Parlament prospekti 1.
Tel: (+99 412) 510 90 01
(+99 412) 510 67 01
(+99 412) 510 88 72

Milli Məclisin rəsmi web səhifəsi:
**www.meclis.gov.az**

"Milli Məclis" jurnalının
web səhifəsi:
**www.jurnal.meclis.gov.az**

**Jurnal 2007-ci ilin may ayından nəşr olunur**


# BU SAYDA

**BURAXILIŞ:** NOYABR-DEKABR, 2024


*Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası uğurla keçirildi* ........ 2

*COP29: Parlamentlər yaşıl dünya, daha yaxşı və davamlı gələcək naminə həmrəyliklə fəaliyyət göstərəcəklər* ........ 8

*COP29: Milli Məclis sədrinin görüşləri* ........ 14

*Müstəqil Azərbaycan Respublikası dünyada yaşayan bütün azərbaycanlıların güvənc yeridir* ........ 22

*Azərbaycan və Türkiyə parlamentləri arasında əlaqələr çox yüksək səviyyədədir və bütün istiqamətlər üzrə genişlənməkdədir* ........ 28

*Rəsmi qəbullar* ........ 32

*Milli Məclisdə Beynəlxalq Parlament Konfransı keçirildi* ........ 36

*ADA Universitetində parlament diplomatiyası geniş müzakirə olundu* ........ 40

*Milli Məclisdə Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupunun təşkilatçılığı ilə ictimai dinləmə keçirildi* ........ 42

*Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə mühüm qlobal tərəfdaş kimi - COP29* ........ 44

*Strateji vəzifələrin və təşəbbüslərin reallaşmasına maliyyə təminatı yaradan büdcə* ........ 48

*Milli Məclis hibrid təhdidlərlə mübarizəyə qətiyyətli dəstək verir* ........ 56

*Ağdam şəhərinin azad edilməsi Zəfər tariximizin şanlı səhifəsidir* ........ 60

*Qərbi Azərbaycana qayıdış: insan hüquqlarının aliliyinin və davamlı sülhün mühüm şərti kimi* ........ 64

*Dövlət auditinin yaratdığı dəyər və üstünlüklər: Hesablama Palatasının fəaliyyətinin keyfiyyət göstəriciləri* ........ 70

*Azərbaycanın lider dövlət strategiyası* ........ 76

*Quba Xan Sarayı: mədəni irsimizi qorumalı və bərpa etməliyik* ........ 82

*Azadlığın dörd ili - Kəlbəcər doğma sakinlərini qarşılamağa hazırlaşır* ........ 86

*Laçın - tarixi Zəfərimizin qalibiyyət səhifəsi* ........ 90

*Yerli özünüidarəetmə: qazanılmış təcrübə və hədəflər* ........ 94

*Cənnət də olsa, dünyanın heç bir ölkəsi Azərbaycanın yerini verə bilməz* ........ 98

# Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası uğurla keçirildi

*Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP) müasir dünyanın ən aktual problemlərindən biri olan iqlim dəyişikliyinin həllinə yönəlmiş beynəlxalq platforma olaraq xüsusi əhəmiyyət kəsb edir. Əsas məqsədi karbon emissiyalarını azaltmaq, təmiz enerji mənbələrinə keçidi dəstəkləmək və iqlim böhranına qarşı daha səmərəli qlobal yanaşma formalaşdırmaq olan konfransın 29-cu sessiyasının Azərbaycanda keçirilməsi ölkəmizin bu sahədəki ciddi mübarizəsinin və yeni imkanlar təqdim etməsinin bariz nümunəsi oldu. İqlim dəyişikliyi ilə mübarizədə qlobal həmrəyliyin möhkəmləndirilməsi üçün əhəmiyyətli bir addım atan Azərbaycan hökuməti bu çərçivədə öz məsuliyyəti ilə həm regional, həm də qlobal miqyasda müsbət nümunə göstərdi. Ölkəmizin COP29-a uğurla ev sahibliyi etməsi bütün dünyada enerji təhlükəsizliyinin təmin olunmasındakı rolunun, həyata keçirdiyi ekoloji təşəbbüslər fonunda qlobal miqyasda yaşıl iqtisadiyyatın inkişafına dəstəyin göstəricisinə çevrildi.*

*Noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimi keçirildi. Tədbirdə çıxış edənlər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının tam və yaddaqalan transformasiyasına nail olunduğunu, iqlim fəaliyyəti sahəsində çox güclü beynəlxalq tərəfdaşlığın qurulmasını, xüsusən də BMT, Qoşulmama Hərəkatı və Millətlər Birliyi kimi təşkilatlarda əməkdaşlığın gücləndirilməsini, bu platformalarda Azərbaycanın dayanıqlı iqtisadi artım və müqavimət gücünü təşviq etməsini vurğuladılar.*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak və çıxış etdi.**

“Hörmətli BMT-nin Baş katibi.

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar.

Mən sizin hamınızı Azərbaycanda salamlayıram.

Qonaqlarımızın çoxu Azərbaycana ilk dəfədir ki, səfər edir. Ümid edirəm ki, onların ölkəmizlə daha yaxından tanış olmaq, onun tarixini, ənənələrini və mədəniyyətini öyrənmək imkanı olacaqdır.

Mən COP29-a aparan yolda Azərbaycana verdiyi dəstəyə görə BMT-nin Baş katibi cənab Antonio Quterreşə və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinə təşəkkürümü bildirmək istəyirəm. Mən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti, əziz qardaşım Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı və onun bütün komandasını Dubayda COP28-də əldə olunmuş tarixi konsensus münasibətilə təbrik edirəm və Bakıda COP29 üçün hazırlıqlarda verdikləri dəstəyə görə minnətdaram.

Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük.

Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib.

Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və bir milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, biz özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkəni qura bildik. Dörd il öncə biz İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik.

Bir il əvvəl biz BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT-nin Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə uyğun olaraq suverenli-


United Nations
Climate Change
COP29
Baku
Azerbaijan




yimizi tam bərpa etdik. Biz həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik və Ermənistanın işğalına son qoyduq. COP29-un sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcək. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində BMT-dən sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurla sədrlik etdi.

Azərbaycan həmçinin təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Avropa İttifaqının 10 üzvü ilə Azərbaycan sazişlər imzalayıb və strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib. Bütün bunlar bizə düşünməyə imkan verir ki, biz iqlim dəyişmələri məsələsində fərqli mühüm iştirakçılar arasında körpülərin salınmasında çox faydalı və yardımçı ola bilərik. Azərbaycan çoxtərəfliliyin tərəfdarıdır. Eyni zamanda, biz mədəniyyətlərarası dialoqda fəal rol oynayırıq.

BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə biz iki ildən bir Bakıda Mədəniyyətlərarası Forum təşkil edirik. Multikulturalizm bizim dövlət siyasətimizdir və həyat tərzimizdir. Azərbaycan xalqı etnik və dini mənsubiyyətindən asılı olmayaraq, sülh və razılıq şəraitində bir ailə kimi yaşayır.

İndi isə mən Azərbaycanın Yaşıl gündəliyi haqqında bir neçə söz söyləmək istərdim. Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 qiqavat, dənizdə isə 157 qiqavat təşkil edir. Ötən il BƏƏ-nin Masdar şirkəti bir regionumuzda 230 meqavatlıq Günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının “Acwa Power” şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir.

COP29 çərçivəsində Birləşmiş Krallığın bp şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcəkdir.

Biz 2030-cu ilə qədər təxminən altı qiqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Lakin bu, tam planlarımızın hamısı deyil, 10 qiqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Biz həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji




təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq.

Bu, bizə Avropaya yaşıl enerjini ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd qiqavatdır. Yeri gəlmişkən, texniki əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır. Yaşıl gündəliyimiz həmçinin Azərbaycanın müxtəlif bölgələrini əhatə edir. Beləliklə, Azərbaycanın Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları yaşıl enerji zonaları elan edilib və bu, ərazimizin, demək olar ki, dörddəbir hissəsidir.

İndi isə mən enerji təhlükəsizliyinin digər seqmenti haqqında bir neçə söz söyləmək istərdim. Bu da neft və qazla bağlıdır. Anlayıram ki, bu mövzu iqlim dəyişmələrinə aid konfransda o qədər də populyar deyil. Lakin bunsuz mənim şərhlərim tam olmazdı. Sadəcə, bir informasiya ilə başlamaq istərdim. Dünyada sənaye üsulu ilə ilk neft quyusu Azərbaycanda - Bakıda 1846-cı ildə qazılıb. O, buradan uzaq yerdə yerləşmir və həmin yerə 10-15 dəqiqəlik yoldur. Dənizdə ilk neft quyusu da Azərbaycan neftçiləri tərəfindən Xəzər dənizində XX əsrin ortalarında qazılmışdır. XIX əsrdə qlobal neft hasilatının yarısı Azərbaycanın payına düşürdü.

Əgər o vaxt bəzi Qərb siyasətçiləri və media bizi neft dövləti adlandırsaydı, bu, bəlkə də anlaşılan olardı. Lakin əgər onlar indi, yəni bu gün də bizi neft dövləti adlandırırlarsa, bu, ədalətsizlikdir və yalnız siyasi mədəniyyət və biliklərin çatışmamasından xəbər verir. Bu gün Azərbaycan qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. Amma dünyada bir nömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır.

Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir. Mən bu rəqəmləri auditoriyamızın diqqətinə çatdırmalıyam, çünki Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik.

Qərbin yalan xəbər mediası, dırnaqarası müstəqil QHT-ləri və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar. Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir.

Ölkələrə qiymət başqa meyarlara görə verilməlidir. Məsələn, Azərbaycanda işsizliyin səviyyəsi 5,4 faiz, yoxsulluğun səviyyəsi 5,2 faizdir. Yaşıl gündəliyimizə gəldikdə, mən planlarımızı artıq təsvir etdim. Ölkələr öz xarici borcunu necə idarə edirlər? Azərbaycanın xarici borcu ÜDM-in cəmi 7,5 faizini təşkil edir. Beləliklə, ölkə göstəricilərinin qiymətləndirilməsində əsas götürülməli bu və bir çox digər mühüm meyar bunlardır, Tanrının bəxş etdiyi təbii sərvətlər meyar kimi götürülməli deyil. Mən bir neçə ay bundan əvvəl söylədim: indi mənə hücum çəkmək istəyənlərin hamısı, - mən beynəlxalq medianı nəzərdə tuturam, - mənim yalnız Tanrının bəxş etdiyi hədiyyə sözlərimə iqtibas edirlər.

Bu gün isə mən bu auditoriyada, burada təkrar etmək istəyirəm: Bu, Tanrının bəxş etdiyi hədiyyədir. Hər bir təbii sərvət - neft, qaz, külək, günəş, qızıl, gümüş və mis- bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir: COP29-un sədri kimi, əlbəttə, biz yaşıl keçidin güclü carçısı olacağıq və bunu edirik, lakin, eyni zamanda, biz realist olmalıyıq.

Digər ittiham məsələsinə gəldikdə, iki il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atdılar. Lakin bu, bizim ideyamız deyildi. Bu, Avropa Komissiyasının təklifi idi. Avropa Komissiyasının sədri bu sənədi imzalamaq üçün iki il öncə Bakıya gəldi. Çünki geosiyasi vəziyyətin dəyişməsi səbəbindən onlara bizim qaz lazım idi. Onlar bizdən yardım xahiş etdilər. Biz razılaşdıq. Əgər yardımımıza ehtiyac varsa, biz hər zaman kömək etməyə hazırıq. Dedik, yaxşı, biz enerji təhlükəsizliyində Avropaya kömək edəcəyik. İki il əvvəl həmin bəyannaməni




imzalayanda qazımızı alan ölkələrin, yəni Avropa ölkələrinin sayı iki idi. İndi isə səkkiz ölkə alır.

Azərbaycan qazına çıxışı olan on ölkədən səkkizi Avropada yerləşir. Avropa Komissiyası həmçinin bizdən xahiş edib ki, biz qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artıraq. Bu, Avropa Komissiyasının sədri və mənim tərəfimdən iki il öncə Bakıda imzalanmış bəyannamədə əks olunub. Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi Qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib.

Mənim sonuncu mesajım təxminən bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və Baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!

Sağ olun".

**Noyabrın 13-də Bakıda COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammiti keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak və çıxış etdi.**

"Hörmətli Baş katib.

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar, əziz dostlar.

Mən sammitin bütün iştirakçılarını salamlayıram. Azərbaycan COP29-a ev sahibi olduqdan sonra inkişaf edən kiçik ada dövlətləri ilə münasibətlərimiz yeni, daha yüksək

səviyyəyə qalxıb. Kiçik ada dövlətlərinin səsi qlobal arenada eşidilməlidir. Mən inkişaf etmiş bütün ölkələrə, xüsusən də müstəmləkə keçmişi olan ölkələrə müraciət edirəm ki, kiçik ada dövlətlərinə maddi və texniki dəstək göstərsinlər ki, onlar ölkələrini iqlim dəyişmələrinin fəsadlarından qoruya bilsinlər. İqlim dəyişmələri hər bir ölkəyə, o cümlədən Azərbaycana təsir göstərir. Görürük ki, Xəzər dənizi ilbəil daha da dayazlaşır. Görürük ki, çaylarımızda daha az su, dağlarımızda daha az qar var. Əfsuslar ki, keçmişdə heç vaxt görmədiyimiz daşqınlar və kəskin yağışlar bu gün reallıqdır. Bir sözlə, hər bir ölkə təsirə məruz qalır, lakin kiçik ada dövlətləri üçün bu, ekzistensial təhlükədir.

Azərbaycan kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirir. Biz fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstərmişik. Biz həmçinin su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək vermişik. Ondan çox kiçik ada dövləti Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramımızdan yararlanıb. Qoşulmama Hərəkatında dördillik sədrliyimiz dövründə biz 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərmişik.

Həmin ölkələrin üzləşdiyi çağırışların aradan qaldırılması COP29-da Azərbaycanın göstərdiyi səylərin əsasını təşkil edir. Bu ilin mayında COP-la bağlı planlarını müzakirə etmək üçün Baham adalarının, Tonqanın və Tuvalunun rəhbərləri Azərbaycana səfər etdilər. Qəbul olunmuş Bakı Kommünikesində COP29-da mənalı nəticələrin əldə olunmasına çağırış edilir və əlçatan iqlim maliyyəsinin vacibliyi qeyd olunur. Bu ilin sentyabrında İtki və Zərərə Cavab Fondunun fəaliyyətə başlaması ilə bağlı Bakıda ciddi irəliləyiş əldə olunmuşdur. Hazırda proses ehtiyac duyan ölkələrə, xüsusən də kiçik ada dövlətlərinə maliyyənin verilməsi üçün tamamlanmalıdır. Bu yay Azərbaycan Tonqada Millətlər Birliyi ilə Birgə Bəyannamə imzaladı.

Biz Millətlər Birliyinin kiçik ada dövlətlərindəki birgə layihələrini dəstəkləmək üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayırırıq. Ətraf mühitin monitorinqi və qiymətləndirilməsi üçün Azərbaycanın Kosmos Agentliyi - “Azərkosmos”dan peyk məlumatlarından istifadə etmək üçün Millətlər Birliyi ilə Anlaşma Memorandumu imzalanmışdır.

Hörmətli xanımlar və cənablar, fürsətdən istifadə edərək, mən beynəlxalq gündəlikdə mühüm məsələlərdən birini də qaldırmaq istəyirəm - neokolonializm və iqlim dəyişmələri. Fransa və Niderlandın, xüsusən də Karib dənizi və Sakit Okean regionundakı dırnaqarası dəniz əraziləri iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalanlar sırasındadır. Artan dəniz səviyyəsi, kəskin hava şəraiti və biomüxtəlifliyin pozulması həmin regionlara ciddi təhlükə yaradır. Həmin icmaların səsi bir çox hallarda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulur.

Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reunion, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sənt-Maarten, Boneyr, Sent Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqları, - gəlin, həmin ərazidəki xalqları alqışlayaq, - bu gün XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər. Hazırda Fransa Polineziyası və Yeni Kaledoniya 1946-1947-ci illərdə BMT tərəfindən qeyri-özünü idarə edən ərazilər kimi tanınır. Bununla belə, onların dekolonizasiya prosesi hələ də yubanır.

1966-1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, biz həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görərik. Fransanın dırnaqarası dəniz ərazilərində törətdiyi cinayətlər siyahısı rejimin bu yaxınlarda insan hüquqları pozulmalarını qeyd etməsək, tam olmazdı. Prezident Makronun rejimi Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoymuş, 169 nəfəri yaralamışdır. 1700 insan həbs edilmişdir. Həmçinin bu il Martinika və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub. Bütün bunlarla yanaşı, Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi. Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat - Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyasi məhbuslar dərhal azad olunmalıdır.

Əgər Avropanın əsas diplomatı Cozep Borrell Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəllikiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə dostlarımızı dəstəkləməkdə davam edəcək.

Çox sağ olun”.




# COP29: Parlamentlər yaşıl dünya, daha yaxşı və davamlı gələcək naminə həmrəyliklə fəaliyyət göstərəcəklər

Noyabrın 16-17-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə Parlament Görüşü keçirildi. Milli parlamentləri, parlamentlərarası təşkilatları, habelə müxtəlif təsisatları təmsil edən nümayəndə heyətlərinin iştirak etdiyi tədbiri giriş nitqi ilə açan Milli Məclisin sədri Sahibə Qafarova bu görüşü zəmanəmizin ən aktual problemi olan iqlim dəyişikliyi məsələsinin həllində qətiyyətimizin və fədakarlığımızın göstəricisi kimi qiymətləndirdi.

Azərbaycan parlamentinin başçısı qeyd etdi ki, iqlim dəyişikliyinin təsirləri dünyanın bütün ölkələrinə sirayət edir və bu baxımdan Azərbaycan da istisna deyil. Son illər respublikamız həddindən artıq istilər, su qıtlığı, Xəzər dənizinin dayazlaşması və daşqınlar kimi problemlərlə üzləşir. Ölkəmiz hələ COP29-a ev sahibi seçilməzdən xeyli əvvəl Prezident İlham Əliyevin rəhbərliyi ilə iqlimlə bağlı fəaliyyətləri öz milli planlarının mərkəzinə yerləşdirib, könüllü öhdəliklər götürərək yaşıl gündəliyi milli inkişaf proqramlarına daxil edib, bərpa olunan enerji ilə bağlı layihələr həyata keçirərək, “yaşıl enerji” zonaları yaradaraq gələcək inkişaf yolunda əzm və qətiyyət nümayiş etdirib.

Spiker çıxışında onu da diqqətə çatdırdı ki, Azərbaycanın COP29-a ev sahibi qismində seçilməsi dünya ictimaiyyətinin ölkəmizin körpü qurucusu kimi çıxış etmək,




icmaları və ölkələri ortaq bir məram ətrafında birləşdirmək bacarığına və təcrübəsinə olan inamının nəticəsidir. Digər ölkələrlə müqayisədə hazırlıqlar üçün daha az vaxt - yalnız 11 ay olmasına baxmayaraq, Azərbaycan bu məsələdə bütün maraqlı tərəfləri cəlb etmək, onların ehtiyaclarını dinləmək və gözləntilərini anlamaq istiqamətində böyük işlər görmüşdür.

Sahibə Qafarova təəssüf hissi ilə qeyd etdi ki, bu hazırlıqlar zamanı ölkəmiz bəzi dövlətlər və media platformaları tərəfindən qərəzli və əsassız ittihamlarla, ikili standartlarla, dezinformasiya kampaniyaları ilə üzləşib. Bəziləri ümumi çağırışlar qarşısında dialoqun, əməkdaşlığın və həmrəyliyin gücünü unudurlar. Digər tərəfdən, onlar hələ də başa düşmürlər ki, mühüm əhəmiyyətə malik olan iqlim dəyişikliyi məsələsi onların dar maraqlarını və siyasi motivli ambisiyalarını nümayiş etdirmək üçün platforma rolunu oynaya bilməz. Bu xoşagəlməz hallara baxmayaraq, COP29 uğurla işinə başlayıb və bütün maraqlı tərəflərin iştirakı ilə işini davam etdirir. Fəaliyyət Gündəliyi və COP29 Sədrliyi tərəfindən irəli sürülən 14 təşəbbüs inklüziv prosesin nəticəsi olmaqla yanaşı, hərtərəfli yanaşma nümayiş etdirir və qlobal iqlim fəaliyyətində hamını bir araya gətirir.

Davam edən müzakirələr nəticəsində artıq bəzi mühüm nəticələrin də əldə olunduğu vurğulandı.

Milli Məclisin sədri  söylədi ki, parlamentlərimiz hökumətlərimizə iqlimlə bağlı fəaliyyətin inkişafında dəstək olmaq üçün qanunvericilik, büdcə və ya nəzarət vasitəsilə lazım olan alətlərə malikdirlər və onların əksəriyyəti artıq emissiyaların azaldılması, enerji keçidi və yaşıl inkişafla bağlı qanunlar qəbul ediblər.

Sahibə Qafarova onu da bildirdi ki, iqlim dəyişikliyi bəşəriyyətin istənilən milli sərhədləri aşan və kollektiv səylər tələb edən böyük problemidir. Dünyanın müxtəlif ölkələrindən olan çoxsaylı parlamentarilərin bu gün burada bizə qoşulmasını görmək mənə böyük qürur və sevinc verir, ümumi məqsəd uğrunda birliyimizi göstərir. Biliklərimizin və qabaqcıl təcrübəmizin paylaşılması sahəsində parlament əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir və hamı üçün faydalıdır.

Spiker Sahibə Qafarova daim dialoq və həmrəylik fikrinə sadiq qalan Parlamentlərarası İttifaqın bu prosesdə əhəmiyyətli təşəbbüslərini, iqlim tədbirləri ətrafında səfərbərlik  prinsiplərini, iqlim böhranının mənfi təsirlərinin







aradan qaldırılması işini yüksək dəyərləndirdi. Qeyd olundu ki, biz qanunvericiliyimizi daha da təkmilləşdirməli, hökumətlərimizi öz səylərini daha yaxşı səfərbər etməyə təşviq etməli və öhdəliklərini yerinə yetirmək üçün onlara təsir göstərməliyik. Vətəndaş cəmiyyəti ilə əməkdaşlığın artırılması onların narahatlıqlarını daha yaxşı anlamağa kömək edəcək.

Milli Məclisin sədri söylədi ki, ümumi mövqeyimizi əks etdirən yekun sənəd iqlim maliyyələşdirilməsi, təsirlərin azaldılması və uyğunlaşması, şəffaflıq, milli səviyyədə müəyyən edilmiş töhfələr kimi ən aktual problemləri və vacib məsələləri ön plana çəkir. Sahibə Qafarova əminliyini ifadə etdi ki, ölkələrimiz daha güclü tərəfdaşlıq, dəstək və öhdəliklərlə yaşıl dünya, daha yaxşı və davamlı gələcək naminə həmrəyliklə irəliləyəcək.

Sonra tədbirdə çıxış edən Tanzaniya Birləşmiş Respublikası Milli Assambleyasının sədri, PAİ prezidenti Tulia Akson, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev, PAİ-nin Baş katibi Martin Çunqonq, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icra katibi Saymon Stil, Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva bütün dünyanı narahat edən iqlim dəyişmələri problemi, iqlim dəyişmələrinə qarşı mübarizə, bu sahədə parlamentlərin rolu barədə fikirlərini bildirdilər. Qonaqlar COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə təşəkkür etdilər, bu tədbir çərçivəsində görüləcək işlərin öz bəhrəsini verəcəyinə ümidvar olduqlarını dilə gətirdilər.

Sonra tədbir iştirakçılarına iqlim dəyişmələrinin real təsirlərinə həsr olunmuş videoçarx nümayiş etdirildi, mövzu ətrafında çıxışlar dinlənildi.

Daha sonra Parlament Görüşü sessiyalarda öz işini davam etdirdi. "İqlim öhdəliklərinin reallığa çevrilməsi üçün təsirlərin azaldılması ilə bağlı iddialı tədbirlərin artırılmasında və milli səviyyədə müəyyən edilmiş töhfələrin həyata keçirilməsində parlamentlərin rolu", "İqlim maliyyələşdirilməsinin qlobal arxitekturasının inkişafı", "İqlim dəyişmələrinə qarşı dayanıqlılığın artırılması", "İqlim həssaslığı probleminin həll edilməsi", "İqlim fəaliyyətinə hərtərəfli və ədalətli yanaşmanın təşviqi", "İqlim dəyişikliyi ilə mübarizədə texnologiyadan istifadə və ədalətin təmin edilməsi", "Dəyişən iqlim şəraitində sağlamlığın və ərzaq təhlükəsizliyinin qorunması səyləri", "İnsan hərəkətliliyi və iqlim dəyişikliyi ilə bağlı naviqasiya: İqlimlə bağlı miqrasiya və yerdəyiş-




mənin həlli" və digər mövzularda müzakirələr aparıldı. Çıxış edən bir sıra ölkələrin parlament rəhbərləri, deputatlar, beynəlxalq təşkilatların nümayəndələri COP29-un iqlim dəyişmələrinə qarşı mübarizədə əhəmiyyətindən söz açdılar.

Parlament Görüşündə Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov, sədr müavinləri Ziyafət Əsgərov, Musa Qasımlı, Rafael Hüseynov, parlamentin komitə sədrləri, deputatlar, müxtəlif ölkələrin və beynəlxalq təşkilatların nümayəndələri iştirak edirdilər.

Sessiyalarda çıxış edənlər iqlim dəyişikliyindən təsirlənən həssas qrupların müdafiəsini təmin etməyin, ədalətli və hərtərəfli iqlim siyasətinin təşviqinə dəstək olmağın vacibliyindən danışdılar, texnologiyanın, xüsusilə süni intellektin iqlim dəyişikliyi ilə mübarizədə rolu, ərzaq təhlükəsizliyinin və sağlamlığın qorunması, iqlimlə bağlı miqrasiyanın nəticələri barədə fikirlərini səsləndirdilər. İqlim dəyişikliyinin qarşısının alınması üçün mütəmadi olaraq bu cür tədbirlərin keçirilməsinin əhəmiyyəti vurğulandı.




Sessiyalardakı müzakirələrdən sonra COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə Bakıda keçirilən Parlament Görüşünün bağlanış və yekun sənədinin qəbulu mərasimi keçirildi. Mərasimdə Milli Məclisin sədri Sahibə Qafarova, Tanzaniya Birləşmiş Respublikası Milli Assambleyasının sədri, PAİ prezidenti Tulia Akson, PAİ-nin Baş katibi Martin Çunqonq, Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva, Tacikistan Ali Məclisi Nümayəndə-







lər Palatasının sədri Mahmadtoir Zokirzoda, Zimbabve Milli Assambleyasının sədri Yakob Mudenda, Tonqa Qanunvericilik Məclisinin sədri Lord Fkafanua Fatafehi, Milli Məclisin deputatları, xarici ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və üzvləri iştirak edirdilər.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Soltan Məmmədov Azərbaycanda "yaşıl enerji"yə keçidlə bağlı görülmüş işlərdən danışdı, bu Parlament Görüşünün məhsuldar olduğunu vurğuladı.

Sonra Parlament Görüşünün yekun sənədi barədə məlumat verildi, sənəd üzərində görülmüş işlər, nəzərə alınmış təkliflər diqqətə çatdırıldı.

Bağlanış mərasimində çıxış edən PAİ-nin Baş katibi Martin Çunqonq qeyd etdi ki, iki gün ərzində Parlament Görüşündə çox səmərəli müzakirələr aparıldı. O, bu tədbirin təşkilinə və ilk dəfə olaraq COP29-un "Yaşıl zona"sında keçirilməsinə görə Azərbaycan tərəfinə, xüsusilə də Milli Məclisin sədri Sahibə Qafarovaya təşəkkürünü bildirdi. Baş katib diqqətə çatdırdı ki, yekun sənəddə parlamentlərin iqlim dəyişikliyi ilə mübarizədə çox önəmli rolu yer alır. Bu sənəd parlamentlər üçün yol xəritəsidir və bu görüş bizim öz öhdəliklərimizə sədaqətimizi göstərir.

Çıxışının sonunda PAİ-nin Baş katibi Martin Çunqonq ona verilmiş səlahiyyətə əsasən COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə Bakıda keçirilən Parlament Görüşünü bağlı elan etdi.

# Milli Məclisdə Anlaşma Memorandumu imzalandı




Noyabrın 16-da Bakıda COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə keçirilən Parlament Görüşü zamanı Azərbaycan Respublikasının Milli Məclisi ilə Tolerantlıq və Sülh naminə Beynəlxalq Parlament arasında Anlaşma Memorandumu imzalandı. Sənədi Azərbaycan tərəfindən Milli Məclisin sədri Sahibə Qafarova, Tolerantlıq və Sülh naminə Beynəlxalq Parlament tərəfindən isə Qlobal Tolerantlıq və Sülh Şurasının sədri Əhməd Məhəmməd Əlcərvan imzaladılar.

Milli Məclisin sədri Sahibə Qafarova Anlaşma Memorandumunun Azərbaycan parlamenti ilə Qlobal Tolerantlıq və Sülh Şurasının parlament ölçüsü olan Sülh naminə Beynəlxalq Parlament arasında əməkdaşlığı möhkəmləndirəcəyini vurğuladı.



# COP29: Milli Məclis sədrinin görüşləri

Milli Məclisin sədri Sahibə Qafarova noyabr ayında Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan bir çox dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri ilə görüşdü.



Noyabrın 19-da Azərbaycan parlamentinin rəhbəri Sahibə Qafarova Aralıq dənizi Parlament Assambleyasının prezidenti Enaam Mayaranın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü. Görüş zamanı qlobal iqlim dəyişiklikləri ilə bağlı məsələlərin bütün dövlətləri narahat etdiyi qeyd olundu, COP29-un Bakıda təşkil edilməsi Azərbaycana olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığı fəal rolun yüksək dəyərləndirilməsi kimi qiymətləndirildi.

Söhbətdə iqlim dəyişikliyi ilə bağlı məsələlərin bütün dövlətləri təhdid etdiyi, onun müşahidə olunan fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylərin gücləndirilməsinin vacibliyi vurğulandı.

Görüşdə spiker qonaqlara işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işləri, "yaşıl enerji"yə keçid çərçivəsində "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrinin icrası barədə də məlumat verdi.

Fransanın müharibədən sonra Ermənistanı silahlandıraraq bölgədə vəziyyəti gərginləşdirməyə cəhdlər etdiyini bildirdi və diqqəti ikili standartlara çəkdi.

Parlament Assambleyasının prezidenti Enaam Mayara Azərbaycanın bu qlobal tədbirə uğurla ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdırdı, ölkəmizlə bağlı müsbət təəssüratlarını bölüşdü.

Görüşdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə bu təşkilat arasında mümkün əməkdaşlıq əlaqələri nəzərdən keçirildi.

✔ ✔ ✔

Həmin gün Milli Məclisin sədri Sahibə Qafarovanın Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə də görüşü oldu. Spiker Nizami Gəncəvi Mərkəzinin zəngin təcrübə və biliklərə malik görkəmli şəxsləri bir araya gətirən uğurlu işini və Azərbaycan Prezidenti İlham Əliyevin Mərkəzin fəaliyyətinə verdiyi yüksək qiyməti vurğuladı. Mərkəzin vacib məsələlərin müzakirəsi, problemlərin həlli üçün mühüm platforma olduğunu, indiyədək keçirilmiş Qlobal Bakı Forumlarının əhəmiyyətini və iştirakçı coğrafiyasının ildən-ilə genişləndiyini xüsusi qeyd etdi.



Azərbaycanın ötən ilin dekabrında yekdilliklə COP29-un ev sahibi kimi seçildiyini vurğulayan parlament sədri bunun ölkəmizin iqlim dəyişikliyi ilə mübarizədəki səylərinin tanınması və dünya ictimaiyyətinin Azərbaycanın icmaları və ölkələri birləşdirən körpü qurma qabiliyyətinə olan etimadının göstəricisi olduğunu bildirdi. O, hazırlıq prosesində ölkəmizin qərəzli ittihamlar, ikili standartlar və dezinformasiya kampaniyaları ilə üzləşdiyini, lakin bu maneələrə baxmayaraq, COP29-un bütün maraqlı tərəflərin iştirakı ilə işini uğurla davam etdirdiyini dilə gətirdi.

Sahibə Qafarova COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə keçirilən Parlament Görüşü barədə qonaqları məlumatlandırdı, eləcə də onlara Milli Məclisin tarixi, strukturu, fəaliyyəti haqqında məlumat verdi.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqa, İsmail Serageldin, üzvləri Rosen Plevneliev, Jean Baderşnayder və Denis Fransis çıxış edərək ölkəmizi COP29-un yüksək səviyyədə təşkil olunması münasibətilə təbrik etdilər. Ekoloji problemlərin həllinə həsr olunmuş bu



tədbirin mühüm qlobal əhəmiyyətindən danışan çıxışçılar Azərbaycanın dünyada artan nüfuzunu məmnunluqla dilə gətirdilər, ölkəmizin ekoloji sahədəki fəallığını və dünya miqyasında yaşıl inkişafın təşviqinə verdiyi töhfələri yüksək qiymətləndirdilər.

Görüş zamanı Azərbaycanın kiçik ada dövlətlərinə verdiyi dəstəkdən, oradakı təbii fəlakətlərin təsirini azaltmaq üçün göstərdiyi yardımlardan, ekoloji problemlərin həllindən, həmçinin iqlim dəyişikliyinin mənfi təsirlərinə qarşı mübarizədə fəal iştirakından söz açıldı.

✔ ✔ ✔

Milli Məclisin sədri Sahibə Qafarova noyabrın 18-də ATƏT PA-nın vitse-prezidenti və iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi Pere Joan Pons ilə görüşdü. Söhbətdə COP29-un və Parlament Görüşünün uğurlu təşkili, bu tədbirlər zamanı keçirilən müzakirələrlə bağlı fikir mübadiləsi aparıldı. Tərəflər COP29-un iqlim dəyişikliyi ilə effektiv mübarizə aparmağa imkan verəcək mühüm qərarların əldə edilməsi ilə nəticələnəcəyinə inamlarını ifadə etdilər.

İqlim dəyişikliyi ilə bağlı məsələlərin həllində parlamentlərin önəmli rolunun vurğulandığı söhbət zamanı iki gün davam edən Parlament Görüşündə milli parlamentlərdən, parlamentlərarası təşkilatlardan və digər qurumlardan 90-dan çox nümayəndə heyətinin iştirak etdiyi xatırladıl-

dı. Spiker Sahibə Qafarova qeyd etdi ki, bu, bizim bu prosesdə iştirak etmək niyyətimizi göstərir və görüşün sonunda qəbul olunan yekun sənəd ümumi mövqeyimizi əks etdirir.

ATƏT PA-nın vitse-prezidenti belə mötəbər tədbirə uğurla ev sahibliyi etdiyi üçün Azərbaycana təbriklərini çatdırdı və iqlim dəyişikliyi ilə bağlı məsələlərə qlobal yanaşmanın dəyişməsinin, bu sahəyə diqqətin daha da artırılmasının vacibliyini vurğuladı. Qonaq COP29-da qəbul olunmuş qərarların bütün dünya üçün əhəmiyyətli nəticələrə gətirib çıxaracağına inamını bildirdi.

Söhbət zamanı Milli Məclisin sədri Sahibə Qafarova qonağa regionda mövcud olan vəziyyət barədə məlumat verdi. O, Azərbaycanın torpaqlarının 30 ilə yaxın işğal altında qaldığını, artıq keçmişdə qalmış münaqişənin həlli ilə məşğul olmuş ATƏT-in Minsk qrupunun problemi həll edə bilmədiyini söylədi. Azərbaycanın bu məsələni öz gücü hesabına həll etdiyini, ona görə də qrupun artıq öz aktuallığını itirdiyini bildirdi.

Görüşdə parlamentlərimizin beynəlxalq əməkdaşlıq məsələləri də nəzərdən keçirildi.

✔ ✔ ✔

Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova COP29 çərçivəsində ölkəmizdə səfərdə olan Zimbabve Milli Assambleyasının sədri Yakob Mudenda ilə görüşdü. Tədbirə qatıldığına görə qonağa təşəkkür edən spiker xatırlatdı ki, Zimbabve Prezidenti Emmerson Mnanqaqva da COP29-da iştirak edib. Bu, Zimbabvenin iqlim dəyişikliyi ilə mübarizəyə sadiqliyini göstərir.

Parlament Görüşünün uğurla başa çatdığını qeyd edən Milli Məclis sədri iclasın sonunda qəbul olunmuş yekun sənədin iqlim dəyişikliyi məsələsində ümumi mövqeyimizi əks etdirdiyini dedi.



Yakob Mudenda həm COP29-un, həm də Parlament Görüşünün çox uğurla təşkil olunması münasibətilə təbriklərini çatdırdı, Azərbaycanın ev sahibliyi ilə keçirilən bu mühüm qlobal tədbirə beynəlxalq marağın böyük olduğunu bildirdi. O, COP29 çərçivəsində keçirilən müzakirələrdə az inkişaf etmiş ölkələrə dəstək göstərilməsi ilə bağlı çağırışların vacibliyini söylədi.

Görüşdə ölkələrimiz və parlamentlərimiz arasında əməkdaşlıq məsələləri də müzakirə olundu. Azərbaycanın Afrika dövlətləri ilə qarşılıqlı faydalı tərəfdaşlığın inkişafına maraq göstərməsi, ölkələrimiz arasında müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən Zimbabve ilə Birləşmiş Millətlər Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində mühüm siyasi əlaqələrin və səmərəli əməkdaşlığın mövcudluğu qeyd edildi.

✔ ✔ ✔

Noyabrın 17-də Azərbaycan parlamentinin rəhbəri ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası sədrinin birinci müavini Andrey Yatskin ilə görüşdü. Ölkələrimiz və qanunvericilik orqanlarımız arasında əməkdaşlığın müzakirə edildiyi söhbətdə Sahibə Qafarova iqlim dəyişikliyi ilə bağlı məsələlərin bütün dövlətləri narahat etdiyini vurğuladı. COP29 kimi mühüm qlobal tədbirdə bütün maraqlı tərəflərin iştirakı ilə məhsuldar müzakirələrin təşkil olunduğunu, artıq bəzi mühüm nəticələrin əldə edildiyini bildirdi.

Andrey Yatskin isə öz növbəsində COP29-un uğurlu təşkili münasibətilə təbriklərini çatdıraraq bütün dünyanın Bakıda keçirilən bu qlobal tədbirə böyük maraq göstərdiyini söylədi. Qeyd edildi ki, iqlim dəyişikliyi ilə bağlı məsələlərin həllində parlamentlər



mühüm rol oynayır. Bu baxımdan Parlament Görüşünün təşkili xüsusi məna ifadə edir. Belə ki, bu görüş parlamentlərin prosesdə iştirakının gücləndirilməsi, qarşılıqlı müzakirələr və diskussiyalar nəticəsində ortaq mövqeyə gəlmək üçün yaxşı platformadır.

Görüşdə həmçinin ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə inkişafından məmnunluq ifadə olundu, dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin əlaqələrin genişlənməsində mühüm rolu qeyd edildi.



Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova COP29 çərçivəsində keçirilən tədbirlərə qatılmaq üçün Azərbaycanda səfərdə olan Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva ilə görüşdü. Spiker ölkəmizin ev sahibliyi ilə keçirilən bu mühüm tədbirdə iştirakına və oradakı çıxışına görə qonağa təşəkkür etdi. Bildirildi ki, iqlim dəyişikliyi ilə əlaqədar dünyanın üzləşdiyi problemlərin həlli üçün qlobal əməkdaşlığın əhəmiyyəti danılmazdır və bu istiqamətdə parlamentlərin mühüm rolu vardır.

Söhbətdə Milli Məclisin sədri ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olmasından, əlaqələrimizin inkişafında prezidentlərin qarşılıqlı səfərlərinin, aparılan danışıqların önəmli rol oynamasından söz açdı. O, Azərbaycan ilə Özbəkistan arasında əməkdaşlığın inkişafında strateji tərəfdaşlığın dərinləşdirilməsi ilə bağlı imzalanmış sənədlərin vacibliyindən danışdı.

Spiker Sahibə Qafarova Özbəkistan dövlətinin başçısı Şavkat Mirziyoyevin ölkəmizə səfərə gələrək COP29-da iştirak etməsini, noyabrın 13-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin görüşündən sonra Azərbaycan və Özbəkistan prezidentlərinin iştirakı ilə Xankəndi şəhərində tikiş fabrikinin videobağlantı vasitəsilə açılış mərasiminin keçirilməsini məmnunluqla dilə gətirdi. Qeyd edildi ki, bizim özbək dostlarımızın Füzulidə məktəb tikintisinə, qısa müddətdə isə Xankəndidə minlərlə insanın çalışacağı bu gözəl müəssisənin yaradılmasına kömək göstərmələri qardaşlıq münasibətinin təzahürüdür.

Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva COP29 kimi mötəbər tədbirin yüksək səviyyədə keçirilməsi münasibətilə təbriklərini çatdırdı və orada



müzakirə olunan məsələlərin dünyanın gələcəyi üçün önəmini qeyd etdi. O, Milli Məclisin sədri Sahibə Qafarova ilə görüşlərini məmnunluqla xatırladaraq, belə görüşlərin qanunvericilik orqanları arasında əməkdaşlığın möhkəmləndirilməsində rolunu vurğuladı.

Söhbətdə qarşılıqlı maraq doğuran məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.

✔ ✔ ✔

Azərbaycan parlamentinin sədri Sahibə Qafarova həmin gün Albaniya parlamentinin sədri Elisa Spiropali ilə də görüşdü. Spiker Parlament Görüşündə iştirakına və maraqlı çıxışına görə Albaniya parlamentinin sədrinə təşəkkürünü bildirdi.

Elisa Spiropali həm COP29-un, həm də Parlament Görüşünün yüksək səviyyədə təşkilinə görə təbriklərini çatdırdı, bu tədbirin kifayət qədər vacib və təqdirəlayiq olduğunu söylədi.

Söhbət zamanı qeyd edildi ki, iqlim dəyişikliyi zəmanəmizin ən aktual problemidir və bütün ölkələr bu problemdən əziyyət çəkirlər. Tərəflər inkişaf etmiş dövlətlərin kiçik ada dövlətlərinə dəstəyinin artırılmasının əhəmiyyətini vurğuladılar.

Söhbət zamanı parlamentlərimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi haqqında da müzakirələr aparıldı.

✔ ✔ ✔

Milli Məclisin sədri Sahibə Qafarova noyabrın 16-da Tacikistan Respublikası Ali Məclisinin Nümayəndələr Palatasının sədri Mahmadtoir Zokirzodanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü. Söhbət zamanı iqlim dəyişikliyi ilə əlaqədar dünyanın üzləşdiyi problemlərin həlli üçün qlobal əməkdaşlığın əhəmiyyəti qeyd edildi, Azərbaycan və Tacikistan tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirlərlə bağlı fikir mübadiləsi aparıldı, bu istiqamətdə parlamentlərin mühüm rolu vurğulandı.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin dinamik inkişaf etdiyi qeyd olundu. Spiker Sahibə Qafarova dövlət başçılarının qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin ölkələrimiz və xalqlarımız arasında münasibətlərin dərinləşməsində xüsusi rol oynadığını bildirdi. Bu münasibətlərin möhkəmləndirilməsində parlamentlərarası əlaqələrin mühüm əhəmiyyət kəsb etdiyi diqqətə çatdırıldı.

✔ ✔ ✔

Noyabrın 15-də Milli Məclisin sədri Sahibə Qafarova Tanzaniya Birləşmiş Respublikası Milli Assambleyasının spikeri, Parlamentlərarası İttifaqın prezidenti Tulia Akson ilə görüşdü. COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə keçiriləcək Parlament Görüşündə iştirak etmək üçün ölkəmizə gələn





qonaqla Azərbaycan və PAİ arasında əməkdaşlıq, Bakıda keçirilən COP29-un əhəmiyyəti barədə fikir mübadiləsi aparıldı.

Tulia Akson Azərbaycan Prezidenti cənab İlham Əliyevin tədbirə gələn qonaqlarla ayrıca görüşməsini, onları dinləməsini, göstərdiyi diqqəti yüksək qiymətləndirdi, bu qonaqpərvərliyə görə Azərbaycan dövlət başçısına təşəkkürünü ifadə etdi. Qonaq xüsusilə kiçik ada dövlətlərinin səsinin COP29-da eşidilməsinə şərait yaradıldığı üçün ölkəmizə minnətdarlığını bildirdi.

Görüşdə Azərbaycanın kiçik ada dövlətlərinə göstərdiyi yardımlar, həmçinin ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə irəli sürdüyü təşəbbüslər haqqında söhbət açıldı. Qeyd edildi ki, kiçik ada dövlətləri iqlim dəyişikliyinə ən həssas olan ölkələrdir. Bu baxımdan COP29 çərçivəsində İqlim Dəyişikliyi üzrə İnkişaf etməkdə olan Kiçik Adalar Dövlətlərinin Liderlər Zirvəsinin keçirilməsi, Prezident İlham Əliyevin sammitdə iştirakı, oradakı əhatəli nitqi və bu dövlətlərə verdiyi dəstək mühüm əhəmiyyətə malikdir.

Görüşdə Azərbaycan Respublikasının Milli Məclisi ilə Tanzaniya Birləşmiş Respublikası Milli Assambleyası arasında əlaqələrin



inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə də müzakirələr aparıldı.

✓ ✓ ✓

Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq ilə görüşdü. Söhbət zamanı ölkəmizin COP29 Sədrliyindən irəli gələn məsələlər, Parlament Görüşünə hazırlıq istiqamətində görülən işlər haqqında fikir mübadiləsi aparıldı.

Görüşdə iqlim dəyişikliyinin yaratdığı problemlərin bütün dövlətlərə mənfi təsir göstərdiyi diqqətə çatdırılaraq bu istiqamətdə qlobal əməkdaşlığın vacibliyi, müzakirə olunan mövzuların aktuallığı qeyd edildi.

Söhbətdə Azərbaycan Milli Məclisi ilə Parlamentlərarası İttifaq arasında münasibətlər yüksək dəyərləndirildi, Azərbaycanın PAİ-nin tədbirlərində fəal iştirak etdiyi, tərəflər arasında uğurlu əməkdaşlığın olduğu bildirildi.

✓ ✓ ✓

Noyabrın 15-də Milli Məclisin sədri Sahibə Qafarova Tonqa Krallığının Qanunvericilik Məclisinin sədri Lord Fkafanua Fatafehi ilə görüşdü. Söhbət zamanı iqlim dəyişikliyinin yaratdığı problemlərin bütün dövlətlərə mənfi təsirlərinin olduğu qeyd edildi və bu istiqamətdə qlobal əməkdaşlığın vacibliyi vurğulandı.

Görüşdə Azərbaycanın Millətlər Birliyi ilə əməkdaşlıq məsələləri, bu



təşkilat vasitəsilə kiçik ada dövlətlərinə göstərdiyi humanitar, texniki yardımlar barədə məlumat verildi.

Lord Fkafanua Fatafehi kiçik ada dövlətlərinin iqlim ədalətsizliyi ilə üzləşdiklərini diqqətə çatdıraraq söylədi ki, iqlim dəyişikliyi onlar üçün təhlükəsizlik məsələsidir. O bildirdi ki, Azərbaycan kimi yeni dostların bu dövlətlərə iqlim dəyişikliklərinə uyğunlaşmağa göstərdiyi yardım çox böyük əhəmiyyətə malikdir. Qonaq həmçinin Azərbaycanın COP29 çərçivəsində kiçik ada dövlətlərinin səsini prioritetləşdirdiyi və daha yüksək səviyyəyə qaldırdığı üçün minnətdarlığını bildirdi.

Ölkələrimiz arasında münasibətlərin də nəzərdən keçirildiyi görüşdə Tonqa Krallığının Baş nazirinin ölkəmizə səfəri, Bakı Bəyannaməsinin imzalanması məmnunluqla xatırlandı, parlamentlərimiz arasında əməkdaşlıq imkanları barədə də fikir mübadiləsi aparıldı.

Milli Məclisin sədri Sahibə Qafarova qonaqlara regionda vəziyyət, Azərbaycanın reallıqları, ölkəmizin işğaldan azad olunmuş ərazilərində gördüyü işlər haqqında da geniş məlumat verdi.

✓ ✓ ✓

Milli Məclisin sədri Sahibə Qafarova həmin gün Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının 76-cı Baş naziri, Lordlar Palatasının üzvü Baronessa Tereza Mey ilə də görüşdü. Qonaq belə vacib qlobal tədbirə ev sahibliyi etdiyi üçün ölkəmizə təbriklərini çatdırdı. Bildirdi ki, əvvəlki dövrlərdə Qlazqo şəhəri də COP-a ev sahibliyi etdiyi üçün onlar bu tədbirin təşkilinin nə dərəcədə böyük məsuliyyət olduğunu yaxşı anlayırlar. Baronessa Tereza Mey Azərbaycanın COP29-u yüksək səviyyədə təşkil etdiyini bir daha vurğuladı.

Spiker Sahibə Qafarova iqlim dəyişikliyinin təsirlərinə məruz qalan bir ölkə kimi Azərbaycanın hələ COP29 sədrliyindən əvvəl də ətraf mühitin qorunmasına, bərpa olunan enerji mənbələrindən istifadə məsələlərinə böyük diqqət göstərdiyini söylədi. O, qonağa işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən yaşıl enerji layihələri barədə də məlumat verdi.

Qeyd olundu ki, iqlim dəyişikliyi zəmanəmizin ən aktual problemidir və təxirəsalınmadan müvafiq addımların atılmasını tələb edir. Milli Məclisin sədri bu kimi vacib məsələlərin müzakirə olunduğu tədbirin siyasiləşdirilməsinin yolverilməz olduğunu dedi. Tədbirdən əvvəl bəzi dövlətlər tərəfindən ölkəmizə qarşı siyasi hücumların və təzyiq cəhdlərinin edildiyini vurğulayan spiker bunu Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsinə qarşı qısqanc münasibətlə əlaqələndirdi.

Söhbət zamanı iqlim dəyişikliyi problemlərinə qarşı mübarizədə parlamentlərin vacib rolu da qeyd edildi. Ölkələrimiz arasında əlaqələrin inkişafına mühüm təsir göstərən faktorlardan biri kimi parlamentlərimiz arasında qarşılıqlı fəaliyyətin əhəmiyyəti barədə fikir mübadiləsi aparıldı.

✓ ✓ ✓

Həmin gün Milli Məclisin sədri Sahibə Qafarovanın Millətlər Birli-



yinin Baş katibi Patrisiya Skotlend ilə də görüşü oldu. Spiker Azərbaycanın kiçik ada dövlətlərinə göstərdiyi humanitar, texniki yardımlar, həmçinin ölkəmizin Qoşulmama Hərəkatına 4 illik sədrliyi dövründə irəli sürdüyü təşəbbüslər haqqında qonağa ətraflı məlumat verdi.

Görüşdə Azərbaycan və Millətlər Birliyi arasında əməkdaşlıq məsələləri, ölkəmizin COP29-a sədrliyi çərçivəsində irəli sürdüyü qlobal təşəbbüslər barədə fikir mübadiləsi aparıldı. Söhbət zamanı vurğulandı ki, Azərbaycan ilə Millətlər Birliyi arasında əməkdaşlığın ən mühüm istiqamətlərindən biri məhz iqlim dəyişikliyi məsələsidir. Çünki kiçik ada dövlətləri iqlim dəyişikliyinə ən həssas olan ölkələrdir və onlar iqlim dəyişikliklərinin ən pis təsirləri ilə, hətta ekzistensial təhlükələrlə üzləşirlər.

Söhbət zamanı vurğulandı ki, COP29 çərçivəsində İqlim Dəyişikliyi üzrə İnkişaf etməkdə olan Kiçik Adalar Dövlətlərinin Liderlər Zirvəsi keçirildi. Prezident İlham Əliyevin sammitdə iştirakı və əhatəli nitqi, onun iqlim dəyişikliyinin kiçik adalarda inkişaf etməkdə olan dövlətlərə təsir edən hazırkı çağırışları barədə fikirləri, həmçinin Azərbaycanın bu dövlətlərə verdiyi dəstək yüksək qiymətləndirildi.

Millətlər Birliyinin Baş katibi Patrisiya Skotlend COP29 sədrliyini təhvil alması münasibətilə ölkəmizə təbriklərini çatdırdı, sədrlik dövründə fəaliyyətlərində uğurlar arzu etdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.





Milli Məclisin sədri Sahibə Qafarova noyabrın 6-da Qlobal Tolerantlıq və Sülh Şurasının sədri Əhməd Məhəmməd Əlcərvan ilə görüşdü. Qonağı Bakıda salamlamaqdan məmnunluğunu bildirən Sahibə Qafarova Dünya dini liderlərinin qlobal Bakı Sammitinin çox aktual məsələlərin müzakirə edildiyi mühüm bir platforma olduğunu söylədi. Spiker diqqətə çatdırdı ki, Azərbaycanda multikulturalizmin, tolerantlığın və dinlərarası dialoqun təşviqi həmişə xalqımızın həyat tərzi və dövlət siyasəti olub. Sahibə Qafarova ölkəmizin təşkilatçılığı ilə keçirilmiş və tolerantlıq, multikulturalizm, mədəniyyətlərarası dialoq, qarşılıqlı anlaşma mövzularına həsr olunmuş tədbirləri xatırladaraq bildirdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan nəinki regionda, bütün dünyada bu kimi humanist dəyərlərin təbliğatçısına çevrilib.

Görüşdə vurğulandı ki, Azərbaycanın COP29-un ev sahibi kimi seçilməsi təkcə ölkəmizin yaşıl enerji gündəliyinə qlobal dəstəyi deyil, həm də onun müxtəlif qrupları birləşdirmək, dialoqu təşviq etmək və onlar arasında anlaşmaya nail olmaq qabiliyyətini əks etdirir. Sammitin "Dünya dinləri yaşıl planet uğrunda" şüarı da bu aktuallığı göstərir.

Qlobal Tolerantlıq və Sülh Şurasının sədri Əhməd Məhəmməd Əlcərvan Dünya dini liderlərinin qlobal Bakı Sammitinin yüksək səviyyədə təşkilinə və onun Azərbaycana səfərinə yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Bu sammitin sülh və tolerantlıq haqqında müzakirələr aparmaq üçün əlverişli bir imkan olduğunu qeyd edən qonaq rəhbərlik etdiyi təşkilat haqqında geniş məlumat verdi.

# Müstəqil Azərbaycan Respublikası dünyada yaşayan bütün azərbaycanlıların güvənc yeridir



**Sahibə Qafarova**
Azərbaycan Respublikası
Milli Məclisinin sədri

Hər bir xalqın müstəqil dövlət quruculuğu prosesi müxtəlif ictimai-siyasi hadisələrlə zəngindir. Azərbaycan xalqının bu gün qürur duyduğumuz müstəqillik yolu heç də hamar olmamış, ölkəmiz tarixi nailiyyəti olan dövlət müstəqilliyini qoruyub saxlamaq üçün böyük sınaqlarla, çətinliklərlə üzləşmişdir. Yaxın keçmişimizdə baş vermiş hadisələri xatırlayanda bu fikrin nə qədər obyektiv olduğunu daha aydın dərk edirik. 1991-ci ildə mövcud geosiyasi və regional şərtlər fonunda müstəqilliyini bərpa edən ölkəmizdə iqtisadi, siyasi sahələrdə ciddi böhran yaşanırdı, dövlətin idarə olunması ilə bağlı anarxiya və xaos hökm sürürdü, eyni zamanda, xalqı müstəqil dövlətçiliyimizin ətrafında birləşdirə biləcək, ölkə vətəndaşlarını öz ətrafında səfərbər edəcək vahid ideya - siyasi təlim yox idi. O dövrkü respublika rəhbərliyi keçmişin ideoloji irsindən imtina etdiyini bəyan edirdi, özü isə yeni milli, ideoloji konsepsiya irəli sürüb onu reallaşdırmaq iqtidarına malik deyildi. Nəticədə, 1991-1993-cü illərdə Azərbaycanda mövcud olan ideoloji boşluq ölkəmizin qarşılaşdığı ağır şəraitin əsas komponentlərindən birinə çevrildi.

Əlbəttə, belə gərgin bir vəziyyətdə ölkəyə rəhbərlik etmək, dövləti düşdüyü ağır şəraitdən xilas etmək, xalqı, vətəndaşları milli qurtuluş məfkurəsinə inandırmaq və onları bu yolda səfərbər etmək böyük liderlik xüsusiyyətləri tələb edirdi. Azərbaycan xalqı üçün belə nəhəng şəxsiyyət və böyük lider şübhə yoxdur ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyev idi. Çünki o, hansı vəzifədə çalışmasından, harada yaşamasından asılı olmayaraq, daim mənsub olduğu xalqın inkişafını düşünmüş və bunun üçün mümkün olan hər şeyi etmişdir. Azərbaycan 1993-2003-cü illərdə də məhz Ulu Öndər Heydər Əliyevin müstəsna liderlik qabiliyyəti və yüksək idarəetmə məharəti sayəsində öz inkişaf və sabitlik dövrünü yaşadı, müstəqilliyini möhkəmləndirdi.

### Bu tarixi gün soydaşlarımızın qəlbini Vətən hərarəti ilə isidir

Bu dövrdə ölkənin qarşısında duran siyasi sabitliyi bərpa etmək, yeni iqtisadiyyat quruculuğu, vətəndaşların güzəranını yaxşılaşdırmaq və beynəlxalq təcridi aradan qaldırmaq kimi tarixi və məşəqqətli vəzifələr uğurla həllini tapmaqla yanaşı, milli ideoloji sütunların formalaşdırılması istiqamətində də tarixi addımlar atıldı. Dahi şəxsiyyət Heydər Əliyev respublika həyatının bütün sahələrində olduğu kimi, ideoloji sferada da dönüş yaratmağa nail oldu. "Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!", - deyən Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşlarının dövlətimizin milli müstəqilliyinin qorunması və möhkəmləndirilməsi amalları ətrafında səfərbər olunması, milli birliyin və vəhdətin ölkəmizin inkişafının əsas hərəkətverici qüvvələrindən birinə çevrilməsi təmin edildi.

Ümummilli Lider tərəfindən 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsi də ən yeni tariximizin mühüm siyasi hadisələrindən biridir. Bu tarixi gün dünyadakı bütün soydaşlarımızın qəlbini Vətən hərarə-


DÜNYA AZƏRBAYCANLILARININ
I QURULTAYI - BAKI 2001
DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYI
9-10 NOYABR 2001-ci il BAKI






ti ilə isidir, müstəqil Azərbaycan dövlətinə məhəbbət hissi aşılayır. Bu birliyin, həmrəyliyin də istinad nöqtəsini azərbaycançılıq ideyası təşkil edir. Dünya azərbaycanlılarının ilk qurultayının keçirilməsi, Ulu Öndərin xarici ölkələrə səfərlərində həmin ölkələrdə yaşayan azərbaycanlılarla mütəmadi görüşlər keçirməsi, xaricdə yaşayan azərbaycanlılarla iş üzrə dövlət qurumunun yaradılması soydaşlarımızın ana Vətənlə bağlılığının daha da gücləndirilməsi üçün atılmış məqsədyönlü addımlar olmuşdur.

### Azərbaycanın dövlətçilik tarixinin ən şanlı səhifələri

Heydər Əliyevin azərbaycançılıq ideologiyası heç də yalnız milli, ideoloji prioritetləri müəyyənləşdirmirdi, həmçinin xalqımızın siyasi, iqtisadi, sosial, humanitar hədəflərini də özündə ehtiva edirdi. 2003-cü ildən etibarən Ulu Öndərin ləyaqətli varisi Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti dahi şəxsiyyətin müəyyənləşdirdiyi strateji vəzifələrin öhdəsindən uğurla gəlmişdir.

Möhtərəm dövlət başçımızın ölkəmizə rəhbərlik etdiyi dövrü xalqımızın qazandığı misilsiz nailiyyətlər fonunda Azərbaycanın dövlətçilik tarixinin ən şanlı səhifələri kimi xarakterizə edə bilərik. Ölkəmiz dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyat quruculuğuna nail olmuş, sosial sahədə inqilabi dəyişikliklər qeydə alınmışdır ki, burada insan faktoru həyata keçirilən siyasətin nüvəsini təşkil etmişdir. Siyasi, ictimai sabitliyin qorunub saxlanılması, demokratik inkişaf, insan hüquq və azadlıqlarının müdafiə olunması istiqamətində ardıcıl siyasət həyata keçirilmişdir. Xalqımızın uzun illər davam edən həsrətinə son qoyulmuş, torpaqlarımız işğaldan azad edilmiş, ölkəmizin ərazi bütövlüyü, suverenliyi bərpa olunmuşdur.

Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması istiqamətində nəhəng işlər yerinə yetirilir, həmin ərazilərdə ən müasir şəhərsalma nümunələri yaradılır, qabaqcıl texnologiyaların tətbiqi ilə "ağıllı şəhər" və "ağıllı kənd"lər inşa olunur. Böyük Qayıdışın reallaşdırılması və keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə köçürülməsi prosesi uğurla həyata keçirilir. Bu günədək 2417 ailə - 9306 nəfər azad olunmuş ərazilərə köçürülmüşdür və bu proses sürətlə davam etməkdədir. Təbii ki, Azərbaycanın hərtərəfli və ardıcıl inkişafı, qazandığı uğurlar onun dünyadakı mövqeyini daha

da möhkəmləndirmiş, ölkəmiz beynəlxalq münasibətlər sisteminin fəal və etibarlı aktoru kimi böyük nüfuz qazanmış, Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş, 2019-2022-ci illər üzrə Qoşulmama Hərəkatına sədrlik etmiş, qlobal çağırışlara mühüm töhfələr vermiş, regionun taleyini dəyişdirən nəhəng təşəbbüslər irəli sürmüşdür.

Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil dövlətimiz xalqımızın milli həmrəyliyinin gücləndirilməsinə də xüsusi əhəmiyyət verir, dünya azərbaycanlılarının mədəni-mənəvi birliyinin daha da dərinləşməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirir.

## Böyük tarixi zəfərlərin memarına ümumxalq etimadı

Artıq başa vurmaqda olduğumuz 2024-cü ili də Azərbaycanın inkişaf tarixi baxımından növbəti uğurlu il kimi xarakterizə edə bilərik. Bu il dünya azərbaycanlıları 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü son dərəcə böyük ruh yüksəkliyi, xüsusi bir ovqatla qarşılayır. Çünki 2024-cü ildə ölkəmiz qarşısında duran hədəflərə nail olmuş, müstəqil inkişaf yolunu uğurla davam etdirmişdir.

2024-cü ili xarakterizə edərkən onun Azərbaycanın dövlətçilik tarixində müstəsna əhəmiyyətə malik illərdən biri kimi dəyərləndirməyimizi şərtləndirən bir sıra amillər mövcuddur. Bu, ilk növbədə cari ildə ölkəmizdə baş vermiş mühüm tarixi hadisələrlə əlaqədardır. Bu sırada ən yaddaqalanlardan biri, şübhəsiz ki, 2024-cü ilin fevral ayının 7-də keçirilmiş prezident seçkiləridir. Demokratik və şəffaf şəraitdə keçirilən azad və ədalətli seçkilərdə möhtərəm cənab İlham Əliyevin parlaq qələbəsi onun Azərbaycan xalqı və dövləti qarşısında müstəsna xidmətlərinə verilən yüksək qiymətin növbəti ifadəsi oldu. Bu nəticələr Azərbaycan xalqının möhtərəm Prezident İlham Əliyevin ətrafında sarsılmaz birliyini, dövlətimizin başçısına tükənməz dəstəyini, böyük zəfərlərin memarına ümumxalq etimadını göstərir.

Bu seçkilərdən bəhs edərkən vurğulamalı olduğumuz daha bir mühüm məqam onun ölkəmizin bütün ərazisində keçirilən ilk seçkilər olması, Zəfər seçkiləri kimi milli inkişaf tariximizə əbədi həkk edilməsidir.

Bildiyimiz kimi, 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında birgünlük antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması həm ölkəmizdə, həm də regionda yeni reallıqlar yaratmış və prezident seçkiləri də bu şəraitdə keçirilmişdir. Azərbaycanın bütün şəhər və rayonlarında olduğu kimi, ölkəmizin işğaldan





azad olunan ərazilərində də seçki məntəqələri yaradılmış və seçicilər səsvermə prosesində fəal iştirak etmişlər.

> “Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz”.
>
> **İlham Əliyev**

2024-cü ildə Azərbaycanın ictimai-siyasi həyatında baş vermiş digər mühüm hadisə sentyabrın 1-də keçirilən Milli Məclisə növbədənkənar parlament seçkiləridir. Seçkilər ölkəmizin siyasi sisteminin yetkinliyini və cəmiyyətimizdə cərəyan edən demokratik proseslərin sabit və davamlı olduğunu göstərmişdir. Parlament seçkilərinin ən yüksək standartlara uyğun şəkildə azad, ədalətli və şəffaf şəraitdə keçirilməsi xalqımızın iradəsinin dəqiq ifadə olunmasını təmin etmişdir.

Cari ildə Azərbaycanın uğurları sırasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının xüsusi yeri var. COP29 dünyanın ən mühüm tədbirlərindən biridir və ölkəmizin bu qlobal konfransa ev sahibliyi etməsi müstəqillik tariximizin ən yaddaqalan məqamlarındandır. 200-ə yaxın ölkənin yekdil qərarı ilə Azərbaycanın COP29-un ev sahibi seçilməsi dünya miqyasında ölkəmizə və şəxsən möhtərəm Prezident İlham Əliyevə olan böyük hörmətin əlaməti, beynəlxalq arenada Azərbaycanın mühüm roluna verilən yüksək qiymətdir.

### Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü milyonlarla soydaşımızın Vətən sevgisini, dövlətimizə sədaqətini əks etdirir

Bəli, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası hazırda öz tarixinin ən yüksək inkişaf dövrünü yaşayır. Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının güvənc yeridir. Harada yaşamasından asılı olmayaraq, ürəyi, nəbzi Vətən sevgisi ilə döyünən hər bir azərbaycanlı müasir müstəqil Azərbaycan dövlətinin nailiyyətləri ilə qürur duyur, ölkəmizin qazandığı misilsiz uğurlar onlarda sonsuz fəxarət hissi yaradır. Bu uğurların təməlində isə möhtərəm Prezident İlham Əliyevin yüksək liderlik səriştəsi ilə yanaşı, xalqımızın dövlətimizin başçısının ətrafında bir yumruq kimi birləşməsi, milli məqsəd və hədəflər naminə

sarsılmaz həmrəyliyimiz dayanır. Ona görə də bir sıra dövlətlərin və maraq qruplarının xalqımızın uğurlarını, torpaqlarımızın azad edilməsini və suverenliyimizin bərpa olunmasını həzm edə bilməməsi, ölkəmizə qarşı ədalətsiz, qərəzli yanaşması fonunda bu gün dünya azərbaycanlılarının milli dövlətçiliyimiz ətrafında daha sıx birləşməsi olduqca vacibdir. Möhtərəm Prezident İlham Əliyevin dediyi kimi, hər bir azərbaycanlı Vətənimizin tərəqqisi, milli mənafelərimizin layiqincə qorunması üçün əlindən gələni əsirgəməməlidir. Çünki Azərbaycan xalqı, dünyadakı həmvətənlərimiz həm 44 günlük Vətən müharibəsi dövründə, həm də ondan sonrakı mərhələdə hər kəsə göstərdi ki, milli birliyimizin, həmrəyliyimizin qarşısında heç bir güc dura bilməz. Xalqımız bir olduqca, bir məqsədə kökləndikcə ən mürəkkəb vəzifəni belə yerinə yetirməyə qadirdir. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü də soydaşlarımızın Vətən sevgisini, xalqımızın tarix və mədəniyyətinə hörmətini, dövlətimizə və azərbaycançılıq ideyalarına sədaqətini əks etdirir.





Prezident İlham Əliyev Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayında




# Azərbaycan və Türkiyə parlamentləri arasında əlaqələr çox yüksək səviyyədədir və bütün istiqamətlər üzrə genişlənməkdədir

Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti dekabrın 17-18-də Türkiyədə rəsmi səfərdə oldu.

Azərbaycan Respublikası VII çağırış Milli Məclisinə seçkilərdən sonra parlamentin sədri Sahibə Qafarova ilk rəsmi səfərini qardaş Türkiyəyə etdi. Dekabrın 17-də başlayan səfər zamanı Azərbaycan parlament nümayəndə heyəti paytaxt Ankarada mühüm görüşlər keçirərək bir sıra tədbirlərə qatıldı. Səfər çərçivəsində Milli Məclisin sədri dekabrın 18-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilən "2024 TÜBA və TÜBİTAK Elm Ödülləri Mərasimi"ndə iştirak etdi.

Sahibə Qafarova Türkiyə Respublikasında rəsmi səfəri zamanı Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş ilə görüşdü. Əvvəlcə parlament rəhbərləri arasında təkbətək görüş keçirildi, qardaş ölkələrimiz və parlamentlərimiz arasında yüksək səviyyəli əlaqələrə dair fikir mübadiləsi aparıldı. Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdi.

Numan Kurtulmuş yenidən Milli Məclisin sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı təbrik etdi. O, iki qardaş ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayaraq Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni mərhələyə qədəm qoyduğunu söylədi.



Rəsmi səfərə dəvətinə və göstərilən qonaqpərvərliyə görə TBMM sədrinə minnətdarlığını bildirən Milli Məclisin sədri Sahibə Qafarova yenidən qardaş ölkədə olmaqdan məmnunluğunu ifadə etdi. Sentyabrın 1-də Azərbaycanda növbədənkənar parlament seçkilərindən söz açan spiker vurğuladı ki, bu seçkilərin ən böyük xüsusiyyəti ilk dəfə Azərbaycanın bütün suveren ərazilərində keçirilməsi idi.

Yenidən Milli Məclisin sədri seçildikdən sonra onu ilk olaraq TBMM sədri Numan Kurtulmuşun təbrik etdiyini deyən spiker Sahibə Qafarova mövcud ənənəyə uyğun olaraq ilk rəsmi səfərini də qardaş Türkiyəyə etməkdən məmnunluğunu bildirdi. Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq münasibətlərinin, ortaq tarixə, dilə, dinə, milli-mənəvi dəyərlərə malik olan xalqlarımızın birliyinin və həmrəyliyinin bizim üçün ən böyük dəyər olduğunu söyləyən Milli Məclisin sədri vurğuladı ki, Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı özünü ən parlaq şəkildə təsdiq edir.

Qeyd olundu ki, Prezident İlham Əliyevin də dediyi kimi, dünyada Azərbaycan ilə Türkiyə qədər bir-birinə yaxın olan başqa ölkələr yoxdur. Şuşa Bəyannaməsi isə bu müttəfiqliyin rəsmi ifadəsi və möhürüdür.

Söhbət zamanı əlaqələrin bu səviyyəyə gəlib çatmasında dövlət başçılarımızın müstəsna rolu qeyd edilərək, onların şəxsi dostluğunun və qardaşlığının, siyasi iradəsinin və qətiyyətinin münasibətlərin hazırkı yüksək səviyyədə olmasını təmin etdiyi bildirildi. Görüşdə ölkələrimiz arasında qardaşlıq əlaqələrinin daha da genişləndirilməsinə parlamentlərin verdiyi töhfələr də yüksək qiymətləndirildi.

Görüşdən sonra Milli Məclisin sədri Sahibə Qafarovanın Türkiyə Böyük Millət Məclisinin plenar iclas zalında salamlanması mərasimi oldu. Azərbaycan parlament nümayəndə heyəti 2016-cı il iyulun 15-də baş vermiş dövlət çevrilişi cəhdi zamanı TBMM-in zədələnmiş ərazilərini ziyarət etdi.

Daha sonra Milli Məclisin sədri Sahibə Qafarova və Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş mətbuat üçün bəyanatla çıxış etdilər. Azərbaycan və Türkiyənin regionda sülh və sabitliyin, inkişafın təmin olunmasına mühüm töhfələrini söyləyən TBMM sədri həmçinin ölkələrimizin öncüllüyü ilə türk dünyasının daha da güclənməsi, türk dövlətləri arasında birliyin möhkəmlənməsi istiqamətində atılan addımları təqdir etdi.

O, Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı





tarixi Zəfərdən, antiterror əməliyyatları nəticəsində ərazi bütövlüyü və suverenliyini təmin etməsindən sonra regionda davamlı sülhün və sabitliyin yarandığını deyərək, Zəngəzur dəhlizinin açılmasının önəmini vurğuladı.

Milli Məclisin sədri Sahibə Qafarova çıxış edərək bildirdi ki, Milli Məclisin sədri seçildikdən sonra ilk rəsmi səfərini qardaş Türkiyə Cümhuriyyətinə etdi. Spiker bu səfərin onun Azərbaycan Respublikası Milli Məclisinin sədri kimi Türkiyə Cümhuriyyətinə artıq üçüncü rəsmi səfəri olduğunu söylədi, hər səfərində qardaş ölkənin daha da inkişaf etdiyini dedi. O, Türkiyənin Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında bütün sahələrdə böyük nailiyyətlər qazandığını, artıq qlobal miqyasda gedən proseslərə təsir göstərdiyini, sülhə və sabitliyə töhfə verdiyini qeyd etdi.

Azərbaycan-Türkiyə münasibətlərinin hazırkı yüksək səviyyəsindən danışan Milli Məclisin sədri bildirdi ki, müasir Azərbaycan-Türkiyə münasibətləri, xalqlarımızın birliyi və həmrəyliyi Ümummilli Lider Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamını ən parlaq şəkildə təcəssüm etdirir. Ölkələrimiz və xalqlarımız həm sevincli, həm də kədərli günlərdə bir yerdədirlər, bütün məsələlərdə bir-birini qeyd-şərtsiz və tərəddüdsüz dəstəkləyirlər. Dövlət başçılarımız - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın siyasi iradəsi, qətiyyəti və birgə səyləri sayəsində bu münasibətlərin özünün ən yüksək zirvəsinə - müttəfiqlik səviyyəsinə çatdığını deyən Sahibə Qafarova bildirdi ki, əməkdaşlıq əlaqələrimiz bütün istiqamətlər üzrə hərtərəfli inkişaf edir. Dövlət başçılarımızın müəyyən etdikləri hədəflər, verdikləri tapşırıqlar uğurla icra olunur.

Spiker Sahibə Qafarova diqqətə çatdırdı ki, qanunvericilik orqanlarımız arasında əlaqələr hazırda çox



yüksək səviyyədədir və müttəfiqlik ruhuna uyğun olaraq, bütün istiqamətlər üzrə genişlənməkdədir. Milli Məclisin sədri həmçinin bildirdi ki, parlament nümayəndə heyətlərimiz arasında da çoxsaylı qarşılıqlı səfərlər həyata keçirilir. O, xatırlatdı ki, bu günlərdə Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyəti Bakıda Beynəlxalq Parlament Konfransında iştirak edib, işğaldan azad olunmuş ərazilərimizə səfər edib.

Görüşdə ikitərəfli əməkdaşlıqla yanaşı, Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Türkiyə-Pakistan kimi uğurlu üçtərəfli əməkdaşlıq formatlarının da mövcud olduğu qeyd edildi. O da diqqətə çatdırıldı ki, beynəlxalq platformalarda, parlament təşkilatlarında nümayəndə heyətlərimiz bütün məsələlərdə bir-birini dəstəkləyir, ortaq mövqe nümayiş etdirirlər. Əməkdaşlığımızın mühüm istiqamətlərindən biri Türk Dövlətləri Parlament Assambleyası çərçivəsində digər türk dövlətlərinin parlamentləri ilə birgə fəaliyyətimizdir.



Yekunda Milli Məclisin sədri söylədi ki, onsuz da yüksək səviyyədə olan parlamentlərarası əlaqələrimizi daha da inkişaf etdirək Azərbaycan-Türkiyə qardaşlıq və müttəfiqlik münasibətlərinin, birlik və həmrəyliyinin daha da möhkəmləndirilməsinə və dərinləşdirilməsinə töhfə verək.

Milli Məclisin sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində Ankara şəhərindəki Heydər Əliyev Parkında Ulu Öndərin abidəsini ziyarət etdi. Spiker Sahibə Qafarova Ümummilli Liderin parkda ucaldılan abidəsi önünə güllər düzərək xatirəsini ehtiramla yad etdi.

Daha sonra Milli Məclisin sədri və nümayəndə heyəti Anıtqəbirə gələrək Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarını ziyarət etdilər. Spiker Sahibə Qafarova Xatirə kitabına ürək sözlərini yazdı.



Dekabrın 4-də Milli Məclisin sədri Sahibə Qafarova Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin üzvü və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu ilə görüşdü. Söhbət zamanı dost və qardaş ölkələrimiz, o cümlədən qanunvericilik orqanlarımız arasında münasibətlərin yüksək səviyyədə inkişafından məmnunluq ifadə edildi. Qeyd olundu ki, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarına əsaslanan və bütün sahələri əhatə edən münasibətlərimiz dövlət başçılarımızın siyasi iradəsi və birgə səyləri sayəsində bu gün özünün ən yüksək səviyyəsinə yüksəlib.

Mövlud Çavuşoğlu Azərbaycanda növbədənkənar parlament seçkilərinin uğurla keçirilməsi və yenidən Milli Məclisin sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı təbrik etdi.

Görüşdə parlament sədrləri, dostluq qrupları və deputatlar arasında təmasların münasibətlərimizə mühüm töhfələri qeyd edildi. Həmçinin qanunvericilik orqanlarımızın və deputatların bütün beynəlxalq parlament təşkilatlarında ortaq mövqedən çıxış etdikləri məmnunluqla diqqətə çatdırıldı. Qeyd olundu ki, ölkələrimizə qarşı bir sıra dairələr tərəfindən həyata keçirilən qarayaxma və təzyiq kampaniyaları ilə mübarizədə parlamentarilərimizin əməkdaşlığı olduqca vacibdir.

Söhbət zamanı Azərbaycanın ev sahibliyi ilə COP29-un çox yüksək səviyyədə təşkil olunması ilə əlaqədar müsbət münasibətlər də dilə gətirildi.

Sonra regionda mövcud olan vəziyyətlə bağlı, həmçinin Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ - Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təşviqi" mövzusunda keçirilən beynəlxalq konfransın əhəmiyyəti barədə fikir mübadiləsi aparıldı.

Milli Məclisin sədri Sahibə Qafarova dekabrın 6-da "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusunda beynəlxalq parlament konfransında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuad Oktayın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü. Spiker Sahibə Qafarova dost və qardaş ölkələr olan Azərbaycan və Türkiyənin bütün sahələrdə uğurlu əməkdaşlığından məmnunluğunu bildirdi. O, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarının ölkələrimiz və xalqlarımız arasında qardaşlığın ifadəsi olduğunu söylədi.

Görüşdə vurğulandı ki, ölkələrimiz bütün məsələlərdə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirir-



lər. Əlaqələrimiz dövlət başçılarımızın siyasi iradəsi və birgə səyləri sayəsində bu gün özünün ən yüksək səviyyəsinə - müttəfiqlik səviyyəsinə yüksəlib. Vurğulandı ki, Şuşa Bəyannaməsinin imzalanması münasibətlərin daha da genişləndirilməsinə təkan verib. Azərbaycan-Türkiyə birliyi regional sabitlik, təhlükəsizlik üçün olduqca mühüm amildir. Bu çərçivədə ölkələrimizin təşəbbüsü ilə yaradılan üçtərəfli əməkdaşlıq platformalarının əhəmiyyəti diqqətə çatdırıldı.

Öz növbəsində Fuad Oktay da növbədənkənar parlament seçkilərinin uğurla təşkili və yenidən Milli Məclisin sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı təbrik etdi. O, Azərbaycanın bütün suveren ərazilərində keçirilən bu seçkilərin demokratiya və şəffaflıq şəraitində baş tutduğunu xatırlatdı və Türkiyədən olan böyük bir qrupun seçkiləri müşahidə etdiyini diqqətə çatdırdı.

Tərəflər beynəlxalq parlament platformalarında qarşılıqlı dəstək və birgə fəaliyyətin vacibliyini də xüsusi qeyd etdilər. Bəzi dairələr tərəfindən ölkələrimizə qarşı ikili standartlar, təzyiq, şantaj, böhtan kampaniyaları aparıldığı bir şəraitdə parlamentarilərimizin qarşılıqlı fəaliyyətinin daha böyük önəmə malik olduğu vurğulandı.

Söhbət zamanı TBMM-in komitə sədri Avropa Şurası Parlament Assambleyasının Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin ratifikasiya olunmaması barədə qəbul etdiyi qətnaməni tənqid edərək bildirdi ki, AŞPA-nın bu qərəzli və haqsız qərarı təşkilatın özünün nüfuzuna və etibarlılığına xələl yetirir. O, qeyd etdi ki, AŞPA bu səhvini düzəltməlidir və Türkiyə tərəfi də hər dəfə bu məsələ ilə bağlı xəbərdarlığını qarşı tərəfin diqqətinə çatdırır.

Görüşdə ötən ay Azərbaycanın ev sahibliyi ilə yüksək səviyyədə keçirilən COP29 barədə də fikirlər səsləndirildi. Qeyd edildi ki, bəzi dövlətlərin boykot çağırışlarına baxmayaraq, COP29-a yüksək beynəlxalq maraq olub və çoxlu sayda ölkə və hökumət başçılarının tədbirdə iştirakı Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəal rolunu və nüfuzunu göstərir.

Milli Məclisin sədri Sahibə Qafarova dekabrın 23-də İtaliya Respublikasının Azərbaycandakı səfiri Luka Di Cianfrançesko ilə görüşdü. Söhbət zamanı Azərbaycan ilə İtaliya arasında əlaqələrin mövcud vəziyyətindən məmnunluq ifadə edildi. Bildirildi ki, enerji və iqtisadi sahədə olan əməkdaşlıq əlaqələri digər sahələrdə münasibətləri daha da genişləndirməyə imkan verir.

Görüşdə parlamentlər arasında əlaqələrin daha da inkişafının vacibliyi qeyd olundu. Vurğulandı ki, parlamentlərarası münasibətlər oxşar dəyərlərə malik olan xalqlarımızın bir-birini daha yaxından tanımasına, bu əlaqələrin daha da gücləndirilməsinə xidmət edir. Qarşılıqlı təmasların intensivləşməsində dostluq qruplarının mühüm rola malik olduğu da bildirildi.

Tərəflər qanunvericilik orqanlarının beynəlxalq platformalarda əməkdaşlıq məsələlərini də nəzərdən keçirdilər. İki ölkə arasında strateji əlaqələrə uyğun olaraq



parlamentlər arasında əlaqələndirmə və qarşılıqlı dəstəyin daha da gücləndirilməsinin əhəmiyyəti qeyd edildi.

Milli Məclisin sədri Sahibə Qafarova özünün İtaliyaya rəsmi səfərini məmnunluqla xatırladaraq, qarşılıqlı səfərlərin əlaqələrin daha da genişləndirilməsinə müsbət töhfə verdiyini söylədi. O, İtaliya parlamentinin üzvlərinin bu il ölkəmizdə keçirilən prezident və parlament seçkilərini müşahidə etdiyini, həmçinin COP29 çərçivəsində keçirilən Parlament Görüşündə iştirak etdiklərini xatırlatdı.

Söhbət zamanı Milli Məclisin sədri dedi ki, Azərbaycan 30 illik işğala, bir milyondan artıq qaçqın və məcburi köçkünün olmasına baxmayaraq, suveren, müstəqil, demokratik, inkişaf edən ölkədir. Spiker Sahibə Qafarova bütün bunlara baxmayaraq, bəzi Qərb ölkələrinin Azərbaycana qarşı yalan, böhtan kampaniyası apardığını, bəzi milli parlamentlərdə və beynəlxalq parlament təşkilatlarında ölkəmizlə bağlı qərəzli qərarların qəbul edilməsinin yolverilməz olduğunu vurğuladı, bir sıra Qərb ölkələrinin regionda sabitliyi pozmaq cəhdlərini tənqid etdi.

Milli Məclisin sədri regionda mövcud olan hazırkı vəziyyət, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və yenidənqurma işləri barədə də diplomata ətraflı məlumat verdi.

Milli Məclisin sədri Sahibə Qafarova dekabrın 24-də ölkəmizdə səfərdə olan Gürcüstan parlamentinin Gənclər, elm və təhsil məsələləri komitəsinin sədri Givi Mikanadzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi. Görüşdə Azərbaycan və Gürcüstan arasında dostluq münasibətlərinin əhəmiyyətindən, ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsindən söhbət açıldı.

Milli Məclisin sədri Sahibə Qafarova azərbaycanlıların və gürcülərin həmişə dostluq şəraitində yaşadıqlarını, bizi birləşdirən ortaq dəyərlərin olduğunu və bu dəyərləri qoruyub saxlamağın əhəmiyyətini vurğuladı.

Söhbət zamanı parlamentlərimiz arasında da əlaqələrin yüksək səviyyədə olmasından məmnunluq ifadə edildi. Qeyd olundu ki, qanunvericilik orqanlarımız ikitərəfli və üçtərəfli formatda əməkdaşlıq edir, beynəlxalq parlament təşkilatları çərçivəsində bir-birlərinə qarşılıqlı dəstək göstərirlər.

Spiker Sahibə Qafarova Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin ratifikasiya olunmaması ilə bağlı məsələyə münasibətdə Gürcüstan nümayəndə heyətinin göstərdiyi dəstəkdən məmnunluğunu dilə gətirdi.

Görüşdə hər iki ölkənin parlamentində seçkilərdən sonra yeni tərkibin fəaliyyətə başladığı və qarşıdakı dövrdə əlaqələrin daha da genişləndirilməsi istiqamətində işlərin davam etdiriləcəyi vurğulandı.

Gürcüstan parlamentinin Gənclər, elm və təhsil məsələləri komitəsinin sədri Givi Mikanadze Azərbaycan Prezidenti İlham Əliyevin doğum günü münasibətilə təbriklərini çatdırdı, onun tarixi bir şəxsiyyət olduğunu, dövlət başçısı olduğu dövrdə Azərbaycanın böyük inkişaf yolu keçdiyini söylədi.



Qonaq Gürcüstan parlamentinin spikeri Şalva Papuaşvilinin salamlarını Milli Məclisin sədrinə çatdırdı.

Söhbətdə ölkələrimizə qarşı mövcud olan ikili standartlara qarşı mübarizədə birgə addımlamağın vacibliyi qeyd edildi.

Milli Məclisin sədri Sahibə Qafarova dekabrın 24-də Ukraynanın Azərbaycandakı səfiri Yuri Qusev ilə görüşdü. Söhbət zamanı Azərbaycan və Ukrayna əlaqələrinə dair fikir mübadiləsi aparıldı. Ölkələrimizin etibarlı tərəfdaş olduqları, münasibətlərin möhkəm təmėllərə əsaslandığı diqqətə çatdırıldı, ərazi bütövlüyü və suverenlik məsələlərində dövlətlərimizin bir-birinə qarşılıqlı dəstək göstərdikləri vurğulandı.

Səfir Yuri Qusev Prezident İlham Əliyevin doğum günü münasibətilə təbriklərini çatdıraraq ölkələrimiz arasında əlaqələrin inkişafında Azərbaycanın dövlət başçısının müstəsna rolunu qeyd etdi.

Diplomat həmçinin parlament seçkilərinin uğurla keçirilməsi və yenidən Milli Məclisin sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı təbrik etdi.

Görüşdə Azərbaycanın ev sahibliyi ilə keçirilən COP29-un yüksək səviyyədə təşkili ilə bağlı da fikirlər səsləndirildi. Söhbətdə parlamentlərimiz arasında mövcud münasibətlərin səviyyəsindən məmnunluq bildirilərək bu əlaqələrin daha da inkişafına dair müzakirələr aparıldı.






# Milli Məclisdə Beynəlxalq Parlament Konfransı keçirildi

Dekabrın 7-də Milli Məclisdə Azərbaycan parlamentinin 106-cı ildönümünə həsr olunmuş "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusunda Beynəlxalq Parlament Konfransı keçirildi. Konfransda 13 ölkənin parlamentindən və beynəlxalq təşkilatlardan 100-ə yaxın nümayəndə iştirak edirdi.

Mötəbər tədbiri giriş nitqi ilə açan Milli Məclisin sədri Sahibə Qafarova  dost və qardaş ölkələrin parlamentlərinin təmsilçilərini salamlayaraq bildirdi ki, konfransın mövzusu olduqca aktualdır. O qeyd etdi ki, ölkələrimizin siyasi həyatında parlamentlərin oynadığı rol danılmazdır. Belə ki, onlar qanunvericilik hakimiyyəti funksiyasını yerinə yetirməklə dövlətin idarə olunmasında fəal iştirak edirlər.

Azərbaycanda mövcud olan parlamentarizm ənənələrindən söz açan Sahibə Qafarova 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin fəaliyyətini xüsusi qeyd etdi. Spiker bildirdi ki, bütün müsəlman Şərqində o dövrün ən mütərəqqi, demokratik prinsipləri əsasında formalaşdırılmış ilk qanunvericilik orqanı olan Azərbaycan parlamenti öz fəaliyyəti dövründə milli dövlətçiliyin və müstəqilliyin möhkəmləndirilməsi, siyasi, iqtisadi, mədəni, elmi və digər sahələrdə hüquqi bazanın yaradılması istiqamətində mühüm addımlar atmışdı.

Milli Məclisin sədri o dövrkü parlamentin tarixi qərarları və fəaliyyəti barədə tədbir iştirakçılarına geniş məlumat verdi. Sahibə Qafarova vurğuladı ki, Azərbaycanda sovet hakimiyyəti illərində parlament məhdud səlahiyyətlərə malik idi. Bununla belə, formal xarakter daşımasına baxmayaraq, parlamentin həmin dövrdəki fəaliyyəti parlamentarizm ənənələrinin qorunub saxlanması baxımından faydalı olub.

1991-ci ildə Azərbaycanın müstəqilliyini bərpa etməsinin parlamentimizin tarixində yeni dövrün başlanması kimi yadda qaldığını deyən spiker söylədi ki, həmin dövrün ilk illəri olduqca mürəkkəb şəraitdə keçirdi. Ermənistanın Azərbaycana qarşı işğalçılıq fəaliyyətinin genişlənməsi, siyasi, iqtisadi və sosial tənəzzül, hakimiyyətdaxili çəkişmələr səbəbindən ölkənin parçalanmaq həddinə çatması parlamentin işində də özünü açıq büruzə verirdi. Məhz belə bir məqamda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliye-

vin 1993-cü ilin iyununda hakimiyyətə qayıdışı nəinki dövlət müstəqilliyinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün həlledici məqam oldu, həm də mahiyyət etibarilə yeni parlament institutunun formalaşdırılması baxımından həyati əhəmiyyət kəsb etdi.

Heydər Əliyevin böyük siyasətə qayıdışı məhz parlamentdə başladı. Ulu Öndər parlamentə rəhbərlik etdiyi dörd aya yaxın müddət ərzində Azərbaycan parlamentarizm tarixinin keyfiyyətcə yeni mərhələsinin əsasını qoydu. Onun həm bu müddətdə, həm də sonradan prezidentlik dövründə qəbul etdiyi qərarlar, irəli sürdüyü təşəbbüslər müstəqil dövlətimizin hüquqi bazasının yaradılıb inkişaf etdirilməsində, parlamentin real hakimiyyət orqanına çevrilməsində əvəzsiz rol oynadı.

Milli Məclisin sədri bildirdi ki, Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycanın memarı və qurucusu olduğu kimi, müasir parlamentimizin də banisidir. Bu parlament öz fəaliyyətində ötən dövrlərdə formalaşmış ənənələrə əsaslanır, müstəqillik və dövlətçilik amallarını təcəssüm etdirir.

Bu gün Milli Məclis Azərbaycan Respublikasının Prezidenti Zatialiləri cənab İlham Əliyevin ölkəmizə böyük uğurlar və qələbələr qazandıran milli inkişaf strategiyasının həyata keçirilməsi prosesinə öz qanunvericilik fəaliyyəti ilə töhfə verir. Spiker diqqətə çatdırdı ki, ölkələrimizin və xalqlarımızın mənafelərinin təmin olunması işi parlamentlərin rolunun, onların qanunvericilik və təmsilçilik funksiyalarının daha da gücləndirilməsini labüd edir. Parlamentlər arasında ortaq maraqlara əsaslanan əməkdaşlıq məsələləri keyfiyyətcə yeni xarakter alır. Bu mənada, son dövrlərin mühüm təzahürlərindən biri olan parlament diplomatiyası xüsusilə diqqəti cəlb edir. Sahibə Qafarova bildirdi ki, müəyyən



etdiyimiz hədəflərə çatmaq üçün parlament diplomatiyası ikitərəfli və çoxtərəfli əsasda qarşılıqlı faydalı əməkdaşlıq, səmərəli dialoq, ən yaxşı təcrübələrin paylaşılması, üzləşdiyimiz çağırışlar qarşısında səylərin birləşdirilməsi kimi böyük imkanlara malikdir. Bütün bunlar parlament diplomatiyasının mühüm cəhətləridir.

Milli Məclisin sədri onu da vurğuladı ki, təəssüf ki, bu gün bir sıra ölkələrdə parlamentlər hansısa siyasi maraqlardan asılı vəziyyətə düşərək təzyiq, şantaj, böhtan və ikili standartlar alətinə çevrilirlər.

Spiker qeyd etdi ki, 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında antiterror tədbirləri 30 illik işğala və haqsızlığa son qoydu, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini təmin etdi. Eyni zamanda, məhz ölkəmizin təşəbbüsü ilə Cənubi Qafqazda uzunmüddətli sülhün və sabitliyin yaradılması imkanlarına da yol açıldı. Bütün bu proseslər fonunda isə bir sıra Qərb ölkələri və onların parlamentləri, AŞPA və Avropa Parlamenti kimi qurumlar Azərbaycana qarşı yalan ittihamlar üzərində qurulmuş böhtan və dezinformasiya kampaniyaları aparır, respublikamızın daxili işlərinə müdaxilə edirlər. Bunun yeganə səbəbi isə Azərbaycanın kimlərinsə diktəsini rədd edərək öz torpaqlarını işğaldan azad etməsi, milli maraqlara əsaslanan müstəqil siyasət həyata keçirməsidir. Sədr söylədi ki, bu tip təxribatlar BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilmiş 29-cu sessiyası dövründə də özünü aşkar şəkildə büruzə verdi. Azərbaycanın iqlim dəyişmələri kimi qlobal problem-



lə mübarizədə bütün dünyanın səylərini birləşdirməyə çalışdığı bir dövrdə öz dar siyasi maraqlarını güdən dairələr bu qlobal tədbiri boykot edir, ölkəmizə qarşı absurd iddialar səsləndirirdilər. Lakin onların bu təxribatları nəticəsiz qaldı. COP29 ən yüksək səviyyədə keçirildi və əhəmiyyətli nəticələrin əldə olunması ilə başa çatdı. COP29 çərçivəsində Parlament Toplantısı təşkil etməklə bizlər də bu mühüm prosesə öz töhfəmizi verdik.

Milli Məclisin sədri Sahibə Qafarova çıxışının sonunda təəssüflə vurğuladı ki, əsassız təzyiqlər, ikili standartlar, daxili işlərə müdaxilələr müasir dövrdə ölkələrimizin tez-tez qarşılaşdığı neqativ hallardır. Bu isə öz növbəsində qarşılıqlı dəstək və birgə fəaliyyətin vacibliyini bir daha ön plana çıxarır. Biz parlament diplomatiyasının bütün mövcud imkanlarından faydalanmaqla, konstruktiv dialoq və əməkdaşlığı rəhbər tutmaqla qarşıya qoyduğumuz hədəflərə nail ola bilərik.

Sonra konfransda Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay, Türkiyə Böyük Millət Məclisinin Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım çıxış edərək Azərbaycan parlamentinin 106-cı ildönümü münasibətilə öz təbriklərini və xoş arzularını çatdırdılar. Qeyd etdilər ki, eyni dilə, dinə, mədəniyyətə mənsub Türkiyə ilə Azərbaycan arasında möhkəm dostluq və qardaşlıq əlaqələri, iqtisadi, ticarət və digər sahələrdə əməkdaşlıq dinamik inkişaf edir. Onlar Türkiyənin hər zaman, o cümlədən 44 günlük Vətən müharibəsində Azərbaycanı dəstəklədiyini bildirdilər, ölkələrimiz arasında müttəfiqlik münasibətlərinə dair imzalanmış Şuşa Bəyannaməsinin vacibliyini söylədilər.

Çıxışçılar Azərbaycanın regionda və dünyada rolunun artdığını vurğulayaraq ölkəmizin bir çox beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etdiyini, o cümlədən bu yaxınlarda yüksək səviyyədə təşkil olunmuş COP29 Konfransının qlobal iqlim dəyişikliyi ilə mübarizəyə mühüm töhfələr verdiyini dedilər. Onlar Qərbi Azərbaycana qayıdış məsələsinə toxunaraq bildirdilər ki, vaxtilə doğma yurdlarından didərgin düşmüş azərbaycanlılar beynəlxalq hüquq normalarına uyğun olaraq öz evlərinə qayıtmalıdırlar.

Türkiyəli parlamentarilər Azərbaycan parlamentarizminin inkişafında Ümummilli Lider Heydər Əliyevin müstəsna rolunu vurğuladılar.

Tədbirdə Milli Məclisin Türkiyə ilə parlamentlərarası işçi qrupunun rəhbəri, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, İntizam komissiyasının sədri Eldar İbrahimov, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Müdafiə, təhlükəsizlik və korrup-



siya ilə mübarizə komitəsinin sədr müavini Qüdrət Həsənquliyev, deputatlar Fəzail İbrahimli, Tənzilə Rüstəmxanlı, Əziz Ələkbərov da çıxış etdilər. Onlar müstəqil Azərbaycan parlamentinin tarixindən söz açaraq vurğuladılar ki, Ulu Öndər Heydər Əliyevin Milli Məclisə rəhbərliyi dövründə onun ölkəmizdə parlamentarizm ənənələrinin formalaşmasında və parlament mədəniyyətinin təkmilləşdirilməsində misilsiz xidmətləri olub. Azərbaycanın dövlət müstəqilliyinin və təhlükəsizliyinin qorunub saxlanılması, onun dayanıqlı inkişafının təmin edilməsi, ərazi bütövlüyünün bərpa olunması sahəsində qanunların hazırlanıb qəbul edilməsi də məhz Heydər Əliyevin adı ilə bağlıdır.

Millət vəkilləri bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyatın bütün sahələrində təqdirəlayiq uğurların əldə edildiyini, sabitliyə, tərəqqiyə nail olunduğunu, ölkəmizin beynəlxalq miqyasda söz sahibi olduğunu vurğuladılar. Çıxışlarda bildirildi ki, Azərbaycan parlamenti ümummilli məqsədlərin həyata keçirilməsində dövlət başçısını dəstəkləmək üçün bütün imkanlarını səfərbər edib.

Deputatlar bu gün parlament diplomatiyasının müvəffəqiyyətlə inkişaf etdiyini, bir çox ölkələrin parlamentləri ilə qarşılıqlı əlaqələrin qurulduğunu söylədilər. Milli Məclisin sədri Sahibə Qafarovanın uğurlu fəaliyyəti sayəsində Azərbaycan parlamentinin beynəlxalq əlaqələrinin daha da genişləndiyini qeyd etdilər.

Beynəlxalq Parlament Konfransında Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının Elm, təhsil və mədəniyyət komitəsi sədrinin birinci müavini İlyas Umaxanov, Qazaxıstan Respublikası Parlamenti Senatının Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin katibi Darxan Kıdırali, Özbəkistan Respublikası Ali Məclisi Senatının Gənclər, mədəniyyət və idman komitəsinin sədri Orzigül Kozixonova, Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sosial məsələlər, səhiyyə, elm, təhsil, mədəniyyət, gənclər və qadın siyasəti komitəsinin sədri Məhmədşoh Gülzoda, Türkiyə Böyük Millət Məclisinin Cümhuriyyət Xalq Partiyası Qrupunun sədr müavini Murat Emir, İraq Respublikası Nümayəndələr Şurasının İnsan hüquqları komitəsinin sədri Ərşad Əl-Salihi, Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının Qanunvericilik və dövlət quruculuğu məsələləri üzrə daimi komitəsinin sədr müavini Aleksey Vasilyev, Gürcüstan parlamentinin İnsan hüquqları və vətəndaş inteqrasiyası komitəsinin sədr müavini Savalan Mirzəyev, Türkiyə Böyük Millət Məclisinin Milliyyətçi Hərəkat Partiyası Qrupunun sədr müavini Filiz Kılıç, Malayziya Nümayəndələr Palatasının Beynəlxalq əlaqələr və ticarət komitəsinin sədri Vonq Çen, Türkiyə Böyük Millət Məclisinin Ədliyyə komissiyasının sədri Cüneyt Yüksel, Qırğız Respublikası Joqorku Keneşinin Azərbaycan Respublikası ilə əməkdaşlıq üzrə dostluq qrupunun rəhbəri Səidbek Zulpuyev, Türkiyə Böyük Millət Məclisinin Rəqəmsal Media Komissiyasının sözçüsü Zeynep Yıldız, Türkiyə Böyük Millət Məclisinin üzvü Süreyya Öneş Derici, Pakistan İslam Respublikası Milli Assambleyasının üzvü Sərdar Əmmar Əhməd Xan Leqhari, Türkiyə Böyük Millət Məclisinin üzvü Kürşad Zorlu, TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er çıxış edərək öz fikirlərini bölüşdülər.

Qeyd edək ki, Beynəlxalq Parlament Konfransının iştirakçıları Heydər Əliyev Mərkəzində də oldular. Mərkəzdəki Heydər Əliyev Muzeyi ilə tanışlıq zamanı qonaqlara Ümummilli Liderin zəngin həyat və fəaliyyətini əks etdirən eksponatlar barədə geniş məlumat verildi. Onlar Zəfər parkını da ziyarət etdilər.



# ADA Universitetində parlament diplomatiyası geniş müzakirə olundu



Ölkənin aparıcı ali təhsil müəssisəsi olan və ölkəmizin gələcəyi üçün güclü kadr potensialı yetişdirən ADA Universiteti mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Dekabrın 7-də ADA Universitetində növbəti belə bir tədbir - "İctimai diplomatiyada parlamentlərin rolu: Azərbaycan və Türkiyə nümunəsi" mövzusuna həsr olunmuş beynəlxalq dəyirmi masa keçirildi. Tədbiri giriş sözü ilə Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini Əli Əhmədov və Türkiyə Böyük Millət Məclisinin Xarici Əlaqələr Komitəsinin sədri Fuat Oktay açdılar. Natiqlər çıxışlarında Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinə toxunaraq strateji tərəfdaşlığın dərinləşdirilməsinin vacibliyini qeyd etdilər. Onlar ictimai diplomatiyanın müasir dövrdə dövlətlərarası əlaqələrin möhkəmləndirilməsi, xalqlar arasında qarşılıqlı anlaşmanın dərinləşdirilməsi və mədəniyyətlərarası dialoqun inkişafındakı mühüm rolunu vurğuladılar.

Azərbaycan ilə Türkiyə arasındakı dostluq və qardaşlıq əlaqələrindən söz açan Əli Əhmədov söylədi ki, Azərbaycanın müstəqilliyinin bərpası xalqımız üçün tarixi bir nemət olduğu kimi, həm də iki ölkə arasındakı qardaşlıq münasibətlərinin möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. O qeyd etdi ki, bu inkişaf təkcə iki ölkə arasında deyil, həm də beynəlxalq münasibətlər sistemində onların nüfuzunun artmasına və qlobal arenada daha fəal mövqe tutmalarına imkan yaradıb.

Türkiyə Böyük Millət Məclisinin Xarici Əlaqələr Komitəsinin sədri Fuat Oktay da çıxışında Azərbaycan və Türkiyə arasındakı qardaşlığın və strateji tərəfdaşlığın bütün siyasi məsələlərin fövqündə durduğunu, milli maraqlar çərçivəsində qiymətləndirildiyini bildirdi. O, bu münasibətlərin yalnız iki ölkə üçün deyil, bütövlükdə türk dünyası üçün mühüm töhfələr verdiyini vurğuladı. Komitə sədri, eyni zamanda, Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyinə toxunaraq regionda sülh və sabitliyin möhkəmləndirilməsi üçün birgə səylərin davam etdirilməsi-

nin önəmini qeyd etdi. Fuat Oktay diqqətə çatdırdı ki, bu il Azərbaycan parlamentinin 106-cı ildönümü ilə yanaşı, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində ilk dəfə seçkilərin keçirilməsi ilə əlamətdardır: "Bu, ölkənin demokratik inkişafında mühüm mərhələ kimi qiymətləndirilir. İlk dəfə olaraq azad edilmiş ərazilərdə xalqın iradəsi seçkilər vasitəsilə əks olunub. Bu proses Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi və demokratik dəyərlərin təntənəsi baxımından xüsusi əhəmiyyət kəsb edir", - deyə o əlavə etdi.

Sonra tədbir Milli Məclisin deputatı, Elm və təhsil komitəsinin sədr müavini, ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə davam etdi.

"Parlamentlərin ictimai diplomatiyada rolu" adlı paneldə əsas məruzəçi kimi çıxış edən Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov tədbirin əhəmiyyətini vurğulayaraq müasir dövrdə parlamentlərin ictimai diplomatiyada oynadığı mühüm rolunu geniş təhlil etdi. Paneldə digər natiqlər - Milli Məclis sədrinin müavinləri Rafael Hüseynov, Musa Qasımlı, parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, sədr müavini Nigar Arpadarai, TBMM-in Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbərinin müavini Orhan Erdem, parlamentin Türkiyə-Avropa İttifaqı Birgə Parlament Komitəsinin həmsədrinin müavini Konur Alp Koçak, eləcə də millət vəkilləri Nurhayat Altaca Kayışoğlu, Ali Öztunç, Metin Ergun və Büşra Paker çıxışlarında ölkələrarası əməkdaşlıq və parlamentlərin xalq diplomatiyasındakı rolu barədə fikirlər səsləndirdilər. Dəyirmi masada Azərbaycan və Türkiyə parlamentlərinin ictimai diplomatiya sahəsində təcrübəsi ətraflı müzakirə edildi, həmçinin əməkdaşlığın təşviqinə töhfə verən təşəbbüslər barədə fikir mübadiləsi aparıldı.

Tədbirin sonunda parlamentarilər iki ölkə arasında dostluq və strateji tərəfdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsinin, qanunvericilik orqanlarının ictimai diplomatiyadakı rolunun gücləndirilməsinin və bu sahədə əməkdaşlığın davam etdirilməsinin regional və qlobal sabitliyin təmin olunmasına mühüm töhfə verə biləcəyini vurğuladılar. İştirakçılar əməkdaşlığın genişləndirilməsi, yeni layihələrin həyata keçirilməsi istiqamətində razılığa gələrək dəyirmi masanı gələcək əməkdaşlıq perspektivlərinin və fəaliyyət planlarının müzakirəsi üçün mühüm bir platforma kimi qiymətləndirdilər.





# Milli Məclisdə Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupunun təşkilatçılığı ilə ictimai dinləmə keçirildi

Dekabrın 2-də parlamentdə Milli Məclisin Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupunun təşkilatçılığı ilə “Qərbi Azərbaycana təhlükəsiz və ləyaqətli qayıdış” mövzusunda ictimai dinləmə keçirildi. Tədbiri giriş sözü ilə açan Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri və Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupunun rəhbəri Əziz Ələkbərov bildirdi ki, ötən dövrdə Milli Məclisdə Qərbi Azərbaycana qayıdışla bağlı müxtəlif komitələr tərəfindən beş dəfə ictimai dinləmə keçirilib. 1989-cu ildə yaradılan və Qərbi Azərbaycandan olan qaçqın soydaşlarımızın sosial və məskunlaşma problemləri ilə məşğul olan Azərbaycan Qaçqınlar Cəmiyyəti Prezident İlham Əliyevin tövsiyəsi ilə 2022-ci ildə Qərbi Azərbaycan İcması adı ilə yenidən təşkil edilib. Bu addım tarixi torpaqlarımız uğrunda mübarizəyə yeni təkan verərək soydaşlarımızın dinc və təhlükəsiz qayıdışı üçün siyasi əsaslar yaradan Qayıdış Konsepsiyasının hazırlanmasına zəmin yaratdı. Bütün bunlar Qərbi azərbaycanlıların doğma torpaqlarına qayıdışına sarsılmaz inam yaradaraq bu ideyanı ümummilli hədəfə çevirdi və onu beynəlxalq müstəviyə daşımağa nail olduq.

İcma rəhbəri vurğuladı ki, Prezident İlham Əliyevin liderliyi sayəsində icmanın hazırladığı sənədlər qısa müddətdə beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də rəsmi sənədlər kimi təqdim edilib. Qurumun bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən Avropa İttifaqı, UNESCO ilə əməkdaşlığı genişlənib. 2024-cü ildə Qambiyada keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının zirvə görüşündə 57 dövlətin yekun sənədində Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışına dəstək ifadə olunması və Ermənista-



nın müsəlman irsinə qarşı törətdiyi vandalizmin qınanması Azərbaycan diplomatiyasının uğuru kimi qiymətləndirilib.

Əziz Ələkbərov onu da söylədi ki, Qərbi Azərbaycan İcması bölgə həqiqətlərinin beynəlxalq müstəviyə çıxarılması və qaçqın soydaşlarımızın qayıdış hüququnun beynəlxalq miqyasda tanınması istiqamətində fəaliyyətini genişləndirməkdə qərarlıdır. İcma VII çağırış Azərbaycan parlamentinin formalaşmasından dərhal sonra Milli Məclisin sədrinə müraciət edərək parlamentdə Qərbi Azərbaycana qayıdış məsələsi üzrə qurumun yaradılması təklifini irəli sürdü. Parlamentin spikeri Sahibə Qafarovanın sərəncamı ilə dərhal 13 nəfərdən ibarət Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupu yaradıldı. Artıq bu qrup ümumdövlət və milli maraqlar, eləcə də tarixi ədalətin bərpası naminə var gücü ilə çalışır.

Tədbirdə Milli Məclisin komitə sədrləri Əhliman Əmiraslanov, Əli Hüseynli, Musa Quliyev, Fazil Mustafa, Şahin İsmayılov, Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyanın sədri Ramid Namazov, komitə sədrlərinin müavinləri Qüdrət Həsənquliyev, Sahib Alıyev, deputatlar Azay Quliyev, Kamal Cəfərov, Ramil Həsən, Tənzilə Rüstəmxanlı, Rizvan Nəbiyev, Aydın Mirzəzadə, Səyyad Salahlı, Qaya Məmmədov və Məlahət İbrahimqızı Qərbi Azərbaycana qayıdışla bağlı keçirilən dinləmələrin əhəmiyyətini qeyd etdilər. Millət vəkilləri Qərbi Azərbaycan İcmasının fəaliyyətinə toxunaraq qurumun son iki ildə ciddi və fundamental xarakter daşıyan sistemli işlərinin bu sahədə mühüm nəticələr əldə olunmasına və Qərbi Azərbaycana qayıdış məsələsinin beynəlxalq müstəvidə daha geniş şəkildə işıqlandırılmasına töhfə verdiyini vurğuladılar. Bu məsələnin parlament diplomatiyası vasitəsilə dünya ictimaiyyəti tərəfindən daha dərindən anlaşılması və dəstəklənməsi barədə fikirlərini bölüşdülər.

İclasda Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynov "Deportasiyaya məruz qalmış Qərbi azərbaycanlılarla bağlı statistik məlumatlar", Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik İdarəsinin rəisi Samir Becanov "Beynəlxalq praktikada qaçqınların geri qayıdışının təmini", Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva "Qərbi Azərbaycanda maddi-mədəni irsimiz", Baş Prokurorluğun İstintaq İdarəsinin rəis müavini Qasım Məmmədov "Qərbi Azərbaycanda azərbaycanlılara qarşı cinayət törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi", AMEA-nın Tarix və Etnologiya İnstitutunun Qərbi Azərbaycan tarixi şöbəsinin müdiri Cəbi Bəhramov "Qərbi Azərbaycan tarixinin öyrənilməsi və araşdırılması" mövzularında məruzələrlə çıxış etdilər, soydaşlarımızın Azərbaycan xalqının tarixi torpaqlarına qayıdışının təmin edilməsinin hüquqi aspektləri barədə qeyd və təkliflərini irəli sürdülər.



# Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə mühüm qlobal tərəfdaş kimi - COP29




Müsahibimiz Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un Prezidenti **Muxtar Babayevdir**. Onunla söhbətimizin mövzusu cari ilin noyabr ayında Bakıda keçirilən COP29-da qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi istiqamətində atılan addımlarla bağlı oldu.

**- Muxtar müəllim, 2024-cü ilin noyabr ayında bütün dünyanın nəbzi Azərbaycanda döyündü. COP29 tədbirinin uğurla başa çatması həm ölkəmiz, həm də qlobal iqlim gündəliyi üçün böyük əhəmiyyət kəsb edir. Bu uğurun əldə olunmasında hansı əsas amilləri qeyd edə bilərsiniz?**

- COP29-un uğuru ilk növbədə ölkə rəhbərliyinin diqqəti və dəstəyi sayəsində mümkün oldu. Möhtərəm Prezidentimizin liderliyi tədbirin yüksək səviyyədə təşkili və nəticələrin əldə olunmasında həlledici rol oynadı. Bakı 70 mindən çox iştirakçının və 80 dünya liderinin iştirak etdiyi bu mötəbər beynəlxalq tədbirin ev sahibi oldu. Vurğulamaq istərdim ki, qısa bir müddətdə - cəmi 11 ayda təşkil edilmiş tədbir iqlim dəyişikliklərinə qarşı qlobal mübarizədə tarixi bir dönüş nöqtəsi kimi dəyərləndirildi.

Belə ki, Bakı COP-u substantiv yekunlar, əldə edilmiş qərarların əhəmiyyəti və sayı baxımından Paris və Kioto COP-ları ilə müqayisə olunmaqla, iqlim danışıqları tarixində ən uğurlu konfranslardan biri hesab olunur.

**- COP29 çərçivəsində qəbul edilən əsas qərar və təşəbbüslər hansılardır?**

- Tədbirdə müzakirə olunan 59 mandatdan 52-si üzrə konsensus əsasında qərar qəbul edildi. 4 mandat üzrə prosedur qərarları verildi, 3 mandat üzrə isə razılıq əldə etmək mümkün olmadı.

Qəbul edilən əsas qərarlar arasında Yeni Kollektiv Kəmiyyət Hədəfi (NCQG) üzrə maliyyə mexanizmi, Paris Sazişinin 6-cı maddəsi üzrə karbon bazarlarının tam işlək vəziyyətə gətirilməsi, İtki və Zərər Fondu üçün zəruri mexanizmlərin təsdiqi, Gender və İqlim Dəyişikliyi Proqramının irəliləməsi, eləcə də digər mühüm qərar və qətnamələrin qəbul edilməsi kimi mühüm addımlar var. Bu nəticələr danışıqlar prosesinin nə qədər mürəkkəb və çətin olmasına baxmayaraq, COP29-un effektiv və inklüziv



yanaşmasının bariz göstəricisidir.

Xüsusilə Azərbaycanın bütün dövlət qurumlarının koordinasiyalı və fəal əməyi nəticəsində 14 mühüm təşəbbüs irəli sürüldü. Bu təşəbbüslərin böyük bir hissəsi qlobal səviyyədə geniş dəstək qazanaraq iqlim diplomatiyasında fəal olan dövlətlərin əksəriyyəti və beynəlxalq təşkilatlar tərəfindən dəstəkləndi.

Əminliklə deyə bilərik ki, əldə olunan nəticələr Azərbaycan ilə bir çox ölkələr və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın gücləndirilməsinə, həmrəyliyin dərinləşməsinə və birgə fəaliyyətlərin genişləndirilməsinə yeni imkanlar yaratdı.

**- COP29 planda nəzərdə tutulan tarixdən sonra 48 saata yaxın uzandı və əsas mövzulardan biri "iqlim maliyyələşməsi" məsələsi idi. Bu mövzuda ölkələr arasında istəklər fərqlidir və məlumdur ki, bir qədər də hərc-mərclik var, hər bir ölkənin nümayəndəsi fərqli istəklər ortaya qoyur. Burada ortaq məxrəc yaratmaq mümkün oldumu?**

- Tamamilə haqlısınız. COP29 çərçivəsində yekun razılıqların əldə olunması mürəkkəb və gərgin danışıqlar prosesi tələb etdi. Tərəflər arasında fikir ayrılıqları əsasən iqlim maliyyələşdirilməsi, Paris Sazişinin 6-cı maddəsi üzrə karbon bazarlarının fəaliyyət mexanizmi və şəffaflığı, eləcə də İtki və Zərər Fondunun maliyyələşdirilməsi və idarəedilməsi məsələlərində cəmləşmişdi.

COP29 Sədrliyinin balanslı və inklüziv yanaşması, müxtəlif maraqların uzlaşdırılması və danışıqların səmərəli idarə olunması sayəsində tərəflər çətin məsələlər üzrə kompromis həll yolları taparaq prosesin uğurla başa çatmasına töhfə verdilər.

COP29 qlobal iqlim maliyyələşməsi sahəsində tarixi nəticələr əldə etdi, çətin və mürəkkəb siyasi şəraitdə böyük uğura imza atdı. "Bakı Maliyyə Hədəfi" bu uğurun əsas təməl daşlarından biri oldu. Yeni maliyyə məqsədi 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələr üçün 1,3 trilyon dollar investisiya və 300 milyard dollar dövlət maliyyəsinin səfərbər olunmasını nəzərdə tutur. Bu, iqlim dəyişikliyi ilə mübarizədə ən mühüm problemlərdən birinə - maliyyə resurslarının əlçatanlığına sistemli yanaşmanın başlanğıcıdır. Əlbəttə, inkişaf etməkdə olan ölkələr əlavə maliyyə ehtiyaclarını irəli sürsələr də, əldə olunmuş bu tarixi əhəmiyyətli razılaşma gələcək COP-larda addımlar üçün güclü zəmin yaradır.

**- COP29 tədbirinin qlobal miqyasda təsiri nə olacaq və bu irsi necə qoruyub saxlamağı planlaşdırırsınız?**

- Bu uğurların davamlı olması və qəbul edilən qərarların icrasının təmin edilməsi üçün səylərimizi daha da gücləndirəcəyik. COP29-un mirası olan Bakı İqlim Həmrəylik Paktı (Baku Climate Unity Pact) çərçivəsində qəbul edilən qərarların icrası və təşviqi bizim əsas






prioritetlərimizdən biri olacaqdır. Artıq növbəti mərhələlər üçün strategiya və fəaliyyət planı hazırlayırıq. Bu plan çərçivəsində qəbul edilmiş qərarların icrası təmin ediləcək və növbəti ildə də beynəlxalq tədbirlərdə fəal iştirakımız davam edəcək. Bundan əlavə, Braziliyada keçiriləcək COP30-a hazırlıq mərhələsində sıx əməkdaşlıq və təcrübə mübadiləsi aparacağıq. "Bakıdan Beləmə Yol Xəritəsi" çərçivəsində əməkdaşlıq və fəaliyyətlər davam etdiriləcəkdir.

**- COP29 zamanı beynəlxalq mediadan və bəzi dairələrdən təzyiqlər və tənqidlər də oldu. Bu çətinliklərin öhdəsindən necə gəlindi?**

- 2023-cü il dekabrın 11-də Azərbaycanın COP29-a ev sahibliyi edəcəyi elan olunduğu gündən ölkəmizə qarşı məqsədyönlü dezinformasiya və təzyiq kampaniyaları aparılmağa başlandı. Təəssüf ki, bu kampaniyalar bir çox hallarda müəyyən beynəlxalq təşkilatlar, bəzi parlament nümayəndələri və media qurumları tərəfindən əlaqələndirilmiş olurdu.

Lakin ölkəmiz bu təzyiqlərə qarşı prinsipial, şəffaf və məntiqli mövqe nümayiş etdirdi. Bizim üçün əsas olan faktlara əsaslanan kommunikasiyanın qurulması, obyektiv məlumatın çatdırılması və qərəzli iddiaların vaxtında cavablandırılması oldu.

Onu da vurğulamaq yerinə düşər ki, il ərzində COP29 Sədrliyi komanda şəklində aparıcı beynəlxalq qurumlarda geniş media brifinqləri keçirib, müsahibələr verib və gündəmə gətirilən məsələlərə dəqiqliklə aydınlıq gətirib. Bu prosesdə ölkəmizin diplomatik korpusları, dövlət qurumları və COP29 Sədrliyinin komandası sıx koordinasiya şəklində çalışıb.

Bütün çətinliklərə baxmayaraq, COP29 uğurla keçirildi və qlobal iqlim gündəliyində mühüm nəticələrə nail olundu. Bu, ölkəmizin idarəetmə bacarığının, diplomatik çevikliyinin və beynəlxalq tərəfdaşlarla etibarlı münasibətlərinin bariz göstəricisidir.

**- COP29-un Bakıda keçirilməsi ölkənin beynəlxalq imicinin gücləndirilməsinə necə kömək etdi?**

- İlk növbədə belə bir qlobal tədbirin uğurla təşkil edilməsi ölkəmizin qonaqpərvərliyini, yüksək səviyyəli təşkilatçılıq bacarığını və qlobal problemlərin həllinə töhfə vermək əzmini nümayiş etdirdi. Bu uğurun daha da möhkəmləndirilməsi məqsədilə ölkə rəhbərliyi tərəfindən 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi COP29-un əsas prinsipləri ilə uzlaşaraq qlobal və regional səviyyədə iqlim dəyişikliyi ilə mübarizədə həmrəylik və əməkdaşlıq ruhunun gücləndirilməsinə mühüm töhfə verdi.

Bu kontekstdə, COP29 çərçivəsində Azərbaycan Respublikasının Milli Məclisi və Parlamentlərarası İttifaqının birgə təşkilatçılığı ilə keçirilmiş Parlament Konfransı iqlim




dəyişikliyi ilə mübarizədə parlamentlərin rolunun gücləndirilməsi və qlobal səylərin birləşdirilməsi baxımından tarixi əhəmiyyət kəsb edən mühüm bir platforma oldu.

Fürsətdən istifadə edərək Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova başda olmaqla parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynovaya, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanova, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidova, millət vəkilləri, İqlim üzrə yüksək səviyyəli çempionumuz Nigar Arpadaraiyə, Parlamentlərarası İttifaqın üzvü Soltan Məmmədova, eləcə də digər deputatlarımıza COP29 çərçivəsində göstərdikləri səmərəli fəaliyyət və dəyərli töhfələrinə görə dərin minnətdarlığımızı bildiririk.

İqlim Forumu həmçinin bütün dövlət qurumlarımız, eləcə də gənclər və könüllülər üçün böyük təcrübə və inkişaf platformasına çevrildi.

Şübhəsiz ki, bu böyük uğurun arxasında dayanan əsas sütunlardan biri də ölkə rəhbərliyinin müvafiq sərəncamı ilə yaradılmış Təşkilat Komitəsinin müstəsna əməyi və koordinasiyalı fəaliyyəti oldu. İl ərzində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyevin rəhbərliyi ilə inklüziv və geniş tərkibdə təmsil olunan komitə üzvlərinin iştirakı ilə Təşkilat Komitəsinin ümumilikdə 8 iclası keçirildi və bir sıra önəmli qərarlar qəbul edildi. Bu yanaşma sayəsində dövlət qurumları, vətəndaş cəmiyyəti və özəl sektor nümayəndələri bir araya gələrək ümumi məqsəd uğrunda səfərbər oldular və sıx əməkdaşlıq nümayiş etdirdilər.

Digər tərəfdən komandamız hər biri öz sahəsində peşəkar olan mütəxəssislərdən ibarətdir. Baş danışıqçı Yalçın Rəfiyev, Konvensiyanın milli əlaqələndiricisi Umayra Tağıyeva, Əməliyyat direktoru Nərmin Carçalova, İcraçı direktor Elnur Soltanov, İqlim üzrə yüksək səviyyəli çempion Nigar Arpadarai və İqlim üzrə gənclər çempionu Leyla Həsənova yüksək peşəkarlıq nümayiş etdirdilər. Hər bir komanda üzvünün əməyi danılmazdır.

Media qurumlarımızın və peşəkar jurnalistlərimizin əməyi xüsusi qeyd olunmalıdır. Onlar gecə-gündüz çalışaraq COP29-un məqsəd və məramının geniş ictimaiyyətə çatdırılmasında mühüm rol oynadılar.

Bundan əlavə, qeyri-hökumət təşkilatlarının və vətəndaş cəmiyyətinin fəal iştirakı, təşəbbüsləri və göstərdikləri əvəzsiz dəstək bu uğurun əldə edilməsində mühüm amil oldu.

Nəticədə COP29 Azərbaycanı qlobal iqlim gündəminin mərkəzinə yerləşdirdi, ölkənin beynəlxalq nüfuzunu və etimadını daha da artırdı, həmçinin iqlim dəyişikliyi ilə mübarizədə mühüm qlobal tərəfdaş kimi mövqeyini gücləndirdi.

# Strateji vəzifələrin və təşəbbüslərin reallaşmasına maliyyə təminatı yaradan büdcə

## 2025-ci ilin dövlət büdcəsinin əsas xüsusiyyətləri

Möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən Milli Məclisin müzakirəsinə təqdim olunan "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi parlament tərəfindən qəbul edildi. Büdcə zərfi müvafiq dövlət orqanlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə konstruktiv və işgüzar şəraitdə geniş müzakirə olundu. Milli Məclisin sədri hörmətli Sahibə xanım Qafarovanın təşəbbüsü ilə əsası qoyulmuş ənənənin davamı olaraq büdcə müzakirələrinə parlamentdə təmsil olunan siyasi partiyaların rəhbərləri də dəvət edilmişdilər.



**Azər Əmiraslanov**
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri

2025-ci ilin dövlət büdcəsi layihəsinin müzakirə edildiyi cari ildə ölkəmizin siyasi həyatı mühüm tarixi hadisələrlə yadda qaldı. Bakıda COP29-la bağlı mötəbər beynəlxalq tədbirin keçirilməsi uğurla başa çataraq Azərbaycanın gücünü və qüdrətini, Prezident İlham Əliyevin beynəlxalq müstəvidə nüfuzunu, milli maraqlarımıza əsaslanan qətiyyətli və prinsipial mövqeyini bir daha təsdiq etdi. Dövlət suverenliyimizin tam bərpa olunduğu bir şəraitdə ölkəmizin bütün ərazisində keçirilmiş builki prezident və parlament seçkiləri xalqımızın iradəsini, Prezident İlham Əliyevə ardıcıl dəstəyini, etimad və inamını bir daha nümayiş etdirdi. Hər iki seçkinin nəticələri vahid dövlət siyasətinin bundan sonra da uğurla davam etdirilməsinə təminat vermiş oldu.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, 2025-ci ilin dövlət büdcəsi, hər şeydən əvvəl, möhtərəm Prezidentimizin müəyyən etdiyi strateji vəzifələri və təşəbbüsləri, yeni dövrün çağırışlarını, milli iqtisadiyyatımızın artım və inkişaf meyillərini, milli inkişaf prioritetlərindən irəli gələn sosial-iqtisadi hədəfləri aydın bir şəkildə əks etdirir və bunların hər birinin reallaşdırılması üçün maliyyə təminatı yaradır. Məlum olduğu kimi, milli iqtisadiyyatımız və dövlət büdcəsi bir qayda olaraq qlobal iqtisadi trendlərin təsirinə məruz qalır. Aparıcı iqtisadiyyatlarda həyata keçirilən sərt monetar siyasət, davam edən geosiyasi münaqişələr fonunda qlobal iqtisadi artım həm 2024-cü, həm də 2025-ci ildə 3,2 faiz proqnozlaşdırılır. Dünya qiymət indekslərinin təhlili qlobal inflyasiya təzyiqlərinin cari ildə olduğu kimi növbəti ildə də azalacağı ehtimalını yaradır. Dünya iqtisadiyyatında artımı stimullaşdıran tədbirlərin həyata keçiriləcəyi gözlənilir. Qeyd olunanları nəzərə alaraq, milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın yaratdığı imkanlardan faydalanmalı, qlobal riskləri isə neytrallaşdırmalıdır. Hesab edirik ki, ölkəmiz mümkün konyuktur risklərdən sığortalanmaq üçün müvafiq "təhlükəsizlik yastığı"na malikdir.

Qlobal iqtisadiyyatdakı geosiyasi amillərdən doğan qeyri-müəyyənliklər fonunda növbəti ilin dövlət büdcəsi bir sıra makroiqtisadi göstəricilərlə dəstəklənir. Belə ki, ölkənin strateji valyuta ehtiyatları 73 mlrd. dollar təşkil edir ki, bu da cari ilin sonuna gözlənilən ÜDM-in (124,4 mlrd. manat və ya 73,2 mlrd. dollar) həcminə bərabər ol-




maqla 5,3 mlrd. dollar təşkil edən birbaşa xarici dövlət borcumuzu təxminən 14 dəfə üstələyir. Qeyd edək ki, 2024-cü ilin 10 ayında müşahidə olunan müsbət makroiqtisadi meyillər 2025-ci il üzrə proqnozlar üçün pozitiv əsaslar yaradır. Proqnozlara görə, növbəti ildə ÜDM 3,5 faiz, qeyri-neft-qaz ÜDM-i isə 4,9 faiz artacaq. ÜDM-də qeyri-neft-qaz sektorunun payının 68 faizdən 71,3 faizə çatacağı gözlənilir. Bu meyil iqtisadiyyatda struktur dəyişikliklərinin davam etməsini göstərir. Adambaşına ÜDM-in 2025-ci ildə 7412 dollar təşkil edəcəyi proqnozlaşdırılır. Bu isə beynəlxalq təsnifatda Azərbaycanın yuxarı orta gəlirli ölkələr qrupunda öz yerini qoruyub saxlaması və daha da möhkəmləndirməsi deməkdir.

Növbəti il üçün inflyasiyanın səviyyəsi 4,6 faiz proqnozlaşdırılır. Mərkəzi Bankın hədəf diapazonu daxilində olan inflyasiya səviyyəsi bir tərəfdən sabit məzənnə rejimi ilə, digər tərəfdən də adekvat monetar siyasətlə dəstəklənir. Beləliklə, makroiqtisadi göstəricilərlə dəstəklənən 2025-ci ilin dövlət büdcəsi layihəsinin əsas parametrləri hansılardır? Büdcə gəlirlərimiz 38,4 mlrd. manat proqnozlaşdırılır ki, bu da 2024-cü ilin proqnozu ilə müqayisədə 5,4 faiz çoxdur. Xərclər isə 41,4 mlrd. manat olmaqla, cari ilin proqnozu ilə müqayisədə 4,2 faiz çox planlaşdırılır. Büdcə kəsirinin 3052 mln. manat olacağı gözlənilir. Bu isə ÜDM-in 2,4 faizini təşkil edir. 2025-ci ilin dövlət büdcəsi xərclərinin 60,1 faizini cari xərclər, 34,1 faizini əsaslı xərclər, 5,8 faizini dövlət borcuna xidmətlə bağlı xərclər təşkil edir. Cari və əsaslı xərclərin nisbətini sosial rifahla iqtisadi artımın balanslaşdırılması baxımından rasional və məqsədəuyğun hesab edirik. Sadəcə, cari xərclərin tamamilə, yəni 100 faizinin qeyri-neft gəlirləri hesabına maliyyələşdirilməsinə nail olmalıyıq. Hazırda bu göstərici 79 faiz təşkil edir.

Ötən illərdə olduğu kimi 2025-ci ildə də büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı olacaqdır. Sosial yönümlü xərclərin 8,8 faiz artırılaraq 16,9 mlrd. manata çatması və dövlət büdcəsi xərclərinin 41 faizini təşkil etməsi sosial siyasətin prioritetliyini ifadə edir. Büdcə zərfinə daxil olan sosial paketin təhlili göstərir ki, şəhid ailələrinin, qazilərin və müharibə veteranlarının sosial müdafiəsi sahəsində dövlət siyasəti, onlara dövlətin diqqət və qayğısı növbəti ildə də davam etdiriləcəkdir.

Eyni zamanda, çoxşaxəli artımları nəzərdə tutan sosial tədbirlər paketi həyata keçiriləcək. Gələn il minimum əməkhaqqının və minimum pensiyanın artırılması, eyni zamanda, sosial müavinətlər və təqaüdlər istiqamətində addımların atılması, pensiyaların indeksləşdirilməsi planlaşdırılır. Ümumilikdə, sosial paket 3 milyon insanı əhatə edəcəkdir.

Əhalinin rifahı ilə bağlı dövlət siyasəti özünü büdcənin təkcə sosial deyil, digər xərc istiqamətlərində də büruzə verir. Məsələn, iqtisadi fəaliyyətlə bağlı xərclərdə bir sıra dövlət şirkətlərinə subsidiyaların nəzərdə tutulmasının əsas səbəblərindən biri vətəndaşlara



göstərilən bəzi xidmətlərin tariflərinin aşağı həddə saxlanılmasıdır. Dövlətin vətəndaşa dəstəyi və qayğısı əhalinin həssas sosial qrupları üçün ümumi məbləği 591 mln. manatdan çox olan vergi güzəştlərində də ifadə olunur. Ötən illər ərzində ölkəmizdə sosial və iqtisadi siyasətin əlaqələndirilməsi və uzlaşdırılması Prezident İlham Əliyevin müəyyən etdiyi əsas prinsip olaraq uğurlu şəkildə həyata keçirilmişdir. Bunun nəticəsidir ki, 2003-2023-cü illər ərzində dövlət büdcəsi xərclərinin təxminən 30 dəfə, ÜDM-in real ifadədə 3,6 dəfə, investisiyaların 4,4 dəfə artımı fonunda Azərbaycanda yoxsulluğun səviyyəsi 44,7 faizdən 5,2 faizə, işsizliyin səviyyəsi 9,2 faizdən 5,5 faizə endirilmişdir. Büdcə layihəsi və müvafiq proqnozlar hazırlanarkən 2022-2026-cı illərdə sosial-iqtisadi İnkişaf Strategiyasında müəyyən edilmiş məqsədlər və hədəflər nəzərə alınmışdır. 2025-ci ilin dövlət büdcəsi layihəsində iqtisadi strategiyanın icrası üçün 2,5 mlrd. manat vəsait nəzərdə tutulmuşdur. Dövlət büdcəsi iqtisadi strategiyanın reallaşmasına maliyyə təminatı yaratdığı kimi, inanırıq ki, iqtisadi strategiyanın icrası da iqtisadi artıma, investisiya fəallığına töhfə verməklə büdcənin dayanıqlığını dəstəkləyəcəkdir.

Postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işləri əsas prioritetlərdəndir. Növbəti ilin dövlət büdcəsində bu məqsədlər üçün 4 milyard manat nəzərdə tutulub. Bu vəsait ortamüddətli dövrdə iqtisadi artıma, qeyri-neft iqtisadiyyatının inkişafına, məşğulluğa öz töhfəsini verəcəkdir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, gələn ilin dövlət büdcəsi artım dinamikasına malik olan büdcədir. Təkcə onu qeyd etmək kifayətdir ki, növbəti il üçün proqnozlaşdırılan büdcə xərcləri 2003-cü illə müqayisədə 34 dəfə çoxdur. Bir daha xatırladaq ki, Vətən müharibəsində təkcə müzəffər ordumuz, qəhrəman əsgərimiz və hərbi texnikamız döyüşmürdü. Düşmənlə döyüşən həm də milli iqtisadiyyatımız, büdcəmiz idi. Bu kontekstdə bəzi müqayisələr aparaq. 2025-ci il üçün gözlənilən büdcə xərclərimiz 24,3 mlrd. dollar olmaqla Ermənistanın və qonşu Gürcüstanın birlikdə büdcə xərclərinin cəmindən, yəni 18,8 mlrd. dollardan nə az, nə çox 1,3 dəfə çoxdur.

Azərbaycanın növbəti il üzrə proqnozlaşdırılan 19,5 mlrd. manatlıq və ya 11,5 mlrd. dollarlıq qeyri-neft büdcəsi də, sosial yönümlü xərclərdən ibarət olan, məbləğcə 16,9 milyard manat və ya təxminən 10 milyard dollar təşkil edən sosial büdcəsi də Ermənistanın 2025-ci il üçün planlaşdırdığı büdcə gəlirlərini 30-50 faiz üstələyir. Hətta Dövlət Neft Fondunun transfertləri nəzərə alınmasa belə, büdcə gəlirlərimiz artım dinamikasına malikdir. Belə ki, transfertsiz büdcə gəlirləri 2023-cü ildə 23,5 mlrd. manat, 2024-cü ildə 23,6 mlrd. manat olduğu halda, 2025-ci ildə 23,8 mlrd. manat proqnozlaşdırılır.

Dövlət büdcəsi ilə bağlı bugünkü reallıqlar və çağırışlar nədən ibarətdir? Hazırda Azərbaycanın qeyri-standart və unikal bir dövr yaşadığını, dövlətimizin bir çox

strateji hədəf və təşəbbüsləri bir arada, paralel olaraq və zaman itirmədən həyata keçirməyə çalışdığını görürük. Azərbaycan dövləti fikrimizcə indiyə kimi icrası eyni vaxtda üst-üstə düşən bu qədər strateji, təxirəsalınmaz və geniş miqyaslı tədbirlərin reallaşdırılması zərurəti ilə üzləşməmişdir. Bir çox ölkələr maliyyə ehtiyaclarının artdığı bir şəraitdə büdcə qaydalarını ya yumşaldır, ya da, ümumiyyətlə, dayandırır. Lakin hökumət bütün maliyyə ehtiyaclarını əsasən öz daxili resursları hesabına qarşılasa da və çoxşaxəli büdcə xərcləmələrinə getsə də, büdcə qaydalarından heç də imtina etmir. Əksinə, ortamüddətli dövr üçün 2 parametrdən ibarət büdcə qaydası tətbiq edilir.

2025-ci ilin dövlət büdcəsi layihəsi tərtib edilərkən neftin qiyməti 70 dollar götürülüb. Təbii ki, neftin qiymətinin qlobal iqtisadi və geosiyasi dəyişikliklərə həssaslığını inkar etmək olmaz. Lakin xatırlatmaq istərdik ki, vaxtilə neftin büdcə qiyməti ayrı-ayrı dövrlərdə 25-50 dollar arasında müxtəlif proqnozlara əsaslanıb. Bununla belə, ötən illər ərzində dövlətimiz, iqtisadiyyatımız və maliyyə sistemimiz stress-testlərdən, ciddi sınaqlardan uğurla çıxmışdır. Hesab edirik ki, yeni çağırışlar fonunda milli iqtisadiyyatımızın istifadə edilməmiş imkanları və resursları hesabına potensial riskləri neytrallaşdırmaq mümkündür.

2025-ci ilin büdcə zərfinə əsasən Dövlət Neft Fondundan dövlət büdcəsinə ayrılan transfertlər artırılaraq 14,481 mln. manat nəzərdə tutulur. Transfertlərlə bağlı birmənalı qəbul etmədiyimiz bəzi fikirlər səslənməkdədir. Sanki gələcək nəsillərə neft dollarları saxlanılmır və büdcə qaydasından kənarlaşmalara yol verilir. Sadəcə, onu vurğulamaq lazımdır ki, hazırda Dövlət Neft Fondunun aktivləri 61,3 milyard dollar təşkil etməklə ölkəmizin güclü maliyyə dayaqlarına malik olduğunu göstərir. Eyni zamanda, Fond öz əsas missiyasını yerinə yetirməkdə davam edir. Doğrudur, transfertin məbləği 1,7 mlrd. manat və ya 13,3 faiz artır. Lakin onun dövlət büdcəsi gəlirlərindəki payı 2020-ci ildəki 49,4 faizdən 2025-ci ildə 37,8 faizə kimi azalacaqdır.

Dövlətimiz neft gəlirlərini gələcək üçün qoruyub saxlamaqla yanaşı, həm də sonrakı nəsillərə köklü problemləri, böyük məbləğdə borc yükü olmayan, təhlükəsiz, güclü və dayanıqlı Azərbaycan dövləti miras qoymaq niyyətindədir. Belə bir yanaşma gələcək nəsillər naminə neft gəlirlərinin qorunması ilə dövlətimizin indiki strateji ehtiyaclarının qarşılanması arasında balansı əks etdirir.

2025-ci ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə 8,4 milyard manat nəzərdə tutulmuşdur ki, bu da 2024-cü illə müqayisədə 17,8 faiz çoxdur. Bu cür artımlar bir tə-





rəfdən günün reallıqlarını və ölkəmizin təhlükəsiz gələcəyini diktə edir, digər tərəfdən isə Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi özünün iqtisadi və hərbi gücü ilə regionda təhlükəsizliyin, sülh və sabitliyin qorunması missiyasını yerinə yetirir.

Reallıq bundan ibarətdir ki, müdafiə xərclərinin artımı ölkəmizin hüdudlarından kənarda bir çoxlarını narahat edir. Bəzi dairələr növbəti haqsızlığı edərək Azərbaycanı indi də militarist büdcə siyasəti həyata keçirməkdə ittiham edirlər. Bu əsassız və qərəzli fikirlərlə bağlı bəzi məqamları qeyd etməyi vacib bilirik. Müdafiə xərclərinin artırılması öz-özlüyündə ölkənin militarist büdcəyə sahib olduğu anlamına gəlmir. Azərbaycan hərbi xərclərini artırmaqla yanaşı, digər sosial və infrastruktur xərclərini məhdudlaşdırmır. Başqa sözlə, hərbi xərclərin artırılması digər mühüm istiqamətlər üzrə xərc artımı fonunda baş verir. Hərbi xərclər büdcə məxaricinin 20,3 faizini təşkil etdiyi halda, təkcə sosial yönümlü xərclər 41 faizini, iqtisadi fəaliyyətlə bağlı xərclər 21 faizini təşkil edir. Göründüyü kimi, ölkəmizin büdcə xərclərində ən yüksək paya malik olan heç də müdafiə xərcləri deyil.

İqtisadiyyatın və o cümlədən büdcənin hərbiləşdirilməsi meyilləri ara-sıra revanşizm avantürasına yuvarlanan məğlub ölkə üçün daha xarakterikdir. Belə ki, bu ölkədə hərbi xərclər 2022-ci ildə 795 mln. dollar təşkil etdiyi halda, bu rəqəm 2023-cü ildə təxminən 70 faiz artaraq 1330 mln. dollara çatmışdır. İşsizlik səviyyəsi 12 faizə, yoxsulluq səviyyəsi 24 faizə, xarici borc yükü ÜDM-in 54 faizinə çatan, 15 ildən çoxdur ki, davamlı olaraq kəskin demoqrafik böhran yaşayan, 2025-ci ilin dövlət büdcəsi layihəsində 1,6 milyard dollar həcmində kəsr proqnozlaşdıran Ermənistanda hərbi xərclərin təkcə bir il ərzində 70 faiz kəskin artırılması militarizmin və militarist büdcənin bariz nümunəsidir.

Bu gün Azərbaycanın müdafiə qabiliyyətinin gücləndirilməsi müasir müdafiə sənayesinin for-






malaşdırılması ilə tamamlanır. Bu sahənin inkişafını milli sənayenin yeni və perspektivli sütunlarından birinin təşəkkülü kimi qəbul etməliyik. İqtisadi sistemi bazar münasibətlərinə əsaslanan ölkəmizdə sosial rifah, iqtisadi artım, investisiya qoyuluşu təkcə büdcə xərcləri hesabına təmin edilməməlidir. Özəl sektorun sosial-iqtisadi inkişafa töhfəsi daha da artmalı, dövlət-özəl tərəfdaşlığı genişləndirilməlidir. Qeyd edək ki, özəl sektorun dövlətin güclü tərəf-müqabilinə çevrilməsindən ötrü hər il büdcə zərfinə daxil olan layihələrdə sahibkarlıq fəaliyyəti üçün təşviq və güzəştlər, subsidiyalar nəzərdə tutulur. İnanırıq ki, bu tədbirlər iqtisadi şaxələndirmə prosesinə və yeni iqtisadi artım mənbələrinin aşkar edilməsinə öz töhfəsini verəcəkdir. Dövlətin funksiyalarının həyata keçirilməsi üçün resurs bazasının yaradılması nə qədər vacibdirsə, bu resurslardan səmərəli və qənaətlə istifadə edilməsi də bir o qədər önəmlidir. Artan maliyyə ehtiyacları və məhdud resurslar şəraitində bu, xüsusilə aktualdır. İndiyə kimi sahibkarlığın dəstəklənməsinə yönəldilmiş dövlət siyasətinin nəticəsidir ki, 2023-cü ildə özəl sektorun payı ÜDM-də və sənaye istehsalında 83 faizə, əhalinin məşğulluğunda 79 faizə, xidmət sektorunda 73 faizə, kənd təsərrüfatında isə 99,8 faizə çatmışdır.



Ümumiləşdirərək xarakterizə etsək, 2025-ci ilin büdcə zərfi əlverişli makroiqtisadi proqnozlara əsaslanır, makroiqtisadi sabitlikdən təsirləndiyi kimi, həm də ona xələl gətirmir, büdcə dayanıqlığının təmin edilməsindən ötrü fiskal və qeyri-fiskal tədbirlər nəzərdə tutur, davamlı iqtisadi artım üçün təşviq və güzəştlər təklif edir. 2025-ci ilin dövlət büdcəsi ölkəmizin iqtisadi inkişafına, sosial rifahına və milli maraqlarımıza xidmət edir, növbəti ildə dövlətin funksiyalarının, möhtərəm Prezidentimiz tərəfindən müəyyən edilmiş mühüm strateji vəzifələrin həyata keçirilməsi üçün müvafiq maliyyə təminatı yaradır.

İndi qarşımızda dayanan əsas vəzifə ərazi bütövlüyümüzü və dövlət suverenliyimizi xalqımızın milli və müqəddəs sərvəti kimi qorumaqdan, onun iqtisadi və maliyyə əsaslarını möhkəmləndirməkdən ibarətdir. Tam əminliklə deyə bilərik ki, dövlətimizin siyasi, iqtisadi və hərbi gücünü əks etdirən 2025-ci ilin dövlət büdcəsi bu missiyanı da uğurla yerinə yetirəcəkdir.

















# Milli Məclis hibrid təhdidlərlə mübarizəyə qətiyyətli dəstək verir



**Ramid Namazov**
Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının sədri

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərimizdən və ötən il suverenliyimizin tam bərpa edilməsindən sonra regiondakı geosiyasi konfiqurasiya tamamilə dəyişmiş, yeni forma almışdır.

Cənubi Qafqaz regionunda sülh, əməkdaşlıq və çiçəklənmə üçün münbit şəraitin olduğu bir zamanda Azərbaycan Respublikası yenə də ədalətsiz şəkildə təhdidlərlə üzləşir. Ermənistanın 30 ildən çox davam edən hərbi işğalını, bizə qarşı apardığı hibrid müharibəsini və yüz minlərlə azərbaycanlının pozulmuş hüquqlarını görməzdən gələn qüvvələr bu dəfə dünya erməniləri ilə əlaqələndirilmiş şəkildə Azərbaycana qarşı hibrid təhdidlər həyata keçirirlər.

Ölkə başçısı İlham Əliyev 2024-cü il iyulun 20-də 2-ci Şuşa Qlobal Media Forumunda "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusundakı çıxışında və sentyabrın 23-də VII çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında bir çox mövzulara toxunaraq Azərbaycanın şanlı qələbəsindən sonra dövlətimizin üzləşdiyi real və potensial təhdidlər barədə də ətraflı danışmışdır. "Bizim qələbəmizi həzm edə bilməyən xarici dairələr

bizə qarşı yeni planlar hazırlayır. Bu barədə geniş danışmağa ehtiyac yoxdur. Ancaq əldə edilmiş məlumatlar bunu göstərir. Media kampaniyasının, qarayaxma, iftira, böhtan kampaniyalarının da məqsədi məhz budur - bu mövzunu daim gündəlikdə saxlamaq və ümidlə yaşamaq ki, nə vaxtsa Azərbaycan büdrəsə, zəifləsə, yenidən bizə qarşı bu çirkin hərəkətlər başlasın. Yəni biz bunu bilməliyik. Azərbaycan iqtidarı bunu bilir, ictimaiyyət də bunu bilməlidir. Ona görə bizim arxayınlaşmağa heç cür haqqımız yoxdur" - deyən Azərbaycan Prezidenti dövlətimizin hər bir fərdinin qarşısında duran əsas vəzifələrdən birinə toxunmuşdur.

Azərbaycan Respublikasının Milli Məclisi ölkəmizin inkişafı və təhlükəsizliyi naminə Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və müdrik siyasətinə, onun yorulmaz fəaliyyətinə daim dəstək vermişdir. Bu dəstəyin davamı kimi və Azərbaycan Respublikası Konstitusiyasının Milli Məclisə həvalə etdiyi səlahiyyətlərə uyğun olaraq Azərbaycan xalqına və onun milli-mənəvi dəyərlərinə, dövlətimizin bütövlüyü, təhlükəsizliyi, iqtisadi inkişafı, beynəlxalq nüfuzu, qanunları və digər vacib sahələrə təhdid yaradan hallara qarşı Milli Məclisin qərarı ilə 2024-cü il sentyabrın 30-da VII çağırış ərzində fəaliyyət göstərəcək Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiya yaradılmışdır. Komissiyanın vəzifə və səlahiyyətləri sırasına bir çox məsələlər, o cümlədən xarici müdaxilələrin və hibrid təhdidlərin müəyyən edilməsi və onların qarşısını almaq məqsədilə təkliflərin hazırlanması, bu cür təhlükələrlə mübarizə sahəsində Milli Məclisin digər komitələri, aidiyyəti icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları ilə koordinasiyalı formada fəaliyyət göstərmək, beynəlxalq əməkdaşlıqda iştirak etmək daxildir.

2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərimizdən və ötən il suverenliyimizin tam bərpa edilməsindən sonra ölkəmiz sistemli və mütəşəkkil qaydada hibrid təhdidlərin bir neçə forması ilə üzləşdi. 2023-cü il dekabrın 11-də COP29 konfransının Azərbaycanda keçiriləcəyi qərarı verilən gündən isə respublikamıza qarşı aparılan informasiya əməliyyatları daha da kəskin hal aldı.

Yeri gəlmişkən, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında qazanılan qələbələr sayəsində 30 ildən çox Azərbaycan torpaqlarında hibrid müharibənin əsas elementi kimi fəaliyyət göstərən xunta rejiminin və qeyri-qanuni hərbi birləşmələrin ləğv edilməsi məkrli qüvvələri ölkəmizə qarşı apardıqları hibrid müharibəni hibrid təhdidlə əvəzləməyə vadar etdi.

NATO, Avropa İttifaqı, Hibrid Təhdidlərlə Mübarizə üzrə Avropa Mükəmməllik Mərkəzi, digər təşkilat və təsisatların hibrid təhdid anlayışına nəzər saldıqda, demək olar ki, hamısının oxşar anlayış verdiklərini görürük.

Hibrid təhdidlər dövlətlərin və "maraqlı" qüvvələrin müharibə elan etmədən öz (strateji) məqsədlərinə çatmaq üçün hədəf ölkəyə qarşı istifadə etdikləri qanunsuz fəaliyyətləri nəzərdə tutur. Bu zaman hibrid təhdid növlərindən biri və ya bir neçəsi seçilərək mütəşəkkil qaydada əlaqələndirilmiş şəkildə fəaliyyət aparılır. Hibrid təhdidlərə dezinformasiya kampaniyalarını, kiberhücumları, iqtisadi və diplomatik təzyiq alətlərini, gizli siyasi manevrləri, casusluğu, seçkilərə müdaxiləni, kritik (vacib) infrastrukturun sabotajını, zərərli ideologiyaların yayılmasını, din pərdəsi altında aparılan fəaliyyətləri, qeyri-qanuni hərbi birləşmələrin yaradılmasını, hüquqi vasitələrdən silah kimi istifadəni, qanunsuz miqrasiyanı və digər fəaliyyətləri şamil etmək olar.

Hibrid təhdidin növləri kimi, onlardan qorunmağın da özünəməxsus yolları olur və hər bir ölkədə bu təhlükələr fərqli şəkildə tətbiq edilə bilir. Həmçinin belə təhdidlərin mürəkkəbliyi onlara qarşı mübarizəni çətinləşdirir. Çünki bu, hərbi, kəşfiyyat, diplomatik və informasiya əməliyyatlarını birləşdirən hərtərəfli bir cavab tələb edir.





Xarici müdaxilə və hibrid təhdidlərin təsir etdiyi sahələrə və son məqsədlərinə xüsusilə diqqət yetirmək lazımdır. Fikrimizcə, Ermənistan və havadarlarının, erməni lobbisi və onlar qədər bizi sevməyən bəzi qüvvələrin Azərbaycanda müdaxilə etmək istədikləri sahələr əsasən dövlətin təhlükəsizliyi, iqtisadi müstəqilliyi, qanunları, milli-mənəvi, dini və multikultural dəyərləri, vətəndaşlarımız arasında mövcud olan birlik və ölkənin beynəlxalq imicidir.

Hibrid təhdidlər cəmiyyətə bütün səviyyələrdə təsir etdiyi üçün rəqiblərimiz durmadan insanlarımızın düşüncələrinə müdaxilə etmək, milli və iqtisadi təhlükəsizliyimizə risklər yaratmaq məqsədilə müxtəlif vasitələrdən istifadə edirlər. Yalanı doğru kimi təqdim etməklə, saxta hekayələr yaymaqla ictimai rəyi çaşdırmağa, cəmiyyətdəki mövcud vəhdəti sarsıtmağa və qütbləşmə yaratmağa hesablanan bu hərəkətlərdən vətəndaşlarımız vaxtında agah olmalıdırlar.

Koordinasiya edilmiş fəaliyyətlər aparılarkən bir çox qarışıq alətlərdən istifadə olunduğu üçün fərdi şəkildə baş verən hansısa hadisənin geniş bir kampaniyanın tərkib hissəsi olduğunu müəyyən etmək və ona vaxtında cavab vermək çox zaman asan olmur. Bunları nəzərə alaraq, qalib xalq kimi qarşımızda duran bütün təhdid və çağırışlara hazır olmalıyıq.

Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiya ilə bağlı qeyd etmək lazımdır ki, bu, Azərbaycan Milli Məclisinin tarixində bir ilkdir. Eyni zamanda, coğrafiyamızda yerləşən ölkələrin heç birinin qanunvericilik hakimiyyəti orqanında konkret bu sahə ilə məşğul olan struktur yoxdur.

Komissiyanın yeni yaranmasına baxmayaraq, üç aylıq fəaliyyəti müddətində bir sıra mühüm işlərin görüldüyünü demək olar. Artıq qeyd edildiyi kimi, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi qərarı verildiyi gündən ölkəmizə qarşı informasiya əməliyyatları kəskin hal aldı. Kampaniyanın getdikcə əlaqələndirilmiş formada aparılaraq kütləviləşməsi səbəbindən Azərbaycan Respublikası Milli Məclisinin sədri xanım Sahibə Qafarovanın tapşırığı ilə Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası öz səlahiy-



yətləri çərçivəsində araşdırmalara başladı. Araşdırmaların nəticəsi olaraq oktyabrın 21-də “COP29-a qarşı hibrid təhdidlər” mövzusunda Milli Məclisin deputatlarının, vətəndaş cəmiyyəti nümayəndələrinin, beyin mərkəzləri təmsilçilərinin, hibrid təhdidlər və kibertəhlükəsizlik üzrə ekspertlərin iştirakı ilə ictimai müzakirə keçirildi və məsələ ətrafında geniş fikir mübadiləsi aparıldı. Qısa müddət sonra isə həmin müzakirənin yekunları və açıq mənbələrdən əldə edilən məlumatların təhlili əsasında 2024-cü ilin noyabrında Azərbaycan və ingilis dillərində “COP29-a qarşı hibrid hücumlar: Cəmiyyətimiz hibrid təhdidlərin qurbanı olmamalıdır!” adlı xüsusi hesabat hazırlandı. Burada Azərbaycana qarşı istifadə olunan hibrid təhdidlərin dezinformasiya, habelə hüquq və müharibə terminlərinin kombinasiyasından yaranmış “Lawfare” növləri təhlil edilərək onların haradan və kimlər vasitəsilə təşkil olunduğu sübuta yetirildi. Hesabatda dövlətimizə qarşı hibrid hücum alətləri kimi istifadə olunan parlamentlər, müəyyən ölkələrin maliyyə və siyasi dəstəyi əsasında konkret sifarişlər yerinə yetirən bir sıra beynəlxalq insan hüquqları təşkilatları müəyyən edilərək ifşa olundu.

**Hibrid təhdidlər cəmiyyətə bütün səviyyələrdə təsir etdiyi üçün rəqiblərimiz durmadan insanlarımızın düşüncələrinə müdaxilə etmək, milli və iqtisadi təhlükəsizliyimizə risklər yaratmaq məqsədilə müxtəlif vasitələrdən istifadə edirlər. Yalanı doğru kimi təqdim etməklə, saxta hekayələr yaymaqla ictimai rəyi çaşdırmağa, cəmiyyətdəki mövcud vəhdəti sarsıtmağa və qütbləşmə yaratmağa hesablanan bu hərəkətlərdən vətəndaşlarımız vaxtında agah olmalıdırlar.**

Bundan əlavə, ötən müddət ərzində Milli Məclis sədrinin göstərişi əsasında komissiya tərəfindən Azərbaycana qarşı həyata keçirilən müxtəlif hibrid hücumların qarşısının alınması ilə əlaqədar digər dövlət qurumları ilə birgə iş aparılıb, hücumların məqsədi, hədəfləri və mexanizmləri ilə bağlı müvafiq açıqlamalar verilib. Hazırda da ölkəmizin üzləşdiyi digər hibrid təhdid növləri üzrə dərin və hərtərəfli təhlillər aparılır, lazımi hesabatlar üzərində iş gedir.

Azərbaycan Respublikasının Milli Məclisi öz səlahiyyətləri çərçivəsində dövlətimizin təhlükəsizliyinə, inkişafına, qüdrətinə, xalqımızın birliyinə, milli-mənəvi dəyərlərimizə və digər vacib sahələrə təhdid yaradan və ya gözlənilən bütün təhlükələri dəf etmək üçün bundan sonra da bütün gücünü səfərbər edəcək, həm icraedici, həm də məhkəmə hakimiyyəti ilə əlaqələndirilmiş şəkildə xarici müdaxilələrə və hibrid təhdidlərlə mübarizəyə öz qətiyyətli dəstəyini verəcəkdir.






# Ağdam şəhərinin azad edilməsi Zəfər tariximizin şanlı səhifəsidir



**Bəxtiyar Əliyev**
Milli Məclisin deputatı

Azərbaycan Prezidenti İlham Əliyevin 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edildi və 20 noyabr Ağdam Şəhəri Günü kimi müəyyən olundu. Bu tarixi rəmzi olaraq azad Ağdamın dirçəliş günü də adlandırmaq olar.

Ağdam Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. Arxeoloji tədqiqatlar nəticəsində müəyyən edilib ki, ilk qədim insanlar rayon ərazisində altı-səkkiz min il bundan əvvəl, yəni Eneolit dövründə (e.ə. IV-VI minillik) yaşamış, yerli əhali oturaq həyat tərzi keçirmiş və yüksək əkinçilik mədəniyyətinə malik olmuşdur. Ağdamda Üzərriktəpədə aparılan arxeoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, bura Qafqazda ilk şəhər tipli yaşayış məskəni olmuşdur.

Ağdam sonrakı dövrlərdə də sürətlə inkişaf etmişdir, lakin intibah dövrünü yaşayan Ağdam rayonu Ermənistan tərəfindən 1993-cü ildə işğala məruz qaldı. Ağdamın müdafiəsi uğrunda vuruşan ağdamlılardan 6 min nəfərdən çoxu 1993-cü il iyulun 23-ə kimi davam edən şiddətli döyüşlərdə şəhid oldu, minlərlə insan yaralandı. Buna baxmayaraq, 1094 kvadrat kilometr ərazisi olan Ağdamın şəhər mərkəzi və 90 kəndi də daxil olmaqla 882 kvadrat kilometri, yəni 73 faizi işğal edildi. İşğal nəticəsində 164 min



insan etnik təmizləməyə məruz qaldı və öz doğma ev-eşiyindən qovularaq məcburi köçkün kimi Azərbaycanın 59 rayonunun 875 yaşayış məntəqəsində məskunlaşdı. Rayonun 38 kolxozu, 23 sənaye obyekti, 74 məktəbi, 271 mədəniyyət evi, bütün dünyada yeganə olan Ağdam Çörək Muzeyi, 67 idarə və təşkilatı, 99 klubu düşmən əlinə keçərək məhv edildi.

1993-cü il iyulun 29-da BMT Təhlükəsizlik Şurası 853 saylı qətnamə qəbul etdi və işğalçı qüvvələrin Ağdam rayonu və digər işğal edilmiş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edildi. ATƏT-in Minsk qrupunun 9 ölkəsi adından da bu hücum qətiyyətlə pisləndi, işğal olunmuş ərazilərdən qoşunların çıxarılmasına çağırış edildi. İşğalçı Ermənistan bu qərarları yerinə yetirməkdən yayındı və bu işdə ona Minsk qrupu həmsədrləri dəstək oldular. İşğalçıya qarşı heç bir sanksiya tətbiq edilmədi, əksinə, Ermənistana maliyyə yardımları həmin dövlətlər tərəfindən gücləndirildi.

İşğalçı Ermənistan Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq Ağdam rayonunda coğrafi adların dəyişdirilməsi, oradakı mülkiyyətin talan edilməsi, tarixi abidələrin, qəbiristanlıqların və ərazilərin yandırılması kimi qeyri-qanuni əməllər törətdi. Ermənistanın işğal etdiyi rayonların azərbaycanlı əhalisinə qarşı soyqırımı və etnik təmizləmə siyasəti həyata keçirməsi bu dövlətin əsl niyyətinin hərbi təcavüz və işğal yolu ilə ərazi əldə edilməsi olduğunu üzə çıxardı. Bu işğala göz yumanlar işğalçının yanında oldular.

Sülh danışıqlarını imitasiya edən işğalçı Ermənistan Azərbaycana qarşı hərbi təxribatlarını artıraraq yeni ərazilər işğal etmək istəyini gizlətmirdi. 2020-ci il sentyabrın 27-də Ermənistan yenidən Azərbaycana hücum etdi. Kəndlərimizi və döyüş mövqelərimizi intensiv atəşə tutması dinc əhali arasında itkilərə səbəb oldu. Ali Baş Komandan İlham Əliyev əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə şanlı ordumuza əks-hücum əmri verdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və Azərbaycanın rəşadətli ordusunun gücü ilə 44 günlük Vətən müharibəsində döyüş meydanında düşməni məğlub etdi, Ermənistan üzərində tam və qəti qələbə çalaraq Zəfər tariximizi yazdı. Kapitulyasiya aktını imzalamağa məcbur olan Ermənistan işğal etdiyi Laçın, Kəlbəcər və Ağdam rayonlarını bir güllə belə atılmadan geri qaytardı. Azərbaycan dövləti BMT TŞ-nin 4 qətnaməsini özü icra edərək torpaqlarımızı düşmən tapdağından







azad etdi. Beləliklə, 850 min azərbaycanlı məcburi köçkünün öz doğma yurdunda yaşamaq hüququ və bölgədə sülh təmin olundu. Bu, tarixdə ilk hadisə idi ki, dövlət öz gücü hesabına BMT TŞ kimi nüfuzlu bir qurumun qətnaməsini icra edirdi.

2020-ci il noyabrın 23-də müzəffər Ali Baş Komandan İlham Əliyev Ağdam şəhərinə səfəri zamanı Cümə Məscidinin qarşısında üçrəngli Dövlət Bayrağını ucaltdı. Məscidi ziyarət etdi və onun bərpası üçün müvafiq tapşırıqlar verdi. Bu tarixdən etibarən Ağdamda təxirəsalınmaz tədbirlər planı həyata keçirilməyə başlanıldı. İlk növbədə Ermənistan tərəfindən dağıdılmış tarixi abidələrimiz, o cümlədən Ağdam Cümə Məscidi və "İmarət" Kompleksi qısa müddətdə yenidən quruldu.

Prezident İlham Əliyev demişdi ki, dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın.

Ölkə başçısı hər zaman dediyini etdiyi kimi Ağdamı da dünyanın ən gözəl şəhəri kimi bərpa edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il mayın 28-də Ağdam şəhərinə növbəti dəfə səfər etdi və rayon






ictimaiyyətinin nümayəndələri ilə görüş keçirdi. Görüş zamanı təsdiqlənən Ağdamın Baş Planı əsasında burada hər şey yenidən bərpa olunur. Ağdam şəhəri 100 min sakini olacaq şəhər kimi tikilir.

Ağdam şəhərində böyük infrastruktur layihələri həyata keçirilir. İşğaldan əvvəl də böyük sənaye şəhəri olduğu nəzərə alınaraq, respublikada ikinci ən böyük sənaye parkı layihəsi məhz burada gerçəkləşdirilir. Bu sənaye parkında yüksək texnologiyalar əsasında yaşıl iqtisadiyyat siyasətinə uyğun olaraq yeni sənaye müəssisələri yaradılır ki, minlərlə insan iş yeri ilə təmin edilsin.

Ağdam şəhərində müasir yaşayış məhəllələri ilə yanaşı, orta məktəblər, Ağdam Muğam Mərkəzi, iki böyük muzey, şəhər parkları, mehmanxana və istirahət mərkəzləri inşa edilir. İşğaldan azad olunmuş kəndlər də “ağıllı kənd” konsepsiyasına uyğun yenidən bərpa edilir. Prezident İlham Əliyev tərəfindən hazırda Ağdamda 12 kəndin təməli qoyulub və 3 kənddə - Kəngərli, Xıdırlı və Sarıcalıda bərpa-quruculuq işləri yekunlaşır. 2025-2026-cı illərdə Ağdam şəhərinə və kəndlərinə Böyük Qayıdış başlayacaq və bu qayıdış möhtəşəm olacaq.

Bu gün müzəffər Ali Baş Komandan Prezident İlham Əliyev işğalçı Ermənistanın “Xirosimaya çevirdiyi” Ağdamı cənnətə çevirir. Onun həyata keçirdiyi müdrik siyasət nəticəsində Azərbaycan Respublikası güclü iqtisadiyyata və orduya, yüksək beynəlxalq nüfuza malik müasir demokratik, hüquqi dövlət kimi davamlı inkişaf edir. Prezidentin siyasətini xalqımız tam dəstəkləyir və onun yanındadır. Çünki bu siyasət xalqın xoşbəxt gələcəyini təmin edir.

Cənab Prezident İlham Əliyevə Ağdamın əvvəlki vüqarını və şöhrətini özünə qaytararaq onu daha da möhtəşəm şəhər kimi qurduğuna görə bütün ağdamlılar adından öz dərin minnətdarlığımı bildirirəm.

**Qarabağ Azərbaycandır!**
**Ağdam bizimdir!**

*"Mən inanıram, tam inanıram ki, hər şey ədalət naminə dəyişəcək bizim bölgədə. Azərbaycan xalqının bu əzab-əziyyəti onun xeyrinə dəyişəcək. Və mütləq siz gələcəkdə hələ gedib öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz".*

***Heydər Əliyev, 13 sentyabr 2002-ci il***

# Qərbi Azərbaycana qayıdış: insan hüquqlarının aliliyinin və davamlı sülhün mühüm şərti kimi



**Qaya Məmmədov**
Milli Məclisin deputatı

Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi etnik təmizləmə, müharibə cinayətləri və insanlıq əleyhinə baş verən terrorçuluq əməllərinin ağır nəticələri hələ də qalmaqdadır. Öz həllini gözləyən mühüm məsələlərdən biri də Qərbi Azərbaycandan, yəni indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların qayıdış hüququnun təmin edilməsidir.

XIX əsrin əvvəllərində indiki Ermənistanda əhalinin 80 faizdən çoxunu təşkil edən azərbaycanlılar sonrakı dövrdə oradan mərhələli şəkildə zorla çıxarıldılar və artıq 1991-ci ildən sonra Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmadı. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti 1918-1920, 1948-1953 və 1987-1991-ci illərdə xüsusilə amansız və sistematik hal aldı. Azərbaycanlılara məxsus dini, mədəni abidələrin, qəbiristanlıqların əksəriyyəti dağıdıldı. Qərbi azərbaycanlıların qeyri-maddi mədəni irsi, adət-ənənələri etnik təmizləmədən ciddi zərər gördü.

Qərbi azərbaycanlılar məsələsinin miqyasının mühüm göstəricilərindən biri bu qrupun ümumi Azərbaycan əhalisinin tərkibindəki nisbətidir. Prezident İlham Əliyevin 2024-cü il iyulun 20-də 2-ci Şuşa Qlobal Media Forumunda etdiyi çıxışında bildirdiyi kimi: "Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların və onların nəsillərinin sayı bu gün Azərbaycanda milyonlarladır".

Qeyd edək ki, Rusiya imperiyasının 1897-ci ildə apardığı əhalinin siyahıya alınmasının nəticələrinə görə, Cənubi Qafqazda yaşayan azərbaycanlıların 25 faizi indiki Ermənistan ərazisində yaşamışdır. Beləliklə, hazırda Azərbaycan Respublikasının 10 milyonluq əhalisinin ən azı dörddə biri ya özü, ya da əcdadları indiki Ermənistan ərazisindən qovulmuş insanlardır. Başqa sözlə desək, Qərbi Azərbaycan məsələsi xalqımızın milli tarixi yaddaşının mühüm bir elementi olmaqla bərabər, irimiqyaslı sosial-demoqrafik faktdır.

Azərbaycan xalqının tərkib hissəsi kimi Qərbi azərbaycanlılar həmişə Azərbaycan Respublikasının ictimai, siyasi, iqtisadi və mədəni həyatında fəal iştirak etmiş, ölkənin inkişaf və tərəqqisinə öz töhfələrini vermişlər. Bununla belə, onlar zorla çıxarıldıqları doğma yurdlarına - İrəvana, Zəngəzura, Göyçəyə, Vediyə, Dərələyəzə və digər mahallara qayıtmaq arzularını daim yaşadıblar və bu istiqamətdə beynəlxalq hüquq çərçivəsində ardıcıl səylər göstərməkdədirlər.

### Beynəlxalq hüquqda qayıdış məsələsi

Beynəlxalq hüquqda insanların öz ölkələrinə geri qayıtmaq hüququ təməl insan hüquqlarından biri kimi tanınır. Bu, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 13(2)-ci maddəsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktın 12(4)-cü maddəsində öz əksini tapır. Bundan əlavə, Müharibə Dövründə Mülki Şəxslərin Mü-



dafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyası əhalinin deportasiyasını qadağan etmiş və repatriasiya hüququnu təsbit etmişdir.

BMT-nin İnsan Hüquqları Komitəsinin 27 nömrəli ümumi şərhi (1999) geri qayıtmaq hüququnun beynəlxalq hüquq çərçivəsində necə başa düşülməli olduğunu aydınlaşdırmaqla onun tətbiqi əsaslarını gücləndirmişdir. Ümumi şərh Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 12-ci maddəsi üzrə dövlətlərin öhdəliklərini dəqiq şəkildə izah edir, o cümlədən dövlətlərin əhalinin məcburi köçürülməsinə və öz ölkəsinə girişin məhdudlaşdırılmasına yol verməmələrini tələb edir. Bu, geri qayıtmaq hüququnun yalnız abstrakt bir prinsip olmadığını, həm də bütün dövlətlərin hüquqi müstəvidə tanımalı və hörmət etməli olduğu məcburi bir normanı nümayiş etdirir. Ümumi şərh qayıdış hüququnu vətənini tərk etmiş insanlarla yanaşı, onların övladlarına da şamil etməklə bu hüququn davamlı xarakterini və əhali qrupunun kollektiv hüququ kimi təsbit olunmasının əsaslarını möhkəmləndirmişdir.

Qayıdış hüququnun inkişafında xüsusilə diqqətçəkən sənədlərdən biri də BMT-nin İqtisadi və Sosial Şurası tərəfindən 2005-ci ildə qəbul olunmuş “Qaçqın və məcburi köçkünlərin ev və mülkiyyətinin restitusiyası” adlı məruzədir. Xüsusi məruzəçi Paulo Sergio Pinheironun hazırladığı və sonradan “Pinheiro prinsipləri” kimi tanınan bu məruzədə qaçqınların və məcburi köçkünlərin təkcə öz ölkələrinə abstrakt şəkildə geri qayıtmaq deyil, eyni zamanda, öz doğma məskənlərinə, evlərinə qayıtmaq və mülklərinə sahib çıxmaq hüquqları ətraflı

> “Mən bu fikirləri sizə çatdıraraq bir daha hamınıza - sizin simanızda bütün Qarabağ mahalının əhalisinə, şuşalılara, laçınlılara, kəlbəcərlilərə, ağdamlılara, füzulililərə, cəbrayıllılara, qubadlılara, zəngilanlılara, sakinləri didərgin düşən digər bölgələrin bütün əhalisinə öz hörmət və ehtiramımı bidirirəm. Əmin olun ki, sizin həyat şəraitinizlə maraqlanırıq və bundan sonra da maraqlanacağıq. Qaçqınların məskunlaşdığı ərazilərdə dəfələrlə olmuşam. Biz çalışacağıq ki, müharibə şəraitindən tezliklə qurtaraq, torpaqlarımızı geri qaytaraq, hər biriniz öz ev-eşiyinizə dönəsiniz”.
>
> **Heydər Əliyev**



şəkildə izah olunur. Bu prinsiplər zorla didərgin salınma hallarından sonra insanların doğma yurdlarına ləyaqət, təhlükəsizlik və könüllülük prinsiplərinə uyğun şəkildə repatriasiyasını təmin edən beynəlxalq hüquqi mexanizmləri daha da gücləndirir.

Bundan əlavə, BMT Baş Assambleyasının 35/124 saylı qətnaməsində qaçqınların öz ölkələrindəki evlərinə qayıtmaq hüququ xüsusi olaraq təsdiqlənmiş, BMT Təhlükəsizlik Şurasının müxtəlif regional münaqişələrlə bağlı qətnamələrində isə qaçqın və məcburi köçkünlərin könüllü, təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmaq hüququ dəfələrlə vurğulanmışdır.

Beynəlxalq məhkəmələrin presedentləri də geri qayıtmaq hüququnun beynəlxalq hüquqda məcburi xarakter daşıdığını göstərir. Beynəlxalq məhkəmə instansiyaları məcburi köçkünlərin və qaçqınların öz doğma yurdlarına dönmə hüququnu birmənalı şəkildə təsdiqləmişdir. Beləliklə, beynəlxalq məhkəmə təcrübəsi dövlətlərin istisnasız olaraq bu hüquqa ümumbəşəri bir prinsip kimi riayət etməsini tələb edir.

## Qərbi Azərbaycana qayıdış uğrunda mübarizə

Qərbi azərbaycanlılar sonuncu deportasiya dalğasının gedişində - 1989-cu ildə Azərbaycan Qaçqınlar Cəmiyyətini yaradaraq, Ermənistan tərəfindən pozulan hüquqları uğrunda mübarizəyə başladılar.

Azərbaycan Respublikası hökuməti 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıtmasından sonra Qərbi azərbaycanlıların qayıdış hüququ məsələsini ardıcıl şəkildə beynəlxalq səviyyədə qaldırmışdır. Bu məsələ həm BMT-nin müvafiq qətnamələrində, həm də keçmiş münaqişənin sülh yolu ilə tənzimlənməsi üzrə danışıqların gündəliyində yer almışdır. Prezident Heydər Əliyev 18 dekabr 1997-ci ildə imzaladığı “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” Fərmanında və 26 mart 1998-ci ildə imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” Fərmanında Ermənistandan azərbaycanlıların qovulmasına siyasi qiymət vermişdir. Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin çoxsaylı çıxış və bəyanatlarında Qərbi azərbaycanlıların qayıdış hüququ məsələsi davamlı olaraq qaldırılmışdır. Prezident İlham Əliyevin 2024-cü il sentyabrın 30-da etdiyi çıxışında vurğuladığı kimi: “Hətta işğal dövründə, 10 il, bəlkə də ondan da qabaq mən çıxışlarımda Qərbi Azərbaycanla bağlı fikirlərimi səsləndirirdim”. Başqa sözlə desək, Azərbaycan xalqı və dövləti Qərbi Azərbaycan məsələsini davamlı şəkildə gündə-



likdə saxlamışdır.

Şübhəsiz ki, Qarabağın və Şərqi Zəngəzurun azad edilməsi, ölkəmizin ərazi bütövlüyü və suverenliyimizin tam bərpa olunması haqq-ədalətin misilsiz təntənəsi kimi Qərbi azərbaycanlıların qayıdışa olan inamlarını daha da möhkəmləndirmişdir. Prezident İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasını ziyarət edərək, oradakı tarixi çıxışı Qərbi Azərbaycana qayıdış məsələsində yeni tarixi mərhələni başlatmışdır. Prezidentin çıxışındakı tövsiyələrə uyğun olaraq, bütövlükdə Azərbaycan ictimaiyyəti, o cümlədən Qərbi Azərbaycan İcması qayıdış mövzusunda səylərini daha da artırmış, bu sahədə fəaliyyət sistemli xarakter almışdır.

Qayıdış mövzusunda ən mühüm hədəflərdən biri bu məsələyə beynəlxalq dəstəyin əldə edilməsidir. Azərbaycan Respublikasının siyasi rəhbərliyi səviyyəsində Qərbi Azərbaycan məsələsinin mötəbər beynəlxalq formatlarda qaldırılması sözügedən məsələnin beynəlxalq aktorlar tərəfindən ciddi arqument kimi qəbul olunmasını təmin etmişdir. Bu xəttə uyğun olaraq Azərbaycan hökuməti BMT-nin Baş Assambleyası, BMT-nin İnsan Hüquqları Şurası, ATƏT-in Nazirlər Şurası da daxil olmaqla müvafiq beynəlxalq formatlarda etdiyi çıxışlarında, eləcə də Ermənistan tərəfi ilə dialoq zamanı Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququ məsələsini qaldırır.

Bu istiqamətdə əldə edilmiş ən mühüm nailiyyətlərdən biri ölkə rəhbərliyinin təşəbbüsü ilə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin dövlət və hökumət başçılarının 2024-cü il mayın 4-5-də Qambiyanın Bancul şəhərində keçirilmiş Zirvə görüşünün yekun kommünikesində Qərbi Azərbaycan məsələsinə dair müvafiq bəndin daxil edilməsi olmuşdur. Həmin bənddə quruma üzv olan 57 ölkənin dövlət və hökumət başçısı Qərbi azərbaycanlıların qayıdış hüququna dəstək ifadə etmiş və onların mədəni irsinin dağıdılmasını pisləmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi Qərbi Azərbaycana qayıdış üzrə ölkədəki güclü ictimai konsensusa əsaslanaraq bu məsələnin beynəlxalq səviyyədə irəliləməsi və hüquqi-siyasi əsasların daha da möhkəmləndirilməsi işində fəal şəkildə iştirak edir. Spiker Sahibə Qafarovanın sədrliyi ilə parlament komitələri səviyyəsində bu mövzuda bir neçə dinləmə keçirilib. Bundan başqa, Milli Məclisin deputatları beynəlxalq fəaliyyətləri zamanı Qərbi Azərbaycan həqiqətlərinin geniş auditoriyaya çatdırılmasına fəal töhfə verirlər. Parlament sədrinin sərəncamı ilə Milli Məclisdə təsis olunmuş Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupu sözügedən sahədə sistemli fəaliyyətin aparılmasını təmin edir. Bir sözlə, Milli Məclis qanunvericilik fəaliyyəti, ictimai maarifləndirmə və parlament diplomatiyası vasitəsilə Qərbi Azərbaycana qayıdış məsələsinə öz töhfəsini verməkdədir.

Azərbaycan ictimaiyyətinin bütün təbəqələrində Ermənistandan zorla çıxarılmış azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıdış hüququnun təmin edilməsi məsələsinə həmişə böyük dəstək olmuşdur. Birmənalı şəkildə bildirmək olar ki, bu məsələ cəmiyyətimizdə ümummilli məqsəd kimi qəbul edilir.




Qərbi Azərbaycan İcması qayıdış hüququ üzrə maarifləndirmə, mədəni irsin təbliği istiqamətində, eləcə də qayıdışın insan hüquqları məsələsi kimi müvafiq beynəlxalq qurumların gündəliyinə gətirilməsi sahəsində nəticəyönümlü fəaliyyət göstərməkdədir. Prezident İlham Əliyevin tövsiyəsi ilə Qərbi Azərbaycan İcması öz fəaliyyətinin əsası kimi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının müvafiq təlimatlarını nəzərə almaqla Qayıdış Konsepsiyasını hazırlayıb ictimaiyyətə bəyan etdi.

İcma BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, "Amnesty International", "Human Rights Watch" kimi təşkilatlara dövri olaraq qayıdış hüququ mövzusunda müfəssəl hesabatlar verir. Bundan əlavə, İcma Ermənistanın insan hüquqları üzrə beynəlxalq konvensiyaları icra etməsinə dair alternativ hesabatlar hazırlayaraq BMT-nin müvafiq qurumlarına təqdim edir. İcmanın nümayəndələri BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığında, Avropa Şurasında, ATƏT-in, UNESCO-nun yüksək səviyyəli forumlarında iştirak və çıxışlar edirlər. Avropa Şurasının İnsan Hüquqları üzrə komissarı Qərbi Azərbaycan İcmasını ziyarət etmiş və orada Ermənistandan didərgin salınmış azərbaycanlı qaçqınlarla görüş keçirmişdir. İcmanın sözügedən qurumlarla təmasları Qərbi Azərbaycan mövzusunda beynəlxalq məlumatlılığın artırılması ilə yanaşı, həmin qurumlardan bəzilərinin insan hüquqları sahəsində ikili standartlarının və Azərbaycana qarşı qərəzli siyasətlərinin ifşa edilməsi baxımından da vacib əhəmiyyət daşıyır.

**Prezident İlham Əliyev** konfrans iştirakçılarına etdiyi müraciətində Ermənistandan azərbaycanlıların irsinin zorla çıxarılmasının tarixi və miqyası, Azərbaycan mədəni irsinin sistematik şəkildə dağıdılması haqqında məlumat verərək, Ermənistanın İcma ilə dialoqa başlamasının və UNESCO faktaraşdırıcı missiyasının Ermənistana göndərilməsinin vacibliyini vurğulamışdır. Konfransda aparılmış müzakirələrdə və qəbul olunmuş yekun sənəddə Qərbi azərbaycanlıların qayıdış hüququna birmənalı dəstək ifadə edilmişdir.

Qərbi Azərbaycan mövzusunun beynəlxalq ictimaiyyətə təqdim edilməsi və qayıdış hüququ dialoq baxımından mühüm addımlardan biri kimi İcma tərəfindən bu mövzuda keçirilən beynəlxalq konfransdır. Prezident İlham Əliyevin tövsiyəsi ilə illik əsasda keçirilən bu konfranslar beynəlxalq məlumatlılığın və dəstəyin



artırılmasında mühüm rol oynayır. 2024-cü il dekabrın 5-də keçirilmiş II beynəlxalq konfransda aralarında parlament üzvləri, ictimai-siyasi xadimlər, vətəndaş cəmiyyəti fəalları və elm xadimləri olmaqla 51 ölkədən 100-dən çox əcnəbi nümayəndə iştirak etmişdir. Prezident İlham Əliyev konfrans iştirakçılarına etdiyi müraciətində Ermənistandan azərbaycanlıların irsinin zorla çıxarılmasının tarixi və miqyası, Azərbaycan mədəni irsinin sistematik şəkildə dağıdılması haqqında məlumat verərək, Ermənistanın İcma ilə dialoqa başlamasının və UNESCO faktaraşdırıcı missiyasının Ermənistana göndərilməsinin vacibliyini vurğulamışdır. Konfransda aparılmış müzakirələrdə və qəbul olunmuş yekun sənəddə Qərbi azərbaycanlıların qayıdış hüququna birmənalı dəstək ifadə edilmişdir. Bu cür tədbirlərlə Qərbi Azərbaycan İcması qayıdış hüququ mövzusunda dünya miqyasında mühüm fikir mərkəzlərindən biri kimi qəbul olunmağa başlamışdır.

Qərbi Azərbaycan İcması qayıdış hədəfinə sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət çərçivəsində yetişmək üçün çalışır. Bu baxımdan İcmanın Ermənistan hökumətinə rəsmi şəkildə müraciət edərək dialoq təklif etməsi xüsusilə qeyd olunmalıdır. Ermənistan hökuməti tərəfindən etnik təmizləməyə, ayrı-seçkiliyə, mülkiyyət və digər hüquqların pozulmasına məruz qalmış Qərbi azərbaycanlıların dialoqa təşəbbüs göstərməsi  barışıq və sülh yolunda ilk addım sayıla bilər.

Ermənistan hökumətinin İcmanın dialoq təklifini cavabsız qoyması təəssüf doğurur. Onların Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdış məsələsini ərazi iddiası kimi təqdim etməyə çalışması və “Qərbi Azərbaycan” ifadəsinə irad tutması tamamilə əsassızdır. Vurğulamaq lazımdır ki, “Qərbi Azərbaycan” ifadəsi həmin məkanda yaşamış azərbaycanlıların özünüidentifikasiya hüququ çərçivəsində istifadə etdikləri və tarixi həqiqətlərə söykənən termindir.

Azərbaycan ərazilərinin işğalına son qoyulması ilə münaqişənin həll edilməsi regionda sülh üçün münasib əsaslar yaratmışdır. Azərbaycan bu tarixi fürsəti dəyərləndirərək, davamlı və möhkəm sülhə  nail olmaq üçün ardıcıl səy göstərir. Digər tərəfdən aydındır ki, sülh ancaq ədalətin tam təmin edilməsinə əsaslandıqda davamlı ola bilər. Ermənistan anlamalıdır ki, Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmaq onun beynəlxalq hüquq çərçivəsində öhdəliyi olmaqla bərabər, bölgədə davamlı sülhün bərqərar olunmasının mühüm şərtlərindən biridir.

# Dövlət auditinin yaratdığı dəyər və üstünlüklər:

## Hesablama Palatasının fəaliyyətinin keyfiyyət göstəriciləri



**Vüqar Gülməmmədov**
Azərbaycan Respublikası Hesablama Palatasının sədri

Ali audit orqanları (AAO) tərəfindən həyata keçirilən dövlət sektoru üzrə audit cəmiyyətə fayda gətirən, vətəndaşların həyatında dəyişiklik yaradan vacib bir institutdur. Dövlət sektoru üzrə auditlərin həyata keçirilməsi dövlət resurslarının nə dərəcədə yaxşı istifadə edildiyini müəyyənləşdirməklə ictimai etimada müsbət təsir göstərir.

Dövlət maliyyəsinin idarə edilməsinə nəzarətdə oynadıqları rol maraqlı tərəflərin AAO-lardan tələb və gözləntilərinin çox olmasına səbəb olur, həmçinin onlardan fəaliyyətlərinin ən yüksək standartlara cavab verən və baş verən dəyişikliklərə adekvat şəkildə qurulmasını tələb edir.

Ali audit orqanları tərəfindən cəmiyyətə faydanın verilməsi hesabatlılıq və şəffaflıqla birbaşa əlaqəli olan bir neçə nəticənin nail olunması əsasında ölçülür. Məqalədə həmin nəticələr 3 istiqamətdə qruplaşdırılır və Hesablama Palatasının onlara nail olunması məqsədilə gördüyü işlərə toxunulur.

### 1. Dövlət orqanlarının və müəssisələrinin şəffaflığını, hesabatlılığını və dürüstlüyünü gücləndirmək

Bu istiqamətdə yekun nəticəyə nail olunma auditlərə dair hesabat vermə funksiyasının yerinə yetirilməsi, habelə verilmiş təklif və tövsiyələrin icrasının izlənilməsi əsasında ölçülür:

✓ 2024-cü ilin ilk 11 ayında İş Planı üzrə nəzərdə tutulmuş nəzarət tədbirlərinin 65%-dən çoxunun nəticələri barədə qərar qəbul edilmişdir (başa çatdırılmışdır). Həm beynəlxalq standartların, həm də milli qanunvericiliyin tələblərinə əsasən həyata keçirilmiş bütün auditlərin nəticələri barədə məlumatlar parlamentə təqdim edilmişdir. Eləcə də bəzi auditlər üzrə nəticələrin təsdiq olunduğu kollegiya iclaslarında Hesablama Palatasının təşəbbüsü ilə Milli Məclisin üzvləri iştirak etmişdir.



✓ Auditlərin nəticələri ilə bağlı ictimaiyyətə açıqlanan məlumatlarda son illərdə əhəmiyyətli artım müşahidə edilir. 2024-cü ilin müvafiq dövründə dövlət auditi portfeli üzrə başa çatmış auditlərin nəticələrinin 65%-i açıqlanmışdır. 2021-ci ildə portfel üzrə keçirilmiş auditlərin 54%-i açıqlanırdısa, 2022-ci ildə bu göstərici 60%-ə, 2023-cü ildə isə 64%-ə yüksəlmişdir. 2025-ci il üzrə bu nisbətin 70%-ə yüksəldilməsi hədəflənir.

✓ Dövlət auditinin obyektləri tərəfindən təkliflərimizin icra səviyyəsi yüksəlmişdir. Məsələn, 2024-cü ilin yanvar-noyabr aylarında verilmiş 136 təklifin 70%-dən çoxu icra olunmuşdur. Qeyd edək ki, 2022-ci ildə 205 təklifin 163-ü, 2023-cü ildə isə 214 təklifin 152-si audit obyektləri tərəfindən tam və ya qismən icra edilmişdir.

✓ Audit təsirinin artırılması məqsədilə 2024-cü ildə Hesablama Palatasının rəsmi internet səhifəsində Təkliflərin izlənilməsi bölməsi yaradılmış və verilmiş təkliflərin icra statusu (icra edilib, qismən icra edilib və s.) burada əks olunmuşdur. Saytdakı son məlumatdan da görünür ki, verilmiş təkliflərin 70%-dən çoxu audit obyektləri tərəfindən qısa müddət ərzində icra edilmişdir.

✓ Fəaliyyətimizin təsirinin ölçülməsi üsullarından biri də auditlərlə aşkarlanmış pozuntuların aradan qaldırılması istiqamətində audit obyektləri tərəfindən atılmış addımların izlənməsidir. 2024-cü ilin 11 ayının yekunlarına əsasən, aşkarlanmış maliyyə pozuntuları üzrə Hesablama Palatasının kollegiyası tərəfindən 51,7 milyon manatın müvafiq qaydada pul və ya natura şəklində bərpası, eləcə də əvəzləşdirilməsi istiqamətində təkliflər verilmişdir.

✓ Fəaliyyətimiz barədə tərtib etdiyimiz illik və yarımillik hesabatlar da dövlət maliyyəsi üzrə şəffaflıq və hesabatlılığın daha da təkmilləşməsinə xidmət edir. Fəaliyyət hesabatımızda keçirdiyimiz kənar dövlət maliyyə nəzarəti tədbirləri, bu tədbirlər nəticəsində nəzarət obyektləri, eləcə də müvafiq sahədə səlahiyyətli icra orqanları tərəfindən görülmüş işlər barədə icmal-statistik məlumatlar əks etdirilir. Hesabat ilində hazırlanmış fəaliyyətimizlə bağlı 1 illik hesabat və 1 yarımillik məlumat tam həcmdə rəsmi saytda yerləşdirilmişdir.

✓ Büdcə prosesində iştirakla bağlı rəylərimiz geniş oxucu kütləsinə malik olmaqla dövlət maliyyəsi üzrə təsəvvürün formalaşmasına, həmçinin bu sahədə son meyillərin təhlilinə və izlənməsinə imkan verən əsas analitik sənədlərdəndir. 2024-cü ilin geridə qalan dövründə dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının büdcə layihələri və icrası üzrə 9 rəy, 1 məlumat ictimaiyyətə təqdim olunmuşdur. Bu sənədlər üzrə Hesablama Palatası və müvafiq icra hakimiyyəti orqanları əlaqəli şəkildə fəaliyyət göstərirlər. Hətta bəzi hallarda parlamentə təqdim edilənədək sənədlərdə müəyyən düzəlişlər olunur ki, bu da dövlət maliyyəsinin hesabatlılığının gücləndirilməsinə xidmət edir. Həm dövlət büdcəsi, həm də büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələri ilə birlikdə təqdim edilən sənədləşmədə Hesablama Palatasının təklif və tövsiyələrinin icrası ilə bağlı təqdim olunmuş məlumatlar da yuxarıda əks edilən fikirləri bir daha təsdiqləyir.




✓ Hesabatlar və rəylər üzrə xülasələrin rəsmi internet səhifəmizdə yerləşdirilməsi oxunaqlılığın artırılmasına xidmət edir. Rəylər, habelə hesabatlar üzrə 2024-cü ilin geridə qalan dövründə 9 xülasə rəsmi internet səhifəsinə yerləşdirilmişdir. Bu göstərici 2022-ci ildə 4, 2023-cü ildə isə 8 idi.

## 2. Vətəndaşlar və maraqlı tərəflər üçün daim aktual olmaq

Beynəlxalq AAO cəmiyyətində maraqlı tərəflərin, xüsusilə də vətəndaşların gözləntiləri daim diqqətdə saxlanır. Hesablama Palatasının bu istiqamətdə gördüyü işlər, habelə onların nəticəsi kimi aşağıdakılar qeyd edilə bilər:

✓ Risk əsaslı audit yanaşmasından faydalanaraq illik audit planlaşdırılması zamanı ictimai əhəmiyyət kəsb edən mövzular da diqqətdə saxlanılır. Milli qanunvericilik Prezident və parlamentin audit planına əlavələrin edilməsi ilə bağlı hüququnu da təsbit edir. Deputatların təklifi əsasında 2024-cü ildə 2, 2022-ci ildə 1, 2023-cü ildə 2 audit İş Planına daxil edilmişdir.

✓ Hesablama Palatasının rəhbərliyinin Milli Məclisin komitə və plenar iclaslarında iştirak sayı artırılmışdır. 2024-cü ildə bu göstərici 20-dən çox olmuşdur. Audit nəticələrinin müzakirəsi zamanı Hesablama Palatasının kollegiya iclaslarına 2024-cü ilin geridə qalan dövründə 2 dəfə millət vəkilləri dəvət olunmuşdur. Qeyd edək ki, bu göstərici 2022-ci ildə 1 dəfə, 2023-cü ildə isə 3 dəfə olmuşdur.

✓ Audit olunan obyektlərin nümayəndələrinin də kollegiya iclaslarına dəvət olunması prosesinə yenidən başlanılmış, 2024-cü ilin geridə qalan dövründə başa çatdırılmış 4 səmərəlilik auditi üzrə audit obyektlərinin rəhbər şəxsləri müvafiq iclaslarda iştirak etmişdir.




✓ Auditin təsirinin artırılması istiqamətində görülən işlərdən biri də auditlərin nəticələri ilə bağlı məlumatların və tövsiyələrin səlahiyyətləri çərçivəsində tədbirlərin yerinə yetirilməsi üçün yuxarı icra orqanlarına göndərilməsidir. 2024-cü ildə ümumilikdə 11 auditlə bağlı məlumatlar Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə göndərilmişdir. Bu göstərici 2022-2023-cü illərdə ümumilikdə 19 olmuşdur. Qeyd edək ki, 2024-cü ildə açıqlanan Nazirlər Kabinetinin 2023-cü ildəki fəaliyyəti haqqında hesabatda Hesablama Palatasının 9 auditi üzrə tövsiyələrin nəzərə alınması barədə məlumat öz əksini tapmışdır.

✓ Dövlət vəsaitlərinin istifadəsində hesabatlılıq və şəffaflıq ictimai nəzarətin təmin edilməsinə yönəlməklə yanaşı, həm də korrupsiya əleyhinə qabaqlayıcı effektiv vasitədir. 2024-cü ilin dekabr ayına kimi 8 material hüquq mühafizə orqanlarına göndərilmişdir. Bu göstərici 2022-2023-cü illərdə ümumilikdə 15 olmuşdur.

✓ Maraqlı tərəflərlə əməkdaşlığın gücləndirilməsi üçün yeni nəticəəsaslı çərçivəyə əsaslanan Kommunikasiya Strategiyası qəbul edilmiş, burada 5 SMART məqsəd üzrə 100-dən artıq indikator müəyyənləşdirilmişdir. Sənəddə yüksək hədəflər müəyyən olunmuş, hədəflərin əksəriyyəti üzrə illik əsasda 15-20%-lik artım nəzərdə tutulmuşdur. 2024-cü il üçün indikatorların 70%-dən çoxu üzrə illik hədəfin icrası 11 ayda təmin edilmişdir.

✓ Hesablama Palatasının fəaliyyətində etdiyi yeniliklərdən biri də illik fəaliyyətinə dair mətbuat konfransının keçirilməsidir. 15-dən çox media subyektinin iştirak etdiyi müvafiq tədbirdə dövlət maliyyəsinin və dövlət auditinin təkmilləşdirilməsi sahəsində Hesablama Palatasının gördüyü işlər, eləcə də kənar dövlət maliyyə nəzarəti (KDMN) obyektləri tərəfindən həyata keçirilmiş tədbirlər barədə məlumat verilmişdir.

✓ Dövlət auditində ictimai iştirakçılıq məqsədilə rəsmi internet səhifəsində “Audit təklif et” alt bölməsi yaradılmış, habelə dövlət maliyyəsinin idarəedilməsinə nəzarət, o cümlədən Hesablama Palatasının fəaliyyəti ilə bağlı məlumatlılığın və məmnunluq səviyyəsinin ölçülməsi ilə əlaqədar sorğu yerləşdirilmişdir. Qeyd edək ki, vətəndaş müraciəti əsasında 2025-ci ilin İş Planına müvafiq risk qiymətləndirilməsi aparıldıqdan sonra səhiyyə sahəsi üzrə 1 audit daxil edilmişdir.

✓ Ali audit orqanlarının hesabatlılıqda və şəffaflıqda oynadıqları rol onları beynəlxalq təşkilatların apardıqları müxtəlif qiymətləndirmələrin obyektinə çevirir. “Beynəlxalq Büdcə Əməkdaşlığı” təşkilatı tərəfindən hazırlanan “Açıq Büdcə İndeksi” ölkələr üzrə büdcə proseslərinin şəffaflığını, büdcə məlumatlarının ictimaiyyət üçün əlçatanlığını ölçür. Sonuncu qiymətləndirmə 125 ölkəni, o cümlədən Azərbaycan Respublikasını əhatə etmişdir. Hesabatda Hesablama Palatasının fəaliyyəti 100 baldan 100 bal olmaqla (əvvəlkindən 11 bal çox), “adekvat” nəticə kimi ən yüksək qiymətləndirilmişdir. Mövqeyimizin əhəmiyyətli yüksəlməsinə fəaliyyətimizin beynəlxalq həmkarlar tərəfindən qiymətləndirilməsi, habelə parlament müzakirələrində Hesablama Palatasının üzvlərinin iştirak sayının çoxalması təsir etmişdir.

✓ Xarici AAO-lar ilə əlaqələrin möhkəmləndirilməsi, potensialın artırılması istiqamətində birgə fəaliyyətin təşkili, paralel auditlərin keçirilməsi məqsədilə 2024-cü ilin hazırkı tarixinədək 3 ölkənin, o cümlədən Çin, Qazaxıstan, Tacikistan AAO-ları ilə memorandumlar imzalanmışdır.

✓ Türkiyə Hesablama Məhkəməsi ilə əlaqələrin gücləndirilməsi istiqamətində növbəti addım kimi 2024-cü ildə paralel auditlərin aparılmasını tənzimləyən sənəd imzalanmışdır. Hazırda “İğdır-Naxçıvan qaz kəmərinin tikintisi” layihəsi üzrə ayrılan dövlət investisiyalarının auditi keçirilir.

✓ Hesablama Palatası strateji idarəetmə sahəsində nümunəvi qurum kimi qiymətləndirilərək beynəlxalq layihə çərçivəsində həmkar fəaliyyətinin qiymətləndirilməsi təklifini qəbul etmiş, Tacikistan AAO-nun SAI PMF (Ali Audit Orqanlarının Fəaliyyətinin Ölçülməsi Çərçivəsi) üzrə qiymətləndirilməsini keçirmiş və 2024-cü ildə hazırlanan həmkar AAO-nun ortamüddətli dövr üçün strateji planlaşdırılmasına dəstək vermişdir.

✓ Hesablama Palatası Qazaxıstan AAO-nun nümayəndə heyəti ilə birgə Ali Audit Orqanlarının Asiya



Təşkilatının (ASOSAI) Baş Katibliyinin 2021-2023-cü illər üzrə maliyyə hesabatlarının auditini etmişdir.

✓ ASOSAI-ın 16-cı Assambleyasında ASOSAI-ın İdarə Heyətinə və Audit Komitəsinə yeni üzvlərin seçilməsi ilə əlaqədar səsvermə nəticəsində Hesablama Palatası Ali Audit Orqanlarının Asiya Təşkilatının İdarə Heyətinə 2024-2027-ci illər üzrə üzv seçilmişdir.

✓ INTOSAI-ın İdarə Heyətinin 78-ci toplantısında Ali Audit Orqanlarının Beynəlxalq Təşkilatının (INTOSAI) Peşəkar Bəyanatlar Forumuna (FIPP - Forum for INTOSAI Professional Pronouncements) 3 yeni üzvlüyə namizəd, o cümlədən Azərbaycan Respublikası Hesablama Palatasının auditoru təsdiq olunmuşdur. FIPP dövlət sektoru üzrə audit standartlarının yaradılması ilə bağlı fəaliyyətində IFAC, IPSASB və IAASB kimi beynəlxalq təşkilatlar ilə fəal əməkdaşlıq edir, həmçinin INTOSAI-ın bütün alt qurumları tərəfindən müvafiq audit prinsipləri, standartlar və təlimatların yaradılması, təkmilləşdirilməsi və ləğvi ilə bağlı həyata keçirilən fəaliyyətləri koordinasiya edir.

✓ Hesablama Palatası öz fəaliyyətində qlobal çağırışları diqqətdə saxlayır. Hesablama Palatasının son 2 ildə həyata keçirdiyi 6 auditin nəticəsi INTOSAI-ın Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə ATLAS-ında yerləşdirilib. Qeyd edək ki, Azərbaycan Respublikası Hesablama Palatası bu sahədə ən çox məlumat təqdim edən ölkələrdən biri kimi seçilir.

✓ Dünyada ən mötəbər tədbirlərdən biri hesab edilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində Hesablama Palatası və INTOSAI-ın təşkilatçılığı ilə "Hökumətlər iqlim sahəsində fəaliyyətlərində hansı mərhələdədirlər? - İqlim Skaneri qiymətləndirməsinin nəticələri" adlı tədbir keçirilib. Tədbirdə Braziliya, Finlandiya, Kanada və digər ölkələrin ali audit orqanlarının və Avropa Auditorlar Məhkəməsinin nümayəndələri ilə yanaşı, bir sıra nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən BMT-nin İnkişaf Proqramı, BMT-nin Əhali Fondu, Dünya Bankı, Asiya İnkişaf Bankı və s. qurumların təmsilçiləri, habelə dövlət orqanlarının rəhbər şəxsləri iştirak ediblər. 141 ölkədə keçirilən İqlim Skanerinin ilkin nəticələrinə əsasən, ölkələrin əksəriyyətində dövlət siyasəti (milli öhdəliklərin qəbul edilməsi, yumşaldılma strategiyaları, Milli Uyğunlaşma Planları və s.) və idarəetmə (qanunvericilik, inzibati strukturlar, risk idarəetməsi, şəffaflıq








və s.) üzrə hökumət tərəfindən görülən işlər qənaətbəxşdir. Lakin maliyyə sahəsi (daxili, beynəlxalq və özəl iqlim maliyyəsi) üzrə mövcud mexanizmlərin və həyata keçirilən fəaliyyətlərin gücləndirilməsinə zərurət yüksəkdir.

✓ Hesabat ilində hüquq mühafizə orqanları ilə əməkdaşlıq diqqətdə saxlanmış, Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Azərbaycan Respublikası Hesablama Palatası arasında memorandum imzalanmış, ikitərəfli təlim proqramları həyata keçirilmişdir.

✓ Hesablama Palatası təhsil sahəsində maraqlı tərəflərlə əməkdaşlığını hesabat ilində də davam etdirmiş, 2 təhsil müəssisəsində “Dövlət auditi” təlim proqramı Hesablama Palatasının əməkdaşları tərəfindən tədris edilmişdir.

✓ Hesabat ilində də Hesablama Palatasının əməkdaşları tərəfindən media nümayəndələrinə təlim keçirilmiş, təlimin əsas məqsədi qarşı tərəfin dövlət maliyyəsinə dair məlumatlılığının artırılması olmuşdur.

### 3. Nümunəvi təşkilat olmaq

Ali audit orqanlarının etibarlılığı öz fəaliyyətinə görə ictimaiyyət qarşısında cavabdeh kimi görünməkdən asılıdır. Bunun mümkün olması üçün ali audit orqanları nümunəvi olmalıdırlar.

✓ Hesablama Palatası ölkədə ilk dəfə olaraq illik hesabatvermədə nəticəəsaslı büdcə modelindən istifadə etmişdir. Belə ki, 2022-2023-cü illərdə planlaşdırılmış və icra edilmiş fəaliyyətlər müvafiq büdcə və performans göstəriciləri (indikatorları) qeyd olun-

**Tədbirin keçirilməsi ilə bağlı müqavilələrin icrası barədə məlumat**

*manatla*

| S/s | Malların (işlərin və xidmətlərin) adı | Sayı / Miqdarı | Ölçü vahidi | Qiymət | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 4 noyabr tarixli 254 nömrəli qərarı ilə TƏSDİQ EDİLMİŞ Xərc normaları (1 nəfər üçün, 1 gün) | Meyar (Dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi, habelə xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi üçün büdcə vəsaitlərinin xərc normaları və qeydinin tələbləri) | Yekun məbləğ |
|---|---|---|---|---|---|---|---|
| I. | **Norma müəyyən edilən xərclər üzrə** | | | | | | |
| 1.1 | Yemək xərcləri | | | | | | |
| *1.1.1* | *Nahar yeməyi, 2 gün (5 və 6 iyun tarixlərində)* | 67 | nəfər | 60.00 | 60 manata qədər | *2.1-ci bənd* | 8040.0 |
| *1.1.2* | *Nahar yeməyi, 1 gün (7 iyun tarixində)* | 61 | nəfər | 55.50 | 60 manata qədər | *2.1-ci bənd* | 3385.5 |
| *1.1.3* | *Şam yeməyi, 1 gün (4 iyun tarixində)* | 42 | nəfər | 62.00 | 80 manata qədər | *2.2-ci bənd* | 2604.0 |
| *1.1.4* | *Ziyafət (restoran), 1 gün (5 iyun tarixində)* | 66 | nəfər | 105.91 | 120 manata qədər | *2.3-cü bənd* | 6990.1 |



maqla ictimaiyyətə açıqlanmışdır. 2022-ci ildə büdcəmizin 79,4% icrası fonunda Strateji Planımızın illik Əməliyyat Planı 81,3%, 2023-cü ildə isə büdcəmizin 83,3% icrası fonunda illik Əməliyyat Planı 91,7% yerinə yetirilmişdir. 2024-cü ilin məqalə hazırlanan tarixinədək büdcəmizin icrasının 72,6% olması şəraitində Strateji Planın illik Əməliyyat Planının icrası təxminən 80% təşkil etmişdir.

✓ İlk dəfə olaraq Milli Məclisdə Hesablama Palatasının 2025-ci il üçün xərclər smetasının layihəsi nəticəəsaslı büdcə modelinin prinsipləri əsasında təqdim edilmiş, xərclərin layihəsi Strateji Planın 2025-ci il üçün planlaşdırılmış fəaliyyət və nəticə göstəriciləri (indikatorlar) ilə müşayiət olunmuşdur.

✓ Cari fəaliyyət barədə hesabatlılığı təşviq etmək üçün xərclər smetasının icrası və keçirilən dövlət satınalmaları barədə məlumatlar rüblük əsasda ictimaiyyətə açıqlanmışdır. Ötən ildən başlanaraq illik məlumatlar üzrə izahlı qeydlər də rəsmi internet səhifəsində əks olunmuş, 2023-cü ildəki satınalmalarımızın effektivliyi




ən yaxşı təcrübə (OECD, Avropa Birliyi və s.) əsasında qiymətləndirilmişdir.

✓ Hesablama Palatası fəaliyyəti barədə hesabatlılıqda ötən ildən başlayaraq daha bir yenilik tətbiq edərək ev sahibliyi etdiyi beynəlxalq tədbirlərin xərc smetasının icrası barədə hesabatı da ictimaiyyətə açıqlamışdır.

✓ Dövlət sektorunda nümunəvi olmağın meyarlarından biri fəaliyyətin kənar qiymətləndirilməsi ilə bağlıdır. Son 2 ilin maliyyə hesabatları və bu hesabatlara Pakistan AAO-nun auditor rəyi də Hesablama Palatasının rəsmi internet səhifəsində dərc olunmuşdur.

Görülən işlərlə nail olduğumuz nəticələrin bundan sonra yaxşılaşdırılması məqsədilə ali audit orqanı kimi üzərimizə düşən bütün vəzifələrin öhdəsindən gəlməklə cəmiyyət üçün dəyər yaratmağı və vətəndaşların həyatına müsbət dəyişikliklər gətirməyi nəzərdə tutan prinsiplərin tətbiqinin gücləndirilməsini hədəfləyirik.




# AZƏRBAYCANIN LİDER DÖVLƏT STRATEGİYASI



**Rizvan Nəbiyev**
Milli Məclisin deputatı

**Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni geosiyasi reallıq**

2020-ci il Vətən müharibəsi və 2023-cü il lokal xarakterli antiterror tədbirləri nəticəsində regionda beynəlxalq hüquqa əsaslanan yeni siyasi reallıqlar yaranmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məharətli hərbi və siyasi-diplomatik strategiyası sayəsində şanlı ordumuz torpaqlarımızın qanunsuz hərbi işğalına son qoydu və bununla ölkəmiz Birləşmiş Millətlər Təşkilatının ən ali vəzifəsi sayılan beynəlxalq sülhün və təhlükəsizliyin təminatına ciddi töhfə verdi. Azərbaycan BMT-yə üzv olan ölkələr arasında azsaylı dövlətlərdəndir ki, beynəlxalq hüququn hamılıqla tanınan, amma uzun illər pozulmuş prinsiplərini öz resursları hesabına təmin etdi.

Zəfərdən qısa müddət sonra 198 dövlətin dəstəyi ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsinə nail olmaq yaranmış siyasi və hüquqi reallıqların beynəlxalq birlik tərəfindən qəbulu və Azərbaycan Prezidentinin düşünülmüş xarici siyasət kursunun uğurlu nəticəsidir.

Cənab Prezidentin rəhbərliyi altında qlobal arenada praqmatik, müstəqil və prinsipial xarici siyasət həyata keçirən Azərbaycan etibarlı tərəfdaş kimi qəbul edilir. İlham Əliyev VII çağırış Milli Məclisin açılış iclasında etdiyi çıxışında

vurğuladı ki, tarixi Zəfərimizdən sonra xarici siyasətimizdə daha sərbəstik. Müstəqil, prinsipial xarici siyasət əsas istiqamətimizdir.

Bu gün Azərbaycanın 20-dən çox dövlət ilə strateji tərəfdaşlıq münasibətləri var. 2025-ci ildə də respublikamızın beynəlxalq münasibətlər sistemində uğurlu fəaliyyətinin təmini, o cümlədən beynəlxalq tədbirlərin təşkili məqsədi ilə dövlət büdcəsindən 754,2 milyon manat məbləğində vəsait ayrılması nəzərdə tutulmuşdur. Bu vəsaitin 238 milyon manatı beynəlxalq və ölkə səviyyəli tədbirlərin təşkili üçün planlaşdırılır. Bu da ötən illə müqayisədə 17,6 faiz, manatla ifadədə 37,1 milyon manatlıq bir artım nümayiş etdirir.

### Azərbaycan hərbi və diplomatik gücünü paralel olaraq artırır

Vətən müharibəsindən sonra beynəlxalq mövqelərini daha da möhkəmləndirən Azərbaycan hərbi-texniki məhsullarımızın ixrac coğrafiyasını genişləndirməklə yeni tərəfdaşlar qazanır, həmçinin hərbi-sənaye kompleksini müasirləşdirir və bir ilk olaraq yerli özəl sektoru da bu sahəyə cəlb edir.

Suverenliyimizin tam bərpasından sonra aparılan fəal xarici siyasət sayəsində ölkəmizə dost dövlətlərin sayı bütün qitələrdə artır. Vaxtilə mövcud olmadığımız bölgələrlə indi ciddi təmaslar qurulur. Bunun üçün əsas meyarlar prinsipial olaraq dəyişməz qalır: Azərbaycan dövlətinin suverenliyinin tam bərpasına olan münasibət, iki və çoxtərəfli formatda bir-birinin daxili işlərinə qarışmamaq, qarşılıqlı hörmət əsasında əməkdaşlığın inkişafı. Ənənəvi dost dövlətlərlə isə əlaqələr daha da gücləndirilir, münasibətlərdə yeni şəbəkələşmə vasitəsi ilə mövqeyimiz qlobal və regional miqyasda daha da möhkəmləndirilir. Buna ən aktual misal 2024-cü il dekabrın 19-da Qahirədə İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Zirvə toplantısı zamanı Azərbaycanın bu təşkilata üzv qəbul edilməsidir. Ölkəmizin namizədliyinə qardaş və müttəfiq Türkiyə, strateji tərəfdaş Pakistanla yanaşı, dost ölkələr Misir, İran, İndoneziya, Malayziya, Nigeriya və Banqladeş tərəfindən də dəstək göstərilməsi bu ölkələrlə etibarlı əməkdaşlıq münasibətlərimizə verilən dəyərdir.

Türkiyənin təşəbbüsü ilə 1997-ci il İstanbul Bəyannaməsi ilə təsis edilmiş D-8 təşkilatı fəaliyyət göstərdiyi 30 il ərzində ilk dəfə idi ki, təşkilatın sıralarına yeni üzvün qəbulu ilə bağlı qərar verirdi. Bu qərarın beynəlxalq arenada nüfuzu artmaqda olan və davamlı iqtisadi inkişafa malik dövlətimizə münasibətdə verilməsi Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş xarici siyasət kursunun növbəti uğurudur. D-8 təşkilatına üzvlük Azərbaycanın qlobal və regional miqyasda daha geniş təsir imkanları əldə etməsi üçün platforma rolunu oynayacaq və paralel olaraq D-8 təşkilatının gücünün ölkəmizin resursları hesabına artmasına töhfə verəcəkdir.

D-8 təşkilatının əsaslandığı fəaliyyət prinsipləri "münaqişə əvəzinə sülh, qarşıdurma əvəzinə dialoq, istismar əvəzinə əməkdaşlıq, ikili standartlar əvəzinə ədalət, ayrı-seçkilik əvəzinə bərabərhüquqluluq, zülm əvəzinə demokratiya" Azərbaycanın da dövlət siyasətinin prinsipləri ilə uyğunluq təşkil edir. Təşkilatın bu prinsiplər üzərində qurulan müxtəlif sahələr üzrə yeni hədəfləri "2020-2030-cu illər yol xəritəsi" sənədində təsbit olunub.

İslam Əməkdaşlıq Təşkilatının nüfuzlu üzvlərindən olan Azərbay-



can digər D-8 üzvü olan dövlətlərlə birlikdə islam həmrəyliyinin daha da gücləndirilməsi üçün öz səylərini artıracaqdır. Hələ 2013-cü il oktyabrın 28-də dövlətimizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü qismində təşəbbüsü ilə qurumun tarixində ilk dəfə olaraq "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda iclas keçirildi. Digər bir faktı da vurğulamaq yerinə düşər. 2017-ci il "İslam Həmrəyliyi İli" elan olunmuş ölkəmizdə mədəniyyət paytaxtımız Şuşa şəhəri 2024-cü il üçün İslam mədəniyyətinin paytaxtı seçilmişdir.

### Qərbin Azərbaycana qarşı qərəzli münasibəti və Ermənistandan alət kimi sui-istifadə edilməsi

Prezident İlham Əliyevin VII çağırış Milli Məclisin açılış iclasındakı nitqində qeyd etdiyi kimi, İkinci Qarabağ müharibəsinin yaratdığı siyasi və hüquqi nəticələri qəbul etmək istəməyən qüvvələr var və yaxud sözdə qəbul edib əməldə əks fəaliyyət göstərən beynəlxalq aktorlar var. Həmin dairələr bu regionda Azərbaycanın artan təsirini və müstəqil siyasətini narahatlıqla qarşılayırlar. Bu qüvvələr konstruktiv dialoqu təşviq etmək əvəzinə, gərginliyi gücləndirmək və əldə edilmiş nəticələri sarsıtmaq riski daşıyan fəaliyyətlər həyata keçirirlər. Qərbin bir sıra dairələri həm iqtisadi, həm də siyasi təzyiq alətlərindən istifadə edərək region və onun sərhədlərindən kənardakı resurslara və geostrateji dəhlizlərə nəzarət etməyi planlaşdırırlar.

Qərbin bir sıra dairələri regionda davamlı gərginlik yaradaraq Cənubi Qafqazın hər üç dövlətinə nəzarəti əldə saxlamaq və beləliklə, Qafqaz regionunda öz geosiyasi mövqelərini gücləndirmək niyyəti güdürlər. Bu qüvvələr öz bədnam niyyətlərinə nail olmaq üçün Ermənistandan alət kimi istifadə edirlər, bu ölkənin Azərbaycana qarşı təcavüzkar siyasətini canlandırmağa çalışırlar. Ermənistandan alət kimi sui-istifadə işğal dövründə bir formada, postmünaqişə dövründə isə modifikasiya olunmuş digər formada həyata keçirilir.

Artıq bəzi Qərb ölkələrinin nümayəndələri Ermənistan ordusunda işə başlayıblar. Şərti dövlət sərhədində yerləşdirilən Avropa İttifaqı müşahidə missiyasının tərkibi 200 nəfərə çatdırılıb, yəni tərkibi genişləndirilərək faktiki olaraq NATO missiyasına çevrilib. 2-3 ay ərzində fəaliyyətinə razılıq verilən missiyanın 2 ildən çox nə işlə məşğul olması Azərbaycan tərəfində haqlı sual və narazılıq yaradır. 2025-ci ilin birinci yarısında Avropa İttifaqına sədrlik edəcək Polşanın dövlət başçısı Dudanın şərti dövlət sərhədinə noyabr ayında etdiyi provokativ səfəri də bu missiyanın uzadılması planının tərkib hissəsidir.

> "Azərbaycan xalqı döyüş meydanında öz ərazi bütövlüyünü, suverenliyini və ləyaqətini bərpa etmişdir".
> **İlham Əliyev**

Ermənistan silahlanır, həm də kənar qüvvələr tərəfindən silahlandırılır. İkinci Qarabağ müharibəsi bitdikdən sonra Ermənistan hökuməti hər il hərbi büdcəsini artırmaqda davam edib. Kapitulyasiyadan sonrakı ildə bu ölkənin hərbi büdcəsi 600 milyon ABŞ dolları olmuşdusa, yalnız 2024-2025-ci fiskal ilində Ermənistanın Hindistandan alacağı silahların dəyəri 600 milyon ABŞ dollarına bərabərdir. Lokal xarakterli antiterror tədbirlərin keçirildiyi 2023-cü ildə Ermənistan 2021-ci illə müqayisədə 100 faizdən çox artım edərək hərbi büdcəsini 1,28 milyard dollara çatdırdı. Cari ildə Ermənistanın hərbi xərcləri 1,37 milyard dolları keçib. Postsovet məkanında ümumi daxili məhsulda hərbi xərclərin ən yüksək göstəricisi olan ölkə də 4,2 faiz olmaqla məhz Ermənistandır.

Fransanın regional geosiyasi maraqlarına xidmət edən Ermənistanın silahlandırılması Cənubi Qafqazın təhlükəsizlik mühitinə ciddi mənfi təsir göstərir. Son bir il ərzində Fransa və Ermənistan arasında hərbi əməkdaşlıqla bağlı üç saziş imzalanmışdır. Fransa xarici işlər naziri və Aİ-nin ali səviyyəli rəsmisinin də etiraf etdikləri kimi: "Təhlükəsizlik Ermənistanla ikitərəfli münasibətlərimizin getdikcə daha vacib elementinə çevrilir". Dayanıqlı inkişafa töhfə adı ilə Avropa Sülh Fondu Ermənistanın müdafiə qabiliyyətinin artırılmasına cəlb edilir. Doğrudur, Aİ-nin Ermənistan üçün ayırdığı 10 milyon avro hərbi yardım o qədər böyük olmasa da, bu fakt Ermənistanın silahlandırılmasına birliyin "yaşıl işıq yandırması" kimi təhlükəli tendensiyadan xəbər verir.

Son vaxtlar Ermənistan-ABŞ hərbi əməkdaşlığı da dərinləşməkdədir. 2024-cü ilin iyun ayında iki ölkənin hökumət nümayəndələri ABŞ-Ermənistan Strateji Dialoqunun tərəflərin strateji tərəfdaşlıq səviyyəsinə qaldırılması üzərində işləyir. Planlanan strateji tərəfdaşlıq münasibətlərinin vacib istiqamətlərindən biri kimi hərbi, təhlükəsizlik sahəsində əməkdaşlıq qeyd edilib. 2023-cü ilin iyul ayında Pentaqon nümayəndəsi Ermənistan Müdafiə Nazirliyinə təyin olunub. Həmçinin iyulda Ermənistanda "Eagle Partner 2024" adlı Ermənistan-ABŞ birgə hərbi təlimləri keçirilib. ABŞ Beynəlxalq İnkişaf Agentliyi USAID Ermənis-



tana yardımları faktiki iki dəfə artıraraq 250 milyon dollara çatdırıb.

Ermənistanın dövlət kimi xarici siyasət, hərbi və iqtisadi sahələrdə xaricdən xroniki asılılığı mövcuddur. Fəaliyyəti zamanı bu sahələrdə prinsipiallıq, davamlılıq göstərə bilmir, iqtisadi resursları çatmır, siyasi iradə ortaya qoya bilmir. Bu da nəticədə Ermənistandan digər güclər tərəfindən alət kimi istifadə edilməsinə şərait yaradır.

Ermənistanın bu asılılıqdan qurtulmağa başlaması və regionda davamlı sülhün əldə edilməsi məqsədi ilə 1992-ci ilin martında təsis olunmuş və çoxdan funksiyasını itirmiş ATƏT-in Minsk qrupunun ləğvi üçün addım atmalıdır. Bu məsələ ATƏT çərçivəsində onun qaydalarına görə konsensusla həll edildiyi üçün formal olaraq Ermənistanın razılığı tələb olunur. Şərti dövlət sərhədində yerləşdirilən və faktiki olaraq NATO missiyasına çevrilən missiya ləğv edilməlidir. Ermənistan Konstitutisiyasında Azərbaycana qarşı yer almış ərazi iddiasının ləğvi üçün müvafiq dəyişiklik edilməlidir.

Azərbaycan tərəfinin davamlı sülhün əldə olunması üçün təklif etdiyi məsələlərdən biri də Azərbaycan Prezidentinin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinə müsahibəsində səsləndirdiyi müxtəlif hüquqi platformalarda qaldırılmış beynəlxalq məhkəmə iddialarından qarşılıqlı olaraq əl çəkmək məsələsidir. Azərbaycan və Ermənistan Beynəlxalq Ədalət Məhkəməsində irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı qarşılıqlı olaraq iddia qaldırmışdır. Haaqada yerləşən Daimi Arbitraj məhkəməsində Azərbaycanın Ermənistana qarşı qaldırdığı iddialar var. Belə ki, Avropanın canlı təbiətinin qorunması haqqında 1979-cu il Bern Konvensiyası və 1994-cü il Enerji Xartiyası Müqaviləsi üzrə ciddi beynəlxalq hüquq pozuntularına görə Azərbaycan Ermənistana qarşı 2023-cü ildə dövlətlərarası arbitraj prosesi qaydasında iddia qaldırmışdır. Vaxtı ilə işğal altında olmuş ərazilərdə ətraf mühitin məhvinə, enerji resursları üzərində ölkəmizin suveren hüquqlarını tanımaqdan imtina etməsinə və digər beynəlxalq öhdəlikləri pozmasına görə Ermənistandan Azərbaycana tam kompensasiya ödənilməsi və maliyyə təzminatının qarşılanması tələb edilir. Ermənistanın 30 illik işğal dövründə Azərbaycana vurduğu ziyan 150 milyard dollardan artıq qiymətləndirilir.

Ermənistanın barbar işğalının nəticələrindən biri də Azərbaycanın 12 faiz ərazisinin 1,5 milyon mina və digər partlamamış hərbi sursatlarla çirkləndirilməsidir. Mina terroru nəticəsində 358 nəfər uşaq olmaqla 3400 nəfər həyatını itirib və ya yaralanıb. BMT Təhlükəsizlik Şurasının 1993-cü il qətnamələrində də yer almış işğal olunmuş ərazilərdən güc tətbiq edilərək qovulan və iztirablar yaşamış yüz minlərlə azərbay-




canlı həm də bu səbəbdən həmin torpaqlara bu gün də geri qayıda bilmir.

**İdeoloji və informasiya təxribatları və bu sahədə təhlükəsizliyin təminatı**

44 günlük Vətən müharibəsinin gedişində Prezident İlham Əliyev dünyanın ən böyük media qurumlarına 30-dan çox müsahibə verməklə real mübarizə və diplomatik silah üslubunu nümayiş etdirdi. Təcavüzlə bağlı əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdıran və münaqişə ilə bağlı dünyanın fikrini dəyişdirməyə müvəffəq olan Azərbaycan Prezidenti informasiya müharibəsində də qalib gəldi.

Postmüharibə dövründə dövlətimizin və cəmiyyətimizin qarşısında duran vacib vəzifələrdən biri də ideoloji və informasiya təhlükəsizliyinin təminatı ilə bağlıdır. Belə ki, Vətən müharibəsi və lokal xarakterli antiterror əməliyyatları nəticəsində yaranmış yeni geosiyasi reallıqlar fonunda Azərbaycana qarşı ideoloji təxribatlar artmağa başlamışdır. Bu təxribatlar müxtəlif platformalar - mətbuat, sosial şəbəkələr, parlamentlər, qeyri-hökumət təşkilatları vasitəsi ilə həyata keçirilir. Beynəlxalq birliyin iqlim dəyişikliyinin nəticələri ilə mübarizəyə dair aktual məsələləri müzakirə etdiyi bir vaxtda - COP29-un keçirildiyi günlərdə Aİ-nin kiçik üzv dövləti olan Luksemburqun Deputatlar Palatasından ölkəmizə qarşı növbəti dəfə platforma kimi sui-itifadə edildi. Noyabrın 20-də Azərbaycanı əsassız ittihamlarla hədəfə alan qətnamə qəbul olundu. Ölkəmizə qarşı şiddətli qarayaxma kampaniyasının aparıldığı ədalətsiz və qeyri-obyektiv münasibətin tüğyan etdiyi siyasi məkan isə Avropa Parlamentidir.

Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının cari il dekabrın 21-də yaydığı hesabatında bildirilir ki, böyük maliyyə vəsaitinə və siyasi gücə malik dövlətlər hədəflərində olan başqa bir dövlətə beynəlxalq insan hüquqları təşkilatları vasitəsilə dayanmadan müxtəlif məsələlərlə bağlı hücumlar edir, bəyanatlar verdirir, beynəlxalq nüfuzunu zədələməyə çalışır, sanksiya üsulları ilə təhdid edirlər.

Xüsusilə COP29 ərəfəsində 200-ə yaxın nəzarətdə olan media qurumu Azərbaycanla bağlı neqativ məlumatlar tirajlayıb. Belə ki, hesabatda ötən dövr ərzində aparılan media kampaniyası çərçivəsində dünyanın ən azı 25 nüfuzlu və 180-ə yaxın o qədər də populyar olmayan media qurumunun Azərbaycanla bağlı neqativ məlumatlar yaydığı qeyd edilmişdir.

Ölkəmiz əleyhinə aparılan qarayaxma kampaniyasına qarşı mübarizə kompleks yanaşma tələb edir. Bu qarayaxmalar ilk növbədə ölkənin imicinə, beynəlxalq mövqelərinə zərbə vurmağa hesablandığından onlarla mübarizədə başlıca yol həm də ictimai diplomatiya və elm sahəsində fəaliyyətin genişləndirilməsidir.



**Şanlı Zəfərimizdən sonra intensivləşən parlament diplomatiyasının rolu**

44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın qalib dövlət kimi təmsilçiliyi çərçivəsində xarici siyasətin parlament ölçüsü sahəsində də postmüharibə dövrünün reallıqlarının təbliği aparılır. Dövlətimizin vahid xarici siyasət kursunun həyata keçirilməsinə həm ikitərəfli, həm də çoxtərəfli formatda aktiv parlament diplomatiyası vasitəsi ilə verilən töhfələri qeyd etmək istərdim. Vətən müharibəsindən sonrakı illərdə Milli Məclis 100-ə yaxın dövlətin və 40-dan çox beynəlxalq təşkilatın iştirakı ilə 30-dan artıq beynəlxalq tədbirə ev sahibliyi etmişdir. 80-dən çox ölkəyə isə ikitərəfli və çoxtərəfli formatda görüşlər və danışıqlarda iştirak məqsədi ilə səfərlər həyata keçirilmişdir. Hazırda Milli Məclis Türk Dövlətlərinin Parlament Assambleyasına, Asiya Parlament Assambleyasına, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə uğurla sədrlik edir.

**Perspektivlər**

Azərbaycan Ordusunun hərbi taktikası öyrənilərkən belə qənaətə gəlinib ki, İkinci Qarabağ müharibəsi zamanı istifadə edilən döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və müvafiq ali hərbi məktəblərin dərsliklərinə salınaraq öyrənilir. ABŞ Hərbi Akademiyasının və Pentaqonun rəsmiləri Azərbaycan Ordusunun hərbi əməliyyatlarının öyrənilməsi zərurətini qeyd ediblər.

Azərbaycan Prezidentinin Avropa paytaxtlarından birinə səfəri çərçivəsində beynəlxalq mətbuata müraciətlə dediyi: “Azərbaycan xalqı döyüş meydanında öz ərazi bütövlüyünü, suverenliyini və ləyaqətini bərpa etmişdir” fikri qalib dövlətimizin hər bir vətəndaşını yeni çağırışları dəf etmək üçün bundan sonra da əzmkarlıq, vətənpərvərlik və peşəkarlıq göstərməyə səsləyir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qlobal və regional miqyasda sülhü və konstruktiv əməkdaşlığı özündə ehtiva edən beynəlxalq təşəbbüsləri beynəlxalq birlik tərəfindən yüksək dəyərləndirilir və dövlətimizin mövqelərinin yüksəlməsinə xidmət edir. Cənab Prezidentin rəhbərliyi altında qlobal arenada praqmatik, müstəqil və prinsipial xarici siyasət həyata keçirən Azərbaycan etibarlı tərəfdaş kimi qəbul edilir. Şərqlə Qərb arasında birləşdirici halqa rolunu oynayan Azərbaycan qlobal əhəmiyyətli təşəbbüsləri və kritik məsələlərə sərgilədiyi obyektiv mövqe sayəsində öz beynəlxalq nüfuzunu dinamik şəkildə artırır.



# Quba Xan Sarayı

## Mədəni irsimizi qorumalı və bərpa etməliyik



**Əlibala Məhərrəmzadə**
Milli Məclisin deputatı

Min illərdir ki, xalqlar öz mədəni irsini formalaşdırır və qorumağa çalışırlar. Səlahiyyətli qurumların, əlaqədar təşkilatların isə mühafizə məsələləri ilə bağlı daha bir funksiyası var: hər hansı səbəbdən itmiş, zədələnmiş və ya hansısa təsirə məruz qalmış artefaktları bərpa etmək.

Azərbaycanın dilbər guşələrindən biri olan Qubanın əsrlərin sınağına tab gətirə bilməyərək yer üzündən silinən Xan Sarayı bu qəbildəndir. Bu tarixi abidənin aqibəti bir qubalı olaraq məni uşaqlıqdan düşündürüb. Zəmanəsinin bu möhtəşəm tikilisi barədə ata-babalarımızın ürək ağrısı ilə danışdıqlarından çox təsirlənmişəm. Təsəvvürümdə onu xanlıqlar dövründə inşa edilmiş, dəfələrlə baş çəkdiyim Şəki Xan Sarayı kimi canlandırmışam.

Mədəniyyətin çox güclü bir qolu olan memarlıq və şəhərsalma bilavasitə dövrün siyasi-iqtisadi mənzərəsinin təsiri ilə formalaşır. Bu baxımdan Quba Xan Sarayı barədə fikirlərə XVIII əsrin ortalarında Quba xanlığının iqtisadi-siyasi və mədəni inkişafı barədə yazılan mənbələrdə rast gəlinir. Çünki Quba xanlığı 1726-1810-cu illərdə Azərbaycanın şimal-şərqində ən güclü feodal dövlətlərdən biri olmuşdur. Quba şərq üsulu ilə divar və qalalarla möhkəmləndirilmiş bir şəhər idi. Xanlığın əsasını 1726-cı ildə Hüseynəli xan



qoyub. Xanlıq şərqdən Xəzər dənizi, şimaldan Dərbənd və Tabasaran əraziləri, qərbdən Şəki, cənubi-qərbdən Şamaxı, cənubdan isə Bakı xanlıqları ilə həmsərhəd idi. Onun iqamətgahı əvvəlcə Xudat qalası, 1735-ci ildən isə Quba şəhəri olub.

Qubanın yaranma tarixi və şəhərin toponimi barədə fikirlər uzun müddət mübahisə predmeti olmuşdur. Bu yaşayış məskəninin tarixi səhvən XVIII əsrin əvvəllərinə aid edilir və Hüseynəli xanın adı ilə bağlanır. Halbuki Hüseynəli xan Quba şəhərinin yox, xanlığın əsasını qoyub. Qubanın gerçək tarixi isə Milad təqvimi ilə IV əsrə təsadüf edir. Rayonun ərazisində bu qəbildən aparılan arxeoloji qazıntılar nəticəsində 60-dan çox qədim abidə aşkarlanmışdır. Hətta tanınmış tarixçi-arxeoloq Cabbar Xəlilov Quba şəhəri ilə Nərimanoba kəndi arasında, Ağçayın sol sahilində yerləşən Sandıqtəpə şəhərgahında və qəbiristanlığında apardığı qazıntılar zamanı qədim şəhərin xarabalıqlarını aşkar etmişdir.

Yazılı mənbələrdə də "XVIII əsrin əvvəlləri" versiyasını alt-üst edən faktlar az deyildir. Hələ orta əsrlərdə venesiyalı diplomat Amvrosi Kontarini özünün "Səfərnamə" əsərində yazırdı: "…Biz Şamaxıdan Dərbənd şəhərinə yola düşdük. Yolumuzun yarısında kiçicik, ancaq sözün doğrusu, gözəl bir şəhər yerləşir. Burada o qədər gözəl meyvələr, xüsusilə alma yetişir ki, baxdıqca öz gözlərinə inana bilmirsən". Əlbəttə, aydın idi ki, söhbət Qubadan gedir.

1718-ci ildə Rusiya səfirliyinin nümayəndəsi A.Lopuxinin hazırladığı icmalda da Quba haqqında xeyli məlumatla rastlaşırıq: "Şəhər 600 həyətdən ibarətdir, əhalisi olduqca sərbəstdir, İran hakimiyyətinə tabe olmurlar. Quba xanları şah fərmanı ilə təyin olunsalar da, əvvəlki xanın varisliyi əsas götürülür. Qubada döyüşə hazır vəziyyətdə olan 500 hərbçi yaşayır".

Abbasqulu ağa Bakıxanov, Firidun bəy Köçərli kimi onlarla alimlər "Quba" toponiminin mənşəyinin "qübbə" sözündən götürüldüyünü iddia edirlər. Hətta böyük satirik şairimiz M.Ə.Sabir şeirlərində "Qübbə şəhəri" ifadəsini dəfələrlə işlətmişdir. Opponentlər bunu Quba şəhərinin quruluşuna görə, Nadir şahın böyük şah çadırının qübbəsinə bənzəməsi ilə əsaslandırırdılar. K.F.Qan isə şəhərin qübbəvari yüksəklik üzərində yerləşdiyindən "Qübbə" adlandırıldığını söyləyirdi.

Əslində isə "Quba" sözü "qübbə" ifadəsinin şəkil dəyişməsi deyil. O, daha qədimlərdən mövcud olmuşdur ki, bunu Türkmənistan, Qaraqalpak, Qazaxıstan, Kabardin-Balkar və digər ərazilərdə yaşı əsrlərlə ölçülən Qubatəpə, Qubasəngər, Qubadağ, Kuba Taş, Kubadalqı kimi toponimlər sübut edir. Səudiyyə Ərəbistanının müqəddəs Məkkə şəhərində Quba adlı məscidin mövcudluğunu da bura əlavə etsək, mənzərə tam aydınlaşar. Bu toponimin kökündə məhz elə "Quba" kəlməsinin olmasını tədqiqatçı Əli Hüseynzadə də daha geniş və ətraflı sübutlarla ortaya çıxarmışdır.

Quba Xan Sarayının taleyinə bənzəyən başqa bir abidəmiz də Qubanın mərkəzində yerləşən, böyük tarixi əhəmiyyətə malik əzəmətli Ər-

Tarixi Quba Qalası və Quba şəhəri





**Qubalı Fətəli xanın portreti. 1945-ci il**
(Rəssam Səttar Bəhlulzadə)

dəbil məscididir. Bu məkan sovetlər dönəmində - 1974-cü ildə kimlərinsə səhlənkarlığı üzündən yanıb kül olmuşdu. Düzdür, sonradan məscid yenidən bərpa edildi, amma nədənsə bu, məscidin əvvəlki əzəmətini özündə əks etdirə bilmədi.

Quba Xan Sarayının hansı səbəbdən yer üzündən silinməsi hələ də qaranlıqdır. Onun tam memarlıq və planlaşdırma xüsusiyyətlərini əks etdirən qrafik materiallar da dövrümüzə gəlib çatmayıb. İnternet resurslarında Quba Xan Sarayının qalıqları kimi nümayiş etdirilən fotolar və qrafik materiallar isə əslində Gəncə Xan Sarayına məxsus tikili qalıqların əksidir.

Amma biz əlimizdə olan tarixi mənbələrə istinad edərək sarayın görünüşü barədə müəyyən bilgilər əldə etmişik və bu möhtəşəm tikilini bərpa etmək yönündə müəyyən işlər görülə bilər. Mən bir qubalı, bir millət vəkili kimi bütün qubalıların arzusu olan bu addımı atmaqda israrlıyam.

## Quba Xan Sarayının tarixi

1770-ci ildə Qubaya səfər etmiş Rusiya Elmlər Akademiyasının akademiki S.Q.Qmelinin yol qeydləri əsasında sarayın tikilmə tarixini müəyyənləşdirə bilərik. O, şəhərin və Xan Sarayının quruluşunun qısa təsvirini vermişdir. Yerli əhalinin dediklərinə əsaslanaraq, sarayın tikilmə və şəhərin ətrafının daş hasarla hörülmə tarixi 30 il əvvələ, yəni 1740-cı ilə təsadüf edir.

Qasi Abdullayevin rus dilində çap edilmiş “Azərbaycan XVIII əsrdə və Rusiya ilə qarşılıqlı münasibətləri”, Tofiq Mustafazadənin “Quba xanlığı” və Şahin Fərzəlibəylinin “Quba tarixi” kitablarından aldığımız kiçik həcmli məlumatlar onu deməyə əsas verir ki, xanlıq dövrünün mədəniyyət nümunələrindən biri kimi Hüseynəli xan tərəfindən inşa olunmuş və sələfləri tərəfindən bərpa edilib dekorativ bəzək verilmiş bu saray bişmiş kərpicdən tikilmişdi. Tavanı gül şəkilləri ilə bəzədilmiş sarayın divarlarında zəngin kirəc dekorasiyaları və fərqli təsvirlər mövcud idi.

Hüseynəli xan vəfat etdikdən sonra 1758-ci ildə taxta çıxan oğlu Fətəli xan böyük ərazilər ələ keçirir, ətrafda Quba xanlığının ən güclü hakimiyyətə və orduya malik olmasını təmin edir, bu sarayın daha da gözəlləşməsinin və zənginləşməsinin qeydinə qalırdı.

Sarayın hansı memar tərəfindən inşa edilməsi barədə günümüzə dəqiq bir məlumat gəlib çıxmasa da, müəyyən fərziyyələr mövcuddur ki, bunların içərisində biri xüsusilə inandırıcı görünür: “Quba Xan Sarayının memarı Hacı Zeynalabdin Şirazi ola bilər. Quba xanı ilə rəqabət aparan Şəki xanı Məhəmmədhüseyn xan Müştaqın həmin memara Şəkidə Qubadakından daha böyük və daha əzəmətli bir saray inşa etməyi sifariş verməsi, nəticədə Şəki Xan Sarayının ərsəyə gəlməsi reallığa çox yaxındır. Şəki sarayının dəqiq tikilmə tarixi - 1762-ci il də versiyanın inandırıcı olmasına dəlalət edir”.

Tarixi mənbələrdə də Quba Xan Sarayının adına çox az rast gəlirik. Amma sarayın rusiyalı məmur P.Butkov tərəfindən verilmiş bir təsviri var. O, Qubaya Şeyxəli xanın

hakimiyyəti dövründə səfər etdiyi üçün Xan sarayını xanın evi kimi göstərmişdi: "Şeyxəli xanın evi zərif kərpiclər və yonulmamış daşlardan tikilməklə üzlənməmişdir. Bəzi otaqlar isə üzlənmişdir və oradakı sənətkar işinə təəccüblənməmək mümkün deyil. Alebastr üzərində oyma işləri isə elə səviyyədədir ki, təqdir etməyə bilmirsən. Orada plafonlar gül rəsmləri ilə bəzədilmişdir".

Memarlıq abidələrimizi öyrənən rus Şebilkin yazır: "Quba sarayı öz zəngin naxışlarına görə XVIII əsrin digər saray tikililərinin xarakterik nümunəsidir".

Quba Xan Sarayı barədə  başqa bir tarixi mənbə isə rus diplomatı Mixail Markovun Həştərxan qubernatoruna yazdığı məktubdur. Burada qeyd edilir ki, saray İrandan qaçıb gələn bir çox əyanlar üçün sığınacaq rolunu oynayır. Hüseynəli xan II Təhmasibin oğlu Süleyman Mirzəyə də burada sığınacaq vermişdir.

## Sarayın quruluşu

Azərbaycanın memarlıq sənəti ümumşərq bədii memarlıq sisteminin məcrasında milli spesifik çalarları və lokal memarlıq məktəblərinin rolu ilə səciyyələnir. Ölkəmizdə bu sənətin çoxplanlı inkişaf prosesində regional memarlıq məktəblərinin və Şərq ölkələri ilə çoxtərəfli sıx memarlıq əlaqələrinin təcrübəsi əsas faktorlardır.

XVIII əsrdə Azərbaycan memarlığında Arran memarlıq məktəbi bərqərar idi. Quba Xan Sarayı da bu memarlığın bir nümunəsi hesab edilməlidir. Həmin məktəbin səciyyəvi xüsusiyyətləri əsas inşaat materialının kərpic olması, onların çaydaşı ilə birlikdə naxış şəklində işlədilməsi, hörgüyə ağ daşın da əlavə edilməsi, əlvan, naxışlı hörgü prinsipi. Bir sözlə, rəngarənglik kəsb edən polixromik hörgü Quba Xan Sarayında da dominantlıq təşkil etmişdir.

XVIII əsr memarlığında monumental tikililərin miqyası, böyüklüyü, ifadəli formaların mürəkkəbləşdirilməsi onlarda dekordan geniş istifadədən ibarət olmuşdur. Bu dövr Azərbaycan memarlığının ümumi inkişaf kontekstində lokal memarlıq məktəblərinin spesifikasını aydın göstərir.

Xan sarayının memarlıq ənənələri o dövrdə uğurla davam etdirilib, ona yeni nəfəs verilib. Bura dəbdəbəli bəzəklər vurulmuş ziyafət zalları, çoxsaylı şəxsi otaqlar, sututarlı həyətlər, güllük, meyvə ağacları, tağlı eyvanlar, qalereyalar,  örtüklü balkonlarla dövrələnmə aiddir.




Xanlıqlar dövrü mədəniyyətinin bir səciyyəvi cəhəti də sarayların füsunkar təbiət mənzərələri ilə əhatələnməsi idi. Quba Xan Sarayı dəniz səviyyəsindən 642 metr yüksəklikdə, Qudyalçayın yaratdığı terrasda, çay sahilindən 33-34 metr yüksəklikdə, Qaraçaya kimi sıx meyvə bağları ilə əhatələnmiş, qərb tərəfdən Şahdağa açılan misilsiz mənzərə fonunda qərarlaşmışdı. Ənənəvi olaraq epiqrafika portallarının tağlarının arxivoltlarında, giriş aşırımlarının üst pannosunda, timpanlarda "п" şəkilli çərçivələr də yer alırdı. Demək, Quba Xan Sarayı da bu elementlərlə - çoxrəngli rəsm harmoniyası, bitki, antropomorf, zoomorf təsvirlər və çoxfiqurlu kompozisiyalarla zəngin olmuşdur.

Biz Quba Xan Sarayını bərpa etmək istəsək, əlimizdə qeyd etdiyim pərakəndə istinadlardan başqa heç bir məlumat yoxdur. Yəni günümüzə sarayın tam memarlıq və planlaşdırma xüsusiyyətlərini əks etdirən qrafik materiallar gəlib çıxmayıb. Bu o deməkdir ki, biz, sadəcə, XVIII əsrin ortalarına təsadüf edən Azərbaycan memarlığının aparıcı xüsusiyyətlərinə əsaslanmalı olacağıq. Demək, bütün bu ipucları bizim peşəkar bərpaçı rəssamlarımıza Quba Xan Sarayının eksteryer və interyerinin orijinala yaxın görüntülərini hazırlamağa yardımçı ola biləcək.

İnşallah, əl-ələ verib XVIII əsr Azərbaycan memarlığının incilərindən olan Quba Xan Sarayını bərpa edəcəyik. Əminliklə  bildirirəm ki, bu nəcib iş və gözəl missiya Zəfər qazanmış Azərbaycanın bu gününə veriləcək layiqli bir töhfə olacaq. Eyni zamanda,  inanıram ki, Simurq quşu kimi yenidən küllərindən doğulacaq Quba Xan Sarayı bu bölgənin ən əsas mədəniyyət abidələrindən birinə çevriləcək.



# Azadlığın dörd ili - Kəlbəcər doğma sakinlərini qarşılamağa hazırlaşır



**Mircəlil Qasımlı**
Milli Məclisin deputatı

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun Vətən müharibəsində qazandığı möhtəşəm Zəfər tariximizin ən parlaq səhifəsidir. Bu qələbə nəticəsində 2020-ci il noyabrın 25-də Kəlbəcər rayonu mənfur işğalçılardan azad edildi. Azərbaycanın igid oğulları ən yüksək və olduqca çətin relyefə malik bu dağ rayonuna bir güllə belə atmadan daxil oldu. Çünki Ali Baş Komandan İlham Əliyevin siyasi və hərbi məharəti, Azərbaycan Silahlı Qüvvələrinin 44 gün davam edən hərbi əməliyyatlar zamanı göstərdiyi şücaətlər Ağdamı, Kəlbəcəri və Laçını öz xoşu ilə təhvil vermək istəməyən Ermənistanı ağ bayraq qaldırmağa, tarixi torpaqlarımızdan çıxmağa məcbur etdi.

### Kəlbəcərlilər daim doğma torpaqlarına qayıdacaqlarına əmin idilər

Kəlbəcərin 1993-cü il aprelin 2-də Ermənistan hərbi birləşmələri tərəfindən işğalı nəticəsində 53 mindən artıq Kəlbəcər sakini öz doğma torpaqlarından didər-




gin düşdü. Bu işğal nəticəsində 500-dən çox dinc sakin öldürüldü, 321 nəfər əsir götürüldü və itkin düşdü. Ağır şəraitdə öz doğma torpaqlarını tərk etmək məcburiyyətində qalan Kəlbəcər sakinləri ölkəmizin 56 rayonunun ərazisində müvəqqəti məskunlaşmağa məcbur oldular.

Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa rəhbərliyi ilə keçmiş məcburi köçkünlərin, o cümlədən kəlbəcərlilərin məişət şəraitinin yaxşılaşdırılması istiqamətində daim mühüm addımlar atılır, onların sosial rifahının yüksəldilməsi diqqətdə saxlanılırdı. Ötən illər ərzində mütəmadi olaraq keçmiş məcburi köçkünlərlə görüşlər keçirilir, onları narahat edən problemlərin həllinə hər zaman xüsusi qayğı göstərilirdi.

Ermənilər tərəfindən işğal dövründə Kəlbəcərin demək olar bütün yaşayış məntəqələri, infrastrukturu məhv edilmiş, onlarla tarixi-mədəniyyət abidəsi, muzeylər, sosial obyektlər, məktəblər, uşaq bağçaları, kitabxanalar, xəstəxanalar, yüzlərlə inzibati bina, minlərlə mənzil tamamilə dağıdılmış və rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınmışdı. "İstisu" sanatoriyası və digər mühüm obyektlər erməni quldurları tərəfindən xarabazara çevrilmişdi.

BMT Təhlükəsizlik Şurası tərəfindən işğalçı qüvvələrin Kəlbəcərdən və Azərbaycanın işğal olunmuş digər rayonlarından dərhal çıxarılmasını tələb edən qətnamələrin qəbul edilməsinə baxmayaraq, 27 il ərzində bu sənədlər icra olunmamış qalmışdı. Heç bir beynəlxalq təsisat Ermənistandan sənədlərin icrasını tələb etmədi. Bu ədalətsizlik isə düşməni daha da azğınlaşdırdı və torpaqlarımızın 20 faizinin işğalı ilə nəticələndi.

Azərbaycan xalqı bütün bu işğal dövrü ərzində beynəlxalq ictimaiyyətin problemin həllinə laqeyd münasibətinin şahidi oldu. Beynəlxalq hüququn tələblərinin icra edilməməsi və bəzi dairələr tərəfindən Ermənistana göstərilən dəstək bu ölkəni daha da azğınlaşdırır, Azərbaycana qarşı daha amansız təxribatlar törətməyə, yeni ərazilər işğal etməyə həvəsləndirirdi.

Bütün bunlara baxmayaraq, Ermənistanın 30 ilə yaxın davam edən hərbi təcavüzü dövründə hər bir Kəlbəcər sakini öz doğma ocaqlarına qayıdacaqlarına əmin idilər və dövlətimizin başçısının yürütdüyü qətiyyətli siyasət nəticəsində işğala son qoyulacağına inanırdılar.




**Prezident-xalq birliyi Vətən müharibəsi dövründə "dəmir yumruğ"a çevrilərək torpaqlarımızın azad edilməsini şərtləndirdi**

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ölkəmizi çox ağır böhranlardan xilas etdi. Məhz Ulu Öndərin müdrik və qətiyyətli siyasəti nəticəsində müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətin dayaqlarının formalaşdırılması istiqamətlərində ciddi addımlar atıldı. Azərbaycan inkişaf və tərəqqi yoluna qədəm qoydu. Bütün sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində mühüm islahatlar həyata keçirildi.

Ulu Öndərin müəyyənləşdirdiyi siyasi xətti qətiyyətlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun döyüş qabiliyyəti ən yüksək səviyyəyə qaldırıldı, peşəkar hərbçilər hazırlandı, ordumuz ən müasir silah və sursat, hərbi texnika ilə təchiz edildi.

Dahi şəxsiyyətin əsasını qoyduğu müasir müstəqil Azərbaycan Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə daha böyük inkişaf yolu qət etdi, beynəlxalq münasibətlər sistemində yüksək nüfuz sahibinə çevrildi. Azərbaycan artıq bütün sahələrdə Ermənistanı dəfələrlə üstələyirdi. Xalq qətiyyətli siyasi iradəyə malik liderinin ətrafında sıx birləşərək illərdir davam edən ədalətsizliyə, işğala son qoymaq əzmində idi. 2020-ci il sentyabrın 27-də düşmənin təxribatlarına cavab olaraq başlayan Vətən müharibəsi dövründə "dəmir yumruğ"a çevrilən həmrəyliyimiz torpaqlarımızın, o cümlədən Kəlbəcərin azad edilməsini şərtləndirdi.

Füsünkar təbiətə, zəngin tarixə, təbii sərvətlərə malik Kəlbəcər əlverişli strateji mövqeyinə görə düşmən üçün xüsusi əhəmiyyət kəsb edirdi. Vətən müharibəsinin ilk günlərində Kəlbəcərin şimal hissəsində aparılan uğurlu əməliyyatlar nəticəsində bir sıra strateji yüksəkliklər azad olunmuşdu ki, bu da ordumuza düşmənin əsas təminat yollarına nəzarət etmək imkanı verirdi. Bu üstünlük sonrakı günlərdə də uğurlu əməliyyatların təşkilinə və düşmənə sarsıdıcı zərbələrin vurulmasına əsaslı zəmin yaratdı.

2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanması ilə başa çatan Vətən müharibəsi Azərbaycanın tam qələbəsi ilə yekunlaşdı, Kəlbəcər, Ağdam və Laçın bir güllə atılmadan, şəhid vermədən azad edildi.

Kəlbəcərin Azərbaycana təhvil verilməsi prosesi xalqımızın humanistliyini, ermənilərin isə vəhşiliyini növbəti dəfə dünyaya

nümayiş etdirdi. Ermənistan 1993-cü ildə Kəlbəcəri işğal edərkən əhaliyə rayonu tərk etmək üçün cəmi 10 saat vaxt vermişdi. Üstəlik, silahsız sakinlərə, yaşlılara, uşaqlara qarşı amansız cinayətlər törətmişdi. Bu xüsusda, 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalı zamanı Başlıbel kəndində ermənilər tərəfindən törədilən faciəni xüsusi qeyd etmək istərdim. Bütün bunlara baxmayaraq, hər zaman humanizm dəyərlərini uca tutan Azərbaycan xalqı Kəlbəcərin Ermənistan tərəfindən təhvil verilməsi zamanı da bu ali dəyərlərə sadiqliyini nümayiş etdirdi. Belə ki, üçtərəfli Bəyanatın 6-cı bəndinə əsasən Ermənistan Respublikası 2020-ci il noyabrın 15-də Kəlbəcər rayonunu Azərbaycan Respublikasına təhvil verməli idi. Lakin Ermənistan tərəfi Kəlbəcərin təhvil verilməsi üçün əlavə 10 gün vaxt istədi. Azərbaycan dövləti və xalqı müddətin noyabrın 25-dək uzadılmasına razılıq verdi.

Kəlbəcərdə qanunsuz məskunlaşmış ermənilər isə tarixi torpaqlarımızı tərk edərkən öz xislətlərini, terrorçu mahiyyətlərini bütün dünyaya nümayiş etdirərək evləri, meşələri yandırdılar, ağacları kəsdilər. Təəssüflər olsun ki, ətraf mühitin, ekoloji sistemin qorunmasının qlobal əhəmiyyət kəsb etdiyi bir dövrdə dünyanın gözü önündə baş verən bu cinayətlərə də beynəlxalq ictimaiyyət heç bir reaksiya vermədi.

## Ermənilər tərəfindən dağılan Kəlbəcər yenidən qurulur

Bu gün Böyük Qayıdış proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ən müasir şəhərsalma standartlarına uyğun şəkildə aparılan geniş miqyaslı quruculuq prosesi sürətlə davam etdirilir.

Kəlbəcərdə də quruculuq işləri geniş vüsət alıb. Yaşayış binaları, mühüm infrastruktur layihələri həyata keçirilir. Kəlbəcər şəhərində inşa olunan yaşayış kompleksinin tikintisi uğurla davam etdirilir, yol infrastrukturu yenidən qurulur, müasir tunellər inşa olunur. Müasir standartlar əsasında layihələndirilən şəhərdə gözəl istirahət guşələri, sosial-məişət obyektləri, velosiped yolları yaradılır. Bir sözlə, kəlbəcərlilərin rahat və firavan yaşamaları üçün bütün lazımi addımlar atılır.

"Yaşıl enerji" zonasına çevriləcək Kəlbəcərdə bu istiqamətdə davamlı işlər aparılır. Burada inşa olunan elektrik yarımstansiyaları, su elektrik stansiyaları Kəlbəcərin təmiz enerji ilə təchizatını tam təmin edəcək.

Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncamla 25 noyabr tarixi "Kəlbəcər Şəhəri Günü" kimi qeyd edilir. Doğma torpaqlarının ən qısa zamanda nəinki Azərbaycanın, bütün dünyanın ən müasir infrastruktura malik bölgələrindən birinə çevriləcəyinə əmin olan kəlbəcərlilər bundan sonra hər il "Kəlbəcər Şəhəri Günü"nü dağlar qoynunda yerləşən bu diyarda böyük qürur və iftixar hissi ilə qeyd edəcəklər.

**Qarabağ Azərbaycandır!**
**Kəlbəcər Azərbaycandır!**





# LAÇIN - tarixi Zəfərimizin qalibiyyət səhifəsi



**Rövşən Muradov**
Milli Məclisin deputatı

2020-ci il dekabrın 1-də erməni işğalı altında olan son rayonumuz Laçın Azərbaycan, Ermənistan və Rusiya dövlət başçılarının imzaladıqları 2020-ci il 10 noyabr tarixli Birgə Üçtərəfli Bəyanata uyğun olaraq dinc yolla özünün əsl sahibinə qaytarıldı. Qürur hissi keçiririk ki, iyirmi səkkiz illik erməni işğalından azad olunan Laçın rayonunda artıq 4 ildir ki, üçrəngli şanlı Azərbaycan Bayrağı dalğalanır. Respublikamızın ən böyük rayonlarından biri olan Laçının şəhid verilmədən erməni işğalından azad edilməsi ölkəmizin ictimai-siyasi həyatında möhtəşəm və parlaq tarixi hadisədir.

Belə ki, Laçının erməni işğalçılarından azad olunmasından danışanda bir məsələyə xüsusi diqqət yetirmək lazımdır: əgər Şuşa, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Hadrud, Suqovuşan hərbi yolla, yəni ağır döyüşlər nəticəsində işğaldan azad edilmişdirsə, Laçın, Kəlbəcər və Ağdam hərbi və siyasi yolla düşmən tapdağından azad olmuşdur. Bu rayonların döyüşsüz, güllə atılmadan belə azad edilməsi tarixin bir möcüzəsidir. Bu, həm siyasi, həm də hərbi nöqteyi-nəzərdən ölkəmizin olduqca böyük uğurudur.

Bilirik ki, Laçın 1992-ci il mayın 18-də Şuşa şəhərinin Turşsu deyilən ərazisindən və Ermənistan istiqamətindən hücuma keçən düşmən qoşunları tərəfindən işğal edilmişdir. İşğal nəticəsində rayonun əhalisi etnik təmizləməyə məruz qalmışdır. 300-dən artıq hərbi və mülki şəxs həlak olmuş, itkin düşmüşdür. 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə




və müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri işğalçılar tərəfindən talan və məhv edilmişdir. Laçın rayonunda 54 dünya və 200-dən artıq yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalmışdır.

1992-2020-ci illərdə ermənilər Laçında qanunsuz məskunlaşmaqla bərabər rayonun sərvətlərini mənimsəmiş və güman edirmişlər ki, onlar bu torpaqlarda əbədi qalacaqlar. Lakin Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun döyüş meydanında əldə etdiyi mütləq qələbələr düşməni 2020-ci il  noyabrın 10-da kapitulyasiya aktını imzalamağa və Laçından çıxmağa vadar etdi. Nəticədə müzəffər Azərbaycan Ordusunun döyüş meydanlarında qazandığı qələbələr siyasi müstəvidə də yeni Zəfərlər əldə etməyə imkan yaratdı.

Ötən 17 il ərzində Azərbaycan tərəfinə dəfələrlə müxtəlif xarici dairələrdən yalnız beş rayonun qaytarılmasına razılaşmaq üçün təzyiqlər edilsə də, Ali Baş Komandan iqtisadi, hərbi, diplomatik baxımdan güclənərək Vətən müharibəsi modelini seçməyi üstün tutdu və bu model də özünü doğrultdu. Azərbaycan isə bu gedişi ilə yeni hərbi-siyasi reallıq yaratdı. Qarabağın ətrafındakı 7 rayonu məhz Azərbaycanın özünün döyüşərək hərbi-siyasi yolla geri alması möhtəşəm tarixi qələbəmizin daha bir təntənəsi, düşmənin isə hərbi kapitulyasiya aktının növbəti dəfə təsdiq edilməsidir.

Prezident nitqində indiyə qədər heç vaxt cəmiyyətə açıqlanmayan bir məqamı dilə gətirdi. Belə ki, ölkə başçısı bildirdi ki, danışıqlar prosesində açıq-aşkar səsləndirilməsə də, Laçın rayonunun hansısa formada Ermənistanda qalmalı olduğu fikri mövcud idi. Ermənistan tərəfi bütün Laçın rayonunun onlara dəhliz kimi verilməli olduğu mövqeyindən çıxış edirdi. Bunun nəticəsidir ki, Laçın rayonunda digər işğala məruz qalan rayonlarımızdan fərqli olaraq qanunsuz məskunlaşmanın həcmi daha böyük idi. ATƏT-in faktaraşdırıcı missiyası tərəfindən Laçın rayonu ərazisində 8-11 min nəfər erməninin yerləşdirildiyi müəyyən edilmişdi. Azərbaycanın məlumatlarına görə isə bu rəqəm 13 mindən artıq idi. Bütün hallarda ölkəmizin mövqeyi bir idi: münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır və belə də oldu. Bütün bu illər ərzində dövlətimiz var gücünü səfərbər edib ölkəmizi həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm iqtisadi məsələlərin həllində, həm də ordu quruculuğunda gücləndirdi. Bu gücü "dəmir yumruq" formasına gətirdi, düşmənin belini qırdı və bu gün regionda yeni hərbi-siyasi reallıq yaratdı.

Laçının işğaldan azad edilməsi Azərbaycanın hərb meydanında



olduğu kimi, diplomatik sahədə də qələbəsidir. Bu isə o deməkdir ki, ölkə başçısı Ali Baş Komandan kimi döyüşdə işğalçı ölkənin hərbi, Prezident kimi isə diplomatiya masasında siyasi rəhbərliyini məhv etdi. Ölkəsində, beynəlxalq platformalarda məsuliyyətsiz bəyanatları ilə diqqətdə qalmaq kimi ucuz şoular yaradan Ermənistan rəhbəri Azərbaycanın birlik rəmzi olan "dəmir yumruğ"un gücü qarşısında diz çökərək təslimçi sənədə imza atdı, Ağdam, Kəlbəcər və Laçın işğaldan azad olundu. Zəfər savaşının şəriksiz lideri olan Prezident İlham Əliyevin dediyi kimi, "biz Xocalı qatillərini məhv etdik". Ermənistanın hərbi-siyasi rəhbərlərinin adları isə miskin, fərari, qorxaq və yalançı "qəhrəman" kimi tarixə yazıldı.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə söyləmişdi: "Mən həmişə deyirdim ki, Laçın, Kəlbəcər və Şuşa Azərbaycana qayıtmasa, heç bir razılaşma ola bilməz. Mənim mövqeyim xarici ölkələrdə bir çoxlarını qıcıqlandırırdı". Əslində, hər birimiz tam əmin idik ki, siyasi yolla olmasa da, hərbi yolla



Azərbaycan Ordusu mütləq Laçını, Kəlbəcəri və Ağdamı düşmən tapdağından azad edəcəkdir. Buna heç bir şübhə yox idi. Amma, eyni zamanda, biz hər birimiz bilirdik ki, yerləşdikləri çətin relyefdə mövsüm şərtləri də nəzərə alınarsa, bizim çoxsaylı itkilərimiz olacaqdı. Məlumat üçün bildirək ki, sadəcə, Ağdamda 5 müdafiə xətti var idi. Bunların hər birinin aşılması zamanı itkilər qaçılmaz idi. Buna görə də sözügedən üç rayonun danışıqlar yolu ilə geri qaytarılması Azərbaycanın böyük və möhtəşəm siyasi qələbəsidir. Təbii ki, düşmən buna öz xoşu ilə razı olmadı. Bu, birbaşa Azərbaycan Silahlı Qüvvələrinin cəbhədə əldə etdiyi qeyri-şərtsiz qələbənin məntiqi davamı idi.

Bölgədə beynəlxalq hüququn təmin edilməsi müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında xalqımızın və ordumuzun iradəsi sayəsində həyata keçirildi. Azərbaycan Ordusunun gücü və qüdrəti qarşısında aciz qalan düşmənin imzaladığı kapitulyasiya sənədinə əsasən 2020-ci il dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi.

Görkəmli dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Laçın rayonunun strateji əhəmiyyətini xüsusi vurğulayaraq demişdir: "Laçın rayonu həm təbiətinə görə, həm insanlarına görə Azərbaycanın ən dəyərli guşələrindən biridir... Azərbaycanın müstəqilliyini, ərazisini qorumaq nöqteyi-nəzərdən və strateji nöqteyi-nəzərdən Laçın rayonu çox böyük əhəmiyyəti olan rayondur".

2023-cü il aprelin 23-də Laçın rayonu ərazisində, Həkəri çayının üzərində Azərbaycanın suverenliyini və təhlükəsizliyini təmin edən və İkinci Qarabağ müharibəsində əldə olunmuş Zəfərin təcəssümü kimi dəyərləndirilən "Laçın" sərhəd-buraxılış məntəqəsi quruldu. Azərbaycan-Ermənistan sərhədində ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən bu məntəqənin yaradılması ilə ölkənin bütün sərhəd xətti respublikanın nəzarəti altına alındı və Azərbaycan öz ərazi bütövlüyünü təmin etmiş oldu. Prezident İlham Əliyev 2023-cü il avqustun 26-da "Laçın Şəhəri Günü" bayram tədbirindəki çıxışında bu hadisəni xüsusi olaraq qeyd etmişdir: "23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir. Sərhəd-buraxılış məntəqəsinin qurulması ərazi bütövlüyümüzün tam bərpası deməkdir və bunu biz beynəlxalq hüquq çərçivəsində etdik, biz öz ərazimizi qoruyuruq, öz sərhədlərimizi qoruyuruq və qoruyacağıq".

2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusu tərəfindən keçirilən birgünlük antiterror əməliyyatı Qarabağda qanunsuz fəaliyyət göstərən separatçı rejimin mövcudluğuna son qoydu və ölkəmiz özünün beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi.

**Qarabağ Azərbaycandır!**
**Laçın bizimdir!**



# **Yerli özünüidarəetmə:** qazanılmış təcrübə və hədəflər




**Elmin Həsənov**
Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş baş idarəsinin rəisi, ədliyyə müşaviri

Ötən dövr ərzində ölkəmizdə uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar, dövlət quruculuğu siyasətinin sistemli şəkildə tənzimlənməsi, insan hüquq və azadlıqlarının konstitusion səviyyədə qorunması yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə də ciddi təsir göstərmiş, vətəndaşların yerli özünüidarəetmə orqanlarının işində daha fəal iştirakına şərait yaratmış, yerli demokratiya quruculuğunda onların rolunu artırmışdır.

Azərbaycanda bələdiyyələrin səmərəli fəaliyyəti dövlətin demokratik idarəetmə prinsiplərini gücləndirmək və yerli özünüidarəetmə ənənələrini formalaşdırmaq baxımından mühüm əhəmiyyət kəsb edir. 1999-cu il dekabrın 12-də keçirilən ilk bələdiyyə seçkiləri ilə Azərbaycanda yerli özünüidarəetmə sahəsində yeni bir dövr başlamışdır və bu, ölkədə vətəndaşların qərar qəbuletmə prosesində iştirakını təmin edən mühüm addım olmuşdur.

Son illər keçirilən seçkilər nəticəsində Azərbaycan Respublikası xeyli təcrübə əldə etmişdir. Bu seçkilər demokratik proseslərin inkişafı və yerli idarəetmə orqanlarının möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Seçki proseslərinin təşkilində şəffaflığın artırılması, vətəndaşların hüquqlarının qorunması və səsvermə prosesinin demokratik prinsiplərə uyğun keçirilməsi nəticəsində ölkəmiz beynəlxalq standartlara uyğun öz təcrübəsini daha da artırmışdır. Həmçinin seçkilərin azad və ədalətli keçirilməsi ölkə daxilində siyasi mədəniyyətin və vətəndaş iştirakının inkişafına müsbət təsir göstərmişdir.

İlk seçkilərin demokratikliyinin göstəricisi olaraq qeyd edilməlidir ki, məntəqə seçki komissiyalarının tərkibinin 18 faizi siyasi partiyaların, 30 faizi ictimai təşkilatların nümayəndələrindən formalaşmışdır. Məntəqə seçki komissiyalarına 21 siyasi partiyanın 5 mindən çox namizədi daxil edilmişdir. Səsvermədə seçicilərin 52,6 faizi iştirak etmiş, 20454 bələdiyyə üzvü seçilərək 2667 bələdiyyə fəaliyyətə başlamışdır.

Ümumilikdə, ötən müddət ərzində ölkəmizdə 5 dəfə bələdiyyə seçkiləri (2004, 2009, 2014 və 2019-cu illərdə) keçirilmişdir. Diqqətəlayiq haldır ki, ölkəmizdə qadın və gənclərə yönəlmiş dövlət siyasətinin nəticəsi olaraq hər dəfə seçilən bələdiyyə üzvlərinin sırasında qadın və gənclərin sayı davamlı olaraq artmışdır. Əgər 2004-cü ildəki seçkilərdə bələdiyyə üzvlərinin sırasında qadınların sayı 4 faiz təşkil etmişdirsə, 2019-cu ildə keçirilmiş sonuncu seçkilərdə onların sayı 39 faizə, 2009-cu il seçkilərində bələdiyyə üzvlərinin 26 faizini təşkil edən gənclərin sayı isə 40 faizə yüksəlmişdir.

Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi, onların resurslarından daha məqsədyönlü istifadənin təmin olunması məqsədilə ölkə qanunvericiliyinin tələblərinə uyğun olaraq 2 dəfə - 2009 və 2014-cü illərdə bələdiyyələrin könüllü birləşməsi prosesi baş vermişdir.

2024-cü ildə də ölkəmizin yerli özünüidarəetmə sistemi üçün mühüm addımlar atılmışdır. Bu il ölkəmizdə bələdiyyə idarəçiliyinin yaranmasının 25 ili tamam olur. Cari ildə bələdiyyələrin yenidən təşkili ilə bağlı münasibətləri tənzimləyən qanunvericilik aktlarına

mühüm dəyişikliklər edilmişdir. Qanunvericilikdə bələdiyyələrin könüllü birləşməsi ilə bağlı müddəalar qalmaqla yanaşı, mütərəqqi beynəlxalq təcrübə nəzərə alınaraq bələdiyyələrin yaradılması və yenidən təşkili üçün minimum hədd müəyyənləşdirilmişdir. Hazırda qanunvericiliyin tələblərinə əsasən ölkə üzrə sonuncu bələdiyyə seçkilərinin keçirildiyi ildən sonrakı 4 ilin son 2 ili ərzində əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələr onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər xüsusiyyətlər nəzərə alınmaqla Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə digər bələdiyyələrlə birləşdirilməlidir. Eyni zamanda, qanunvericilikdə istisna hal kimi birləşmə və ya ayrılma nəticəsində əhalisinin sayı 3000 nəfərdən və ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələrin yaradılmasına onlardakı sosial-iqtisadi vəziyyət, tarixi və digər xüsusiyyətlər nəzərə alınmaqla yol verilməsinin mümkünlüyü barədə norma nəzərdə tutulmuşdur.

Ölkə üzrə 1606 bələdiyyənin yenidən birləşməsi nəticəsində ümumi say 57,3 faiz azalaraq 685-ə endirilmişdir.

Hesab edilir ki, bələdiyyələrin birləşməsində məqsəd dayanıqlı və yüksək maliyyə imkanlarına malik yeni bələdiyyələrin yaradılmasına, yerli əhəmiyyətli məsələlərin həllində onların fəaliyyətinin genişlənməsinə, yerli sakinlərin məmnunluğunun təmin edilməsinə və dövlətin yerli problemlərin həlli sahəsində yükünün azalmasına şərait yaradacaqdır.

Bələdiyyələrin birləşməsindən sonra yerli özünüidarəetmə sisteminin inkişaf etdirilməsi üçün aşağıdakı hədəflər müəyyən edilə bilər:

**1. Maliyyə müstəqilliyinin gücləndirilməsi:**

Bələdiyyələrin gəlir mənbələrinin artırılması və maliyyə şəffaflığının təmin edilməsi əsas prioritetlərdən biri olmalıdır.







**2. Səlahiyyətlərin artırılması:**

Yerli özünüidarəetmə orqanlarının səlahiyyət dairəsinin genişləndirilməsi onların problemlərin həllində daha effektiv iştirakını təmin edəcəkdir.

**3. Rəqəmsal transformasiya:**

Yerli özünüidarəetmə prosesinin rəqəmsallaşdırılması şəffaflıq və effektivlik baxımından əhəmiyyətlidir. Bələdiyyə xidmətlərinin rəqəmsallaşdırılması, informasiya və kommunikasiya texnologiyalarının (bundan sonra - İKT) geniş imkanlarından istifadə edilməsi bir-



ləşdirilmiş bələdiyyələrin idarəetmə keyfiyyətini artırmaqla yanaşı, vətəndaşlara daha yaxşı xidmət göstərilməsinə və resurslardan daha effektiv istifadə edilməsinə imkan yaradacaqdır.

**4. İctimai iştirakçılığın təşviqi:** Vətəndaşların qərar qəbuletmə prosesində daha fəal iştirakını təmin etmək üçün ictimai nəzarət mexanizmləri gücləndirilməlidir.

**5. Beynəlxalq təcrübənin tətbiqi:** Yerli özünüidarəetmə sahəsində beynəlxalq təcrübənin imkanlarından istifadə etməklə daha səmərəli idarəetmə modelləri tətbiq oluna bilər.

Bələdiyyələrin birləşməsi ilə bağlı Ədliyyə Nazirliyinin üzərinə mühüm vəzifələr düşür. Belə ki, Nazirlər Kabinetinin 19 sentyabr 2009-cu il tarixli qərarı ilə təsdiq edilmiş "Bələdiyyələrin birləşməsi, ayrılması və ləğvi ilə bağlı mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün yaradılan komissiyanın say tərkibi və fəaliyyət" Qaydasının tələblərinə əsasən bələdiyyələr birləşərkən, ayrılarkən və ləğv edilərkən onlara məxsus mülkiyyət, maliyyə və başqa məsələlərin həlli üçün Nazirlər Kabinetinin qərarı əsasında komissiya yaradılır.

Bələdiyyələrin işinin qanunauyğunluğunun təmin edilməsi məqsədilə Ədliyyə Nazirliyi qanunvericiliyin tələblərinə uyğun olaraq bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti, o cümlədən bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardım göstərilməsi vəzifəsini həyata keçirir. Ötən 25 il ərzində nazirlik tərəfindən bu sahədə görülmüş işlərlə bağlı statistik göstəricilər ümumiləşdirilərək təhlil edilmişdir.

Ədliyyə Nazirliyi tərəfindən 2003-cü ildən ötən müddət ərzində 1,2 milyona yaxın bələdiyyə aktı hüquqi ekspertizadan keçirilmişdir. İnzibati nəzarət icraatı qaydasında qanunvericiliyin tələblərinə zidd olduğu müəyyən edilmiş 44 minə qədər aktın ləğvi və ya dəyişdirilməsi məqsədilə bələdiyyələrə təkliflər verilmişdir. Nazirlik tərəfindən verilmiş təkliflərin bir qisminin bələdiyyələr tərəfindən təmin olunmaması ilə bağlı həmin məsələlər üzrə inzibati nəzarət orqanı məhkəmələrdə 742 iddia qaldırmışdır.

İnzibati nəzarət icraatı qaydasında aparılmış araşdırmalar zamanı 576 halda ciddi qanun pozuntuları aşkar edilərək toplanmış sənədlər hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə istintaq orqanlarına göndərilmişdir.

Bələdiyyələrin fəaliyyətinə həyata keçirilən inzibati nəzarət tədbirləri nəticəsində ümumilikdə 117 min hektara yaxın torpaq sahəsinin qanunsuz mülkiyyətə və ya icarəyə verilməsinin qarşısı alınmışdır.

Göstərilənlərlə yanaşı bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin edilməsi, bələdiyyə üzvlərinin və qulluqçularının hüquqi maarifləndirilməsi məqsədilə 3000-ə yaxın maarifləndirmə tədbiri (seminar, kurs, təlim) keçirilmiş və bu tədbirlərə 106 mindən artıq bələdiyyə üzvü və qulluqçusu cəlb edilmişdir. Həmçinin yerli özünüidarəetmə sahəsini tənzimləyən qanunvericilik aktlarının tələblərinin izahı və fəaliyyətdə nəzərə alınması barədə 101 mindən çox tövsiyə hazırlanaraq ayrı-ayrı bələdiyyələrə göndərilmişdir.

Yerli özünüidarəetmə ilə bağlı qanunvericilik bazasının yaradılması sistemin fəaliyyətini tənzimləyən əsas mexanizmlərdən olduğundan ötən dövr ərzində "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının müddəaları və mütərəqqi beynəlxalq təcrübə ilə milli xüsusiyyətlər uzlaşdırılmaqla bu sahəni tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi daim diqqət

mərkəzində olmuş, bu məqsədlə çoxsaylı qanunvericilik aktları qəbul edilmişdir. Yerli özünüidarəetmədə aşkarlığın və ictimai iştirakçılığın təmin edilməsi ilə bağlı qanunvericilik bazasının daim təkmilləşdirilməsi məqsədilə Ədliyyə Nazirliyi tərəfindən görülən tədbirlər hazırda da davam etdirilir.

Bələdiyyə idarəçiliyinin təkmilləşdirilməsi, onların fəaliyyətində korrupsiya hüquqpozmalarını yaradan səbəb və şəraitin aradan qaldırılması, yerli büdcənin formalaşmasında mövcud problemlərin aradan qaldırılaraq büdcə gəlirlərinin artırılması, həmçinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin gücləndirilməsi və səmərəliliyinin artırılması məqsədilə Ədliyyə Nazirliyi tərəfindən bir sıra qanun layihələri hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuş, onlardan "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi barədə 2024-cü il 18 oktyabr tarixli Azərbaycan Respublikasının Qanunu ölkə Prezidentinin 2024-cü il 2 dekabr tarixli müvafiq Fərmanı ilə qüvvəyə minmişdir.

Sözügedən qanunlara edilmiş dəyişikliklərdən biri də bələdiyyə aktlarının qəbul edildiyi tarixdən 3 iş günü ərzində bələdiyyələr tərəfindən elektron sənəd formasında bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın informasiya sistemində yerləşdirilməli olmasıdır.

Müvafiq qanunlarda bələdiyyələrin fəaliyyəti sahəsində yaranan münasibətlərin tənzimlənməsi üçün hüquqi əsasların yaradılması, bəzi maddələrin qanunvericiliyin tələblərinə uyğun təkmilləşdirilməsi, normaların daha aydın və birmənalı ifadə edilməsi, eləcə də icra müddətlərinin dəyişdirilməsi ilə bağlı dəyişikliklər əksini tapmışdır. Ümumilikdə nəzərdə tutulan dəyişikliklər bələdiyyələrin fəaliyyətinin şəffaflığını artırmaq və inzibati nəzarətin effektivliyini təmin etmək məqsədi daşıyır.

Bununla yanaşı, bələdiyyələrin fəaliyyətində aşkarlığın, şəffaflığın və hesabatlılığın təmin edilməsi, bələdiyyələrin gəlir və xərclərinin vahid portalının yaradılması və bütün bələdiyyə xərclərinin portal vasitəsilə həyata keçirilməsi, portalın açıqlığının təmin olunması ilə bağlı qanunvericilik bazasının formalaşdırılması məqsədilə "Büdcə sistemi haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Qanun və "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 24 dekabr 1999-cu il tarixli 233 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" fərman layihələri hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.




Yerli özünüidarəetmə cəmiyyətin demokratik inkişafının əsas sütunlarından biridir. Azərbaycanda bu sahədə qazanılmış təcrübələr mühüm addımlar olsa da, daha səmərəli idarəetmə üçün konkret hədəflərə nail olunmalıdır. Bu istiqamətdə qanunvericiliyə edilmiş dəyişikliklər, bələdiyyələrin hüquqi maarifləndirilməsi istiqamətində görülmüş işlər onların üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsinə kömək edəcək, eləcə də yerli özünüidarəetmə orqanlarının həm səmərəliliyini, həm də ictimai etimadını artıracaqdır.

# Cənnət də olsa, dünyanın heç bir ölkəsi Azərbaycanın yerini verə bilməz

Rubrikamızın budəfəki qonağı Malayziyada doktorantura təhsili alan, gələcəyin ümidverici gənc alimi olan soydaşımız **Elçin Hüseynovdur.** O, eyni zamanda, bu dost ölkədə diaspor fəaliyyəti ilə tanınan, müəyyən nailiyyətlərə imza atan şəxsdir. Müsahibimin yeni il ərəfəsində Azərbaycana gəlişi yerinə düşdü və redaksiyamızda bizimlə maraqlı fikirlərini bölüşdü.

**- Elçin müəllim, xoş gəlmisiniz Vətənə! Bildiyimiz qədər Malayziyaya təhsilinizi davam etdirmək, elmi iş müdafiə etmək üçün getmisiniz. Elədir?**

- Bəli. Malayziya ilə tanışlığım 2013-cü ildən başlayır. Bir ölkə kimi mənə çox maraqlı təsir bağışladı. İƏT-in diplomatik stimulyasiya modeli üzrə yarışması vardı. Mən Azərbaycan üzrə birinci yeri tutan komandanın üzvü idim. Daha sonra qalib komanda kimi Malayziyada keçirilən beynəlxalq konfransa dəvət aldıq və orada da üçüncü yerə layiq görüldük. O vaxtdan Malayziya ölkə olaraq çox xoşuma gəldi, əsasən də yaşıllıqlara qərq olması və təbiətinə görə. Çox tolerant bir ölkədir. Bu xüsusiyyətinə görə oranı Azərbaycana bənzədirəm. Təxminən 34 milyon əhalisi var, onların yarı faizini müsəlmanlar təşkil edir, yarısı isə müxtəlif dinlərin və millətlərin nümayəndələridir. Təsəvvür edin, bir məhəllədə həm müsəlman məscidi, həm də hind və çin məbədləri yerləşir.

Malayların xüsusi geyimi var və onu çox sevirlər. Qadınlar üçün bu geyimə "baju kurunq", kişilər üçün isə "baju melayu" deyirlər. Malay qadınları müsəlman olduqları üçün başlarını yaylıqla örtürlər. Rənglərdə al-əlvanlıq, gül təsvirləri üstünlük təşkil edir.



Mən hazırda paytaxt Kuala-Lumpur şəhərində yerləşən Malay Universitetində sosiologiya üzrə doktorantura təhsili alıram. İctimai tədqiqat əsaslı bu elm məbədi ölkənin ən qədim və yüksək səviyyəli ali təhsil müəssisəsidir. Malayziya müsəlman ölkələri arasında yeganə ölkədir ki, universitetləri "Times Higher Education" qiymətləndirmə sistemində "TOP 300"-ə daxildir və reytinqləri çox yüksəkdir.

**- Mümkünsə, bir qədər özünüz barədə məlumat verin.**

- Valideynlərim Azərbaycan Neft və Kimya İnstitutunda elektrik mühəndisi kimi eyni qrupda oxuyublar. Hər ikisi də Rusiyaya təyinatla çalışmağa gedib. Uzun müddət orada yaşayıblar və mən də orada dünyaya gəlmişəm. Sovetlər dağılandan sonra Azərbaycana qayıdıblar.

Ağlım kəsəndən ata-anamın əlində kitab, müxtəlif eskiz kağızları görmüşəm. Onların mühəndislik fəaliyyətləri evdə də davam edirdi. Yazırdılar, oxuyurdular, müxtəlif çertyojlar üzərində çalışırdılar. Ona görə mən də oxuma-




ğa, təhsilə çox meyilli idim. Hər zaman yaxşı oxumuşam, müəyyən nailiyyətlərim olub.

Orta məktəbi bitirəndən sonra Bakı Dövlət Universitetini politologiya ixtisası üzrə başa vurdum. Hərbi xidmət keçdikdən sonra magistr təhsili üçün Malayziyaya getdim. 2019-cu ildə Azərbaycana qayıtdım və bir neçə il Azərbaycan Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsində çalışdım. Sonra isə doktorantura təhsili almaq üçün yenidən Malayziyaya qayıtdım. Gələcəkdə elmi və pedaqoji fəaliyyətlə məşğul olmaq arzusundayam. Çünki auditoriyada özümü daha rahat və xoşbəxt hiss etdiyimi fərq etdim. Doktoranturanı bitirdikdən sonra təhsil aldığım proqram çərçivəsində Bakı Dövlət Universitetində pedaqoji fəaliyyətimi davam etdirəcəyəm.

**- Malayziyada diaspor təşkilatlarının fəaliyyətində nə kimi yeniliklər var?**

- Malayziyanın 9 əyaləti var. Bu əyalətlər üzrə təxmini 50 nəfər diaspor üzvümüz var. Sayca çox azıq. Ona görə də diaspor olaraq edə biləcəyimiz şeylər də çox azdır.

Bu yaxınlarda biz Malayziya-Azərbaycan Dostluq Cəmiyyəti təsis etməyə qərar verdik. Artıq sənədlərimizi Malayziya Ədliyyə Nazirliyində qeydiyyatdan keçirməyə çalışırıq. Orada azərbaycanlıların sayı az olduğuna görə bizimlə əməkdaşlıq etməkdə maraqlı olan malayları da cəmiyyətə daxil etmək istəyirik. Çünki Türkiyədə, Azərbaycanda təhsil almış, çalışmış, biznes əlaqələri olan çox insan var. Ona görə fərqli bir formatda cəmiyyət qurmağa çalışırıq. Hesab edirəm ki, bu, az da olsa bizim diaspor fəaliyyətinin genişlənməsinə kömək edəcək.

Oktyabrın 12-də Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə Malayziyada Cənub-Şərqi Asiya ölkələri üzrə icmalarla görüş təşkil edildi. Malayziya, Vyetnam, Tayland, İndoneziya, Filippin və digər ölkələrin nümayəndələrinin iştirakı ilə gözəl bir görüş oldu. Hər bir ölkə üzrə əlaqələndirici koordinatorlar seçildi. Mən də Malayziya üzrə koordinator seçildim və biz öz aramızda müxtəlif sosial şəbəkələr üzrə qruplar yaratdıq. Orada bütün məlumatları paylaşırıq, hamını dəvət edirik. Biz çalışırıq ki, həmin ölkələrdə olan azərbaycanlıların bir-biri ilə bağı qopmasın. Çünki bəzi ölkələrdə diaspor fəaliyyətinin zəif olması məhz bununla bağlıdır ki, o regionda yaşayan soydaşlarımızın bir-biri ilə əlaqələri zəifdir. Müəyyən dostluqlar yarandıqdan sonra diaspor güclənir.

**- Vətənimizi daha yaxından tanıtmaq üçün hansı işlər görürsünüz?**

- Ümumiyyətlə, Malayziyada insanlar Azərbaycan barədə çox az məlumatlıdırlar. Bizim ölkə ya Türkiyəyə yaxın olduğumuza, ya da Azərbaycanın ev sahibliyi etdiyi nüfuzlu idman yarışlarına görə tanınır.

Bir misal deyim ki, Malayziyada ali təhsil məktəblərinin kitabxa-



nalarında Azərbaycanla bağlı heç bir məlumata rast gəlmirdim. Buna görə orada oxuyan tələbələrlə danışdıq, tariximizlə, milli irsimizlə bağlı sanballı kitablar aldıq və kitabxanalara hədiyyə etdik. Hətta mən öz elmi işimi də Azərbaycanın milli kimliyi barədə yazdım. Məqsədim də o idi ki, heç olmasa elmi araşdırmalar zamanı ölkəmiz barədə də bir məlumat tapılsın.

Malayziyada Qarabağ münaqişəsi ilə bağlı məlumatlar da çox az idi. Demək olar ki, mediada heç bir informasiyaya rast gəlinmirdi. Mən də daxil olmaqla dostlarla bərabər vaxtaşırı Azərbaycanda baş verən 20 Yanvar faciəsi, Xocalı soyqırımı, artıq Azərbaycanın qələbəsi ilə başa çatmış Qarabağ münaqişəsi ilə bağlı materiallar hazırlayırıq, Malayziya xəbər saytlarında dərc etdiririk.

**- Azərbaycanın bu ölkədəki səfirliyi ilə əlaqələr hansı səviyyədədir?**

- Azərbaycanın Malayziyadakı səfirliyi, mən deyərdim ki, bir örnək nümayiş etdirir. Hansı məsələ ilə əlaqədar olmasına baxmayaraq, soydaşlarımızın müraciətinə dərhal reaksiya verilir. Nə vaxt hansı tədbiri keçirmək istəsək, qapılarını bizə sonunadək açır. Diaspor fəaliyyətinin güclənməsi və genişlənməsi üçün lazımi dəstək verilir.

Azərbaycan üçün özəl günlərdə - istər müstəqillik günü olsun, istər milli bayramlarımız olsun yaddaqalan tədbirlər keçirilir. Hamı bir nəfər kimi dəvət olunur. Çox yüksək səviyyədə münasibətlərimiz var.

**- 44 günlük Vətən müharibəsindən sonra artıq qalib bir xalqın nümayəndəsi olaraq keçirdiyiniz hisslər bizə maraqlıdır.**

- Mən həmin günlərdə Azərbaycanda idim. Cəbhədən gələn xəbərləri izlədikcə qürur hissi keçirirdim. Bölgələrimiz dalbadal işğaldan azad olunduqca uçmağa qanad axtarırdım.

Malayziya birmənalı olaraq Azərbaycanı dəstəkləyirdi. Mən dayanmadan oradakı malay və ya başqa millətlərdən olan dostlarımla yazışırdım, məlumatlar göndərirdim, sosial şəbəkələrdə paylaşırdılar. Sevinirdilər təbii ki. Çünki mən hər zaman Qarabağ münaqişəsi ilə bağlı onları məlumatlandırırdım. Bilirdilər ki, torpaqlarımız 30 illik işğaldan qurtarır. 1 milyondan çox insanımız öz doğma ev-eşiyinə qayıdacaq.

Əslində Malayziya ilə Azərbaycan arasında bir islam həmrəyliyi faktoru var. Bu da böyük rol oynayırdı. Həm də orada Ermənistanı, ümumiyyətlə, tanımırlar, heç səfirliyi də yoxdur.

Amma hələ də Xocalı soyqırımının Malayziya parlamentində tanınmasına nail ola bilməmişik. Hətta bu yaxınlarda Malayziya



mətbuatında “Malayziya nə vaxt Xocalı faciəsini tanıyacaq?” adlı böyük bir məqalə də yazmışdım. Bununla əlaqədar bir petisiya da keçirmək niyyətindəyik.

İndi nəinki Malayziyada, dünyanın bütün ölkələrində yaşayan soydaşlarımız, sözün həqiqi mənasında, başı uca gəzirlər. Məsələ ilə yaxından tanış olan insanlar bizim bu qalibiyyətimizi Xeyirin Şər üzərində qələbəsi kimi qiymətləndirirlər.

Bu gün Avropanın bizə qarşı müəyyən qısqanclıqlar göstərməsinin bir səbəbi də məhz Qarabağ münaqişəsində Azərbaycanın möhtəşəm Zəfərinin həzm oluna bilməməsidir. Mənim özümə dəfələrlə deyiblər ki: “Halal olsun, sizin Prezidentinizə, sizin millətinizə. Siz mümkün olmayanı bacardınız!”




**- Azərbaycan o uzaq qitədən necə görünür? Deyirlər ki, gənc olanda insan qəribçilik, qürbət anlayışlarını tam dərk edə bilmir. Bu, bir qədər yaşlanandan sonra baş verir. Sizdə necə? Vətən üçün darıxırsınız?**

- Əslində Azərbaycan elə bir ölkədir ki, dünyanın ən cənnət güşəsində olsan belə buradakı səmimiyyəti, doğmalığı, qonaqpərvərliyi, insansevərliyi axtarırsan və darıxırsan. Valideynlərim, bacılarım, dostlarım buradadır. Onlar üçün darıxıram. Texnologiya nə qədər inkişaf etsə də, hər an təmas yaratmaq mümkün olsa da, canlı ünsiyyətin yerini heç nə verə bilməz.

Yeməklərimiz üçün çox darıxıram. Birmənalı olaraq düşüncəm budur ki, Azərbaycan mətbəxinin dünyada tayı-bərabəri yoxdur. Orada yeməklər olduqca acı, istiotlu və çox ədviyyatlıdır. Daha çox düyüdən istifadə edilir, düyüsüz, demək olar ki, heç bir yeməkləri yoxdur. Çörək və qırmızı ət çox bahalıdır və ümumiyyətlə, az tapılır.

Azərbaycanda təbiətin 4 fəslini olduğu kimi yaşamaq imkanı var. Qışı, yazı, yayı, payızı olduğu kimi görə bilirsən. Orada cəmi iki fəsil var, ilin yarısı güclü yağmurla müşayiət olunur, yarısı da boğucu istilərlə. Ölkə nə qədər ekzotik olsa da, yeknəsəqlik insanı sıxır.

**Qərənfil Mansurova**



AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ